**Əşir Bəşir oğlu**

# IŞIQLI ŞƏXSIYYƏTLƏR UNUDULMUR

***(sənədlər və xatirələr)***

***BAKI – 2006***

***Redaktoru:***
*fəlsəfə doktoru* **Bəhram Salman oğlu Avılov**
***Korrektor:***
*filologiya elmləri namizədi, dosent* **Zərifə Ismayıl qızı Rzayeva**

Əşir Bəşir oğlu
**«IŞIQLI ŞƏXSIYYƏTLƏR UNUDULMUR»**
Bakı – 2006, səh.

***Bu kitabı həyatdan vaxtsız getmiş oğlum Qabilin əziz xatirəsinə həsr edirəm.***

*Müəllifin «Xatirəyə dönən günlər» kitabından sonra yazmış olduğu bu kitab onun oxucularla ikinci görüşüdür. Kitabda bədnam qonşularımız olan ermənilərin başımıza açdığı faciələr öz əksini tapıb. Ən çox unudulmuşlarımız yada salınıb. Digər tərəfdən bu kitab gənclərdə vətənə sevgini, elə məhəbbəti aşılamaq üçündür.*

$B\ \frac{4702000000-44}{N-098-2006}$ ***Qrifli***

©***Əşir Bəşir oğlu, 2006***

## ƏŞIR BƏŞIR oğlu
## (FƏTƏLIYEV ƏŞIR BƏŞIR oğlu)

***Əşir Bəşir oğlu (Fətəliyev Əşir Bəşir oğlu) 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub.***

***V.I.Lenin adına API-ni bitirib. 40 ilə yaxındır ki, müəllim işləyir.***

# ÖN SÖZ

Qubadlı Azərbaycanın gözəl guşələrindən biridir. Qubadlı torpağının yetişdirdiyi bir sıra insanlar təkcə Azərbaycanda deyil, bütün dünyada məşhurdur.

Dahi sənətkar Süleyman Rəhimovun əsərləri dünyanın əksər xalqlarının dilinə tərcümə olunub və sevilə-sevilə oxunur. Dünyanın tanınmış sənətkarları onun əsərlərinə yüksək qiymət vermişdir.

Qubadlı özünün məşhur hərbçiləri, yazıçıları, şairləri, partiya-dövlət xadimləri və başqa sənət sahibləri ilə də məşhur olmuşdur. Bunlardan Valeh Bərgüşadlını, Arif Heydərovu, Məmməd Isgəndərovu, Kamran Hüseynovu, Nəzər Heydərovu, Çingiz Ildırımı, Cəlal Bərgüşadlını, Eldar Baxışı, Əsgər Abdullayevi, Möhbalı Əmiraslanovu, Həbib Şirinovu, Bahadur Həziyevi və başqalarını göstərmək olar. Onların vətən qarşısında yüksək xidmətləri olmuş və Azərbaycanı dünyaya tanıtmışlar.

Lakin həyatda elə insanlar da olur ki, onlar xalq üçün, vətən üçün çox işlər görsələr də, çox zaman unudulub gedirlər. Buna səbəb isə yaşadıqları mühitin onlara düzgün qiymət verməməsi olur. Lakin belə insanlar gec-tez öz qiymətlərini ala bilirlər. Bu, tarixin qanunauyğunluğudur.

Şıx Hacı Qasım Çələbini, Şıx Mir Sədi Ağanı, Bəhlul Bəhcəti, Soltan bəyi, Bəylər bəyi, Cəbrayıl bəyi, Ağa bəyi, Abbas bəyi və başqalarını buna misal göstərmək olar. Bunlardan Şıx Hacı Qasım Çələbi, Şıx Mir Sədi Ağa və Bəhlul Əfəndi haqqında müəyyən qədər yazılmışdır. Sonrakı beş nəfər haqqında isə demək olar ki, yazılmayıb.

Hörmətli oxucular, mən isə bu kitabda həmin insanlar haqqında məlum olan həqiqətləri qələmə almağı özümə borc bildim. Əsas məqsədim unudulmuşlarımızı yada salmaq və yazarlarımızdan onlar haqqında yazmalarını xahiş etməkdir.

Məlumdur ki, Çar Rusiyası başqa sahələrdə olduğu kimi, təhsil sahəsində də azərbaycanlılar arasında ayrıseçkilik siyasəti yeridirdi. Buna misal olaraq, XIX əsrdə Tiflisdə sünnülər üçün ayrı, şiələr üçün də ayrı məktəblər olduğunu göstərmək olar. Quba qazisi müsəlmanların sünnü-şiələrə parçalanmasının əleyhinə çıxmış və onu aradan götürmək istəmişdir. Buna görə Qafqaz canişini Quba qazisinə xəbərdarlıq etmiş və bunun imperiyanın mənafeyinə zidd olduğunu söyləmişdir. Təkcə Quba qazisi deyil, o dövrün qabaqcıl insanları olan Nərşbəndi təriqətinin davamçıları Şıx Alı Çələbi, onun oğlu Şıx Hacı Qasım Çələbi, Şıx Mir Sədi Ağa da «Qurani-Kərim»i təbliğ etməklə yanaşı, sünnü-şiyəliyin də əleyhinə olmuş və onu aradan qaldırmağa çalışmışlar.

Şıx Hacı Qasım Çələbinin kürəkəni görkəmli din xadimi, ictimai xadim, tərcüməçi, folklorşünas, bir sıra dini əsərlərin müəllifi olan Bəhlul Bəhcəm daha irəli gedərək sünnü-şiyəliyə dair əsər yazmış və bu parçalanmanın əleyhinə çıxmışdır. Özü süni təriqətindən olmasına baxmayaraq, Həzrəti Əliyə böyük ehtiram bəsləmiş, onu Məhəmməd peyğəmbərin varisi saymışdır. Bəhlul Bəhcəm Zəngəzur qəzasının qazısı olduğu müddətdə mollalara tapşırmışdır ki, məclislərdə Müaviyəyə lənət oxuyun. Müaviyəyə lənət oxumayan mollaları lənətləmişdir. O,

mollaları sünnü-şiyəliyi aradan götürmək üçün təbliğat kampaniyasına qaldırmışdır.

Hörmətli oxucular, bildiyimiz kimi, 1917-1920-ci illərdə Zəngəzur qəzasında aclıq olmuşdur. Həmin illərdə Bəhlul Bəhcəm Bakı milyonçularından ağ neft və ərzaq məhsulları alıb camaata paylamışdır.

Cəbrayıl uzbaşı isə dəfələrlə Irandan əlli-altmış qatır yükü taxıl gətirib, kasıblara pulsuz paylamışdır. Bu ağır illərdə Soltan bəyin, Bəylər bəyin, Ağa bəyin və Abbas bəyin də xalqa çox köməyi dəymişdir.

Məhz bu xeyirxah əməllərinə görə mən bütün Qubadlı yazarlarını, eləcə də Azərbaycan ziyalılarını belə insanların həyat-fəaliyyətini işıqlandırmağa çağırıram. Əgər biz keçmişimizi unutsaq, gələcəkdə bizi unudacaqlar.

# DOĞMA VƏTƏNIM QUBADLI

*Siz ata-babalarınızın müqəddəs yerlərinə o vaxt*
*vətən deyə bilərsiniz ki, onun sahibi olasınız.*
*Nəriman Nərimanov*

Hörmətli oxucu, açığını deyim ki, Qubadlı, onun təbiəti və insanları haqqında yazı qələmə almaq mənim üçün çətindir, necə deyərlər, ürək ağrısıdır. Çünki yazılan hər sözün, hər cümlənin arxasında bir xatirə, bir nisgil dayanır. Adı gələndə ürəyi fərəhlə çırpınan, sevinci yerə-göyə sığmayan mən, indi Qubadlının adı gələndə ürəyim sıxılır, göz yaşlarımı saxlaya bilmirəm.

Rusların belə bir atalar sözü var: Vətəni olmayan insan nəğmə oxuya bilməyən bülbül kimidir.

Mən bu sözlərimlə Qubadlını heç də vətənim Azərbaycandan ayrı götürmürəm. Vətənim Azərbaycanın hər bir guşəsi mənim üçün əzizdir. Eləcə də Azərbaycan xalqı, hansı bölgədən olmasından asılı olmayaraq, mənim üçün doğma və əzizdir.

Hər quşa öz yuvası əziz və isti olduğu kimi, hər insana da, öz doğulub, boya-başa çatdığı yer və dünyaya göz açdığı ev-eşiyi doğma və əzizdir.

Qubadlı rayonu tarixən igidlər məskəni, qəhrəmanlar diyarı olub. O torpaq Azərbaycan xalqına Qaçaq Nəbi və Qaçaq Həcər kimi xalq qəhrəmanları bəxş etmişdir. Qubadlı səfalı dağları, buz bulaqları, bərəkətli torpağı, barlı-bəhrəli bağları, geniş düzləri, dağ vüqarlı, mənliyini uca tutan, düşmənə əyilməyən, namuslu, dözümlü, dəyanətli, mərd, sədaqətli, səxavətli, düşmənə kinli, dosta səmimi insanları ilə də həmişə fəxr edib. Bakıdan 400 km-lik məsafədə olan Qubadlı rayonu Qarabağ yaylasının cənub-şərqində yerləşir. O Ermənistanın Qafan, Gorus, Azərbaycan respublikasının isə Zəngilan, Cəbrayıl və Laçın rayonları ilə həmsərhəddir. Onun Ermənistan respublikası ilə 120 km-lik, Qarabağın Hadrut rayonu ilə 42 km-lik sərhəd zonası var.

Qubadlı şəhəri Bərgüşad çayının hər iki sahilində salınmışdır. Şəhərə daxil olanları ilk dəfə xalq qəhrəmanları Qaçaq Nəbi və Qaçaq Həcərin qoşa dayanmış büstləri qarşılayır.

Bərgüşad çayı şəhərin ortasından axaraq onu iki hissəyə bölür. Çayın hər iki sahilində salınmış evlər, onun güllü-çiçəkli, barlı-bəhrəli bağları adamı valeh edir. Bu mənzərəyə baxmaqdan doymaq olmur.

Qubadlı şəhəri 1933-cü ildən rayon mərkəzidir. 1963-cü ildə ləğv edilərək Zəngilan rayonu ilə birləşdirilmişdir. Lakin bir il sonra, yəni 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Qubadlı rayonunun əhalisi otuz min beş yüz nəfərdir. Həmin əhalinin beş min altı yüz dörd nəfəri Qubadlı şəhərində, qalanları isə doxsan dörd kənddə məskunlaşmışdır. Rayonun ümumi sahəsi isə 802 min kvadrat kilometrdir.

Kənd təsərrüfatına yararlı ümumi torpaq sahəsi otuz üç min altı yüz iyirmi doqquz hektardır. O torpaq sahəsinin on üç min doqquz yüz əlli səkkiz hektarı əkinə yararlıdır. Əkinə yararlı torpaq sahəsinin min üç yüz altmış beş hektarını çoxillik bitkilər, 0,6 min hektarını biçənəklər, 18,6 min hektarını isə otlaqlar təşkil

edir. Həmin torpaqların dörd min səkkiz yüz iyirmi beş hektarı suvarılan, qalanları isə dəmyə sahələridir.

Ümumiyyətlə, Qubadlı rayonunda yetmiş doqquz min səkkiz yüz on iki hektar ümumi torpaq sahəsi var idi. Ümumi torpaq səhəsinin otuz iki min iki yüz yetmiş beş hektarı yol və tikinti altında qalırdı. 13,2 min hektarı təbii meşə sahəsi idi ki, 1969-cu ildən həmin sahədə dövlət qoruğu yaradılmışdır.

Işğala qədər Qubadlı rayonunun iqtisadiyyatının əsasını taxılçılıq, tütünçülük, baramaçılıq, üzümçülük və heyvandarlıq təşkil edirdi.

Rayonda otuz bir süd-əmtəə firması (iyirmi yeddisi tam mexanikləşdirilmişdir), iki-üzümün ilkin emalı zavodu fəaliyyət göstərirdi. Süd məhsulları yağ-pendir zavodunda emal edilirdi.

Rayonda fəaliyyət göstərən asfalt zavodu təkcə qubadlılara yox, qonşu rayonlara da xidmət göstərirdi. Inqibator quşçuluq fabriki, balıq yetişdirmə vətəgəsi xalqa xidmət edirdi. Daş karxanası və mərmər zavodu fəaliyyət göst ərirdi. Onu da qeyd etmək yerinə düşər ki, bunlar xalqın tələbatını tam ödəyirdi. «Neftqazavtomat» zavodunun rayondakı filialında son tamamlama işləri gedirdi. Bir sözlə, rayonda altmış iki idarə və müəssisə işləyirdi.

Qubadlı rayonu işğal olunana qədər orada iki musiqi məktəbi, bir orta texniki peşə, bir əyani qiyabi, iyirmi bir orta, on beş səkkizillik, on beş ibtidai məktəb və yeddi məktəbəqədər müəssisə fəaliyyət göstərirdi.

Bu təhsil və təlim-tərbiyə müəssisələrində min iki yüz səksən nəfər müəllim işləyirdi. Onların doqquz yüz iyirmi beş nəfəri ali təhsilli idi. Ümumi təhsil məktəblərində beş min səkkiz yüz əlli iki nəfər, texniki peşə məktəbində isə üç yüz nəfər şagird təhsil alırdı. Məktəbəqədər müəssisələrdə iki yüz yetmiş iki azyaşlı uşağın tərbiyəsi ilə məşğul olunurdu.

Qubadlı rayonunda yüz on bir mədəni maarif müəssisəsi, altmış kitabxana, on mədəniyyət evi, iyirmi səkkiz klub, altı avto klub, iyirmi üç kino qurğusu xalqın xidmətində idi.

Eyni zamanda doxsan altı iaşə, yüz iyirmi beş ticarət obyekti xalqın istifadəsində idi. Rayonda fəaliyyət göstərən otuz üç səhiyyə müəssisəsində əlli altı həkim, beş yüz on bir orta tibb işçisi çalışırdı. Dörd xəstəxana, beş həkim ambulatoriyası, əlli dörd feldşer-mama məntəqəsi və dörd aptek işləyirdi.

Bunlardan əlavə, Qubadlı rayonunda iyirmi bir rabitə müəssisəsi əhaliyə xidmət edirdi. Min doqquz yüz əlli nəfərlik səkkiz avtomat telefon stansiyası gecə-gündüz xalqın xidmətində idi. Rayondakı tarix diyarşünaslıq muzeyində beş mindən çox nadir eksponat var idi.

Bunlardan əlavə, Avtomaşınlar yüz ədəd, traktorlar iki yüz otuz dörd ədəd, taxılyığan kombaynlar altmış iki ədəd, iribuynuzlu mal-qara yeddi min yüz altmış baş, xırda buynuzlu davar iyirmi yeddi min iki yüz otuz bir baş, tonlarla taxıl, tütün, barama, bostan, kartof, çuğundur və yem məhsulları, o cümlədən süfrə üzümü şərabı xammalı və s. ermənilər tərəfindən dağıdılmış və talan edilmişdir.

Eyni zamanda yaşayış binaları, qurğuları, çoxillik əkmələri, inventarları, ehtiyat hissələrini, neft məhsullarını da bura əlavə etmək lazımdır. Ibadətgahlarımız, abidələrimiz, körpülərimiz, qədim tikintilərimiz, pirlərimiz, ocaqlarımız da ermənilər tərəfindən işğal olunmuşdur.

Hörmətli oxucu, bunlardan başqa, əxlaqımıza, mənəviyyatımıza, vicdanımıza, ürəyimizə, mənliyimizə dəyən zərərin hesablanması insanların imkanı xaricindədir. Qoy onların hesabını ulu Tanrı çəksin. Mən əminəm ki, Allah hər kəsə layiq olduğu cəzanı verəcəkdir.

Bütün bu sadaladıqlarım məni kövrəltdi, göz yaşlarım qarşımdakı vərəqi islatdı. Bu yaxınlarda bir «dostum» məni «sancdı». Dedi: «Nə vətən-vətən deyirsən, qalmışdın kəndin künc-bucağında, indi şəhərdə kef çəkirsən». Bu yerdə M.Füzulinin aşağıdakı misraları yadıma düşdü:

«Məcnun dərd əlindən dağa çıxdı, dedilər bəxtəvər yaylağa çıxdı».

Qubadlı dağlıq rayonudur. Onun ərazisində hündürlüyü 2010 metr Topağac, 1316 metr hündürlükdə Pirdağ, Bərgüşad silsiləsinin şimalında hündürlüyü 1277 metr olan Qartız, Qarabağ yaylasının cənub-şərq qurtaracağı olan və Bərgüşad çayı ilə Həkəri çayı arasında yerləşən gözoxşayan Yazı düzü uzanıb gedir.

Əziz oxucularım, 1993- cü ilin avqust ayının axırlarında Qubadlı rayonu son gunlərini yaşayırdı. Bildiyiniz kimi, Qubadlı artıq düşmən əhatəsində idi. Təxribatçı ordu tamamilə çıxarılmışdır. Onsuz da onlar vuruşmurdu. Cəbrayıl rayonunun axırıncı kəndləri: Çullu, Maşanlı və Dağtumasın da düşmən əlinə keçməsi təhlükənin qapı ağzında olduğunu göstərirdi. Düşmən gah Qafan rayonu tərəfdən, gah Gorus rayonu istiqamətindən, gah da Laçın rayonu istiqamətindən hücuma keçirdi. Qarabağın Hadrut rayonu ərazisindən güclü hücuma keçən düşmən, nəyin bahasına olursa olsun, Qubadlını işğal etmək istəyirdi. Hər dəfə də yerli özünümüdafiə dəstələrinin müqavimətinə rast gələrək, itki verib, geri çəkilirdilər. Köməksiz, qoşunsuz qalmış briqada komandiri N.Namazov tez-tez Bakıya teleqram vurub kömək istəsə də, nəticəsi olmurdu. Hər dəfə ona yalan vədlər verirdilər. 1993- cü il avqustun 30-da, buna ordu demək mümkünsə, cəmi beş-on nəfər əsgər var idi. Qalanları iki-üç gün əvvəl kimlərin göstərişi iləsə çıxıb getmişdilər. Həkəri çayı boyu kəndlərə atılan mərmilərin ardı-arası kəsilmirdi. Günortadan bir az sonra isə yaylım atəşi başlandı. Bu, insanların son ümidlərini də qırırdı. Gorusdan hücum edən ermənilər Yazı düzündə bizimkilərin müqaviməti ilə qarşılaşsalar da, Laçından maneəsiz keçib Muradxanlı kəndinə daxil oldular. Dağlıq Qarabağ tərəfdən hücum edən düşmən qoşun hissələri Həkəri çayı boyu bütün kəndləri atəşə tutdu.

Tankların köməyi ilə hücuma keçən piyada qoşun hissələri dinc əhaliyə amansız divan tuturdu. Həmin gün yalnız Qubadlı könüllüləri vuruşurdu. Onlar qaranlıq düşənə kimi fəaliyyət göstərdilər. Həmin gecə Xanlıq kəndinə qədər olan bütün kəndlər ermənilərin əlinə keçdi. 1993-cü ilin 31 avqustunda üçtərəfli mühasirəyə düşmüş Qubadlının geri çəkilməkdən başqa çarəsi qalmadı.

Qubadlı könüllüləri gecə ikən Xocahan və Ulaşlı kəndlərinə qədər geri çəkildilər. Ordan o yana Zəngilan rayonunun ərazisi başlayırdı. Bax belə təxribatın qurbanı oldu Qubadlı. Bəzən düşünürəm, görəsən indi o yerlərin halı necədir? Həkəri, Bərgüşad çayları axırmı? Görəsən Topağac, Pirdağ, Qartız dağlarının halı necədir? Bu görəsənlər mənim beynimi didib-parçalayır. Mənə elə gəlir ki, bu yerlər də bizim kimi qəm dəryasındadır. Dağların, çöllərin gülü-çiçəyi açmır. Günəş də doğmur, ay da çıxmır. Biz onlar üçün darıxdığımız kimi, onlar da bizim üçün darıxırlar, səbirsizliklə yolumuzu gözləyirlər.

Gözləyin əziz elim, obam, doğma vətənim Allahın köməkliyi ilə biz mütləq sizi azad edib, düşmən tapdağından qurtaracağıq. Məni qəhər boğur. Hörmətli oxucu, burda xalq şairi Xəlil Rzanın bir şerini xatırlayıram.

Ürək dustaq, vətən məhbəs,
Hanı Babək, Cavanşir bəs?

Vaxtilə Qaçaq Nəbinin, Qaçaq Həcərin və onun igid döyüşçülərinin əlində iki böyük dövlət: Çar Rusiyası və Iran dövləti aciz qalmışdı.

Tariximizin bütün dövrlərində ermənilər türklərə qarşı amansız olublar. Qan içən Andranikin Türkiyədə və Azərbaycanda törətdiyi qırğınları yada sal, əziz oxucum. Ermənilər insanlıq simalarını çoxdan itiriblər, onlar dünyaya ancaq pislik etmək üçün gəliblər. Amerikalı alim Vilyam Raymond demişdir: «Erməniləri Allah lənətləyib».

Məndə vətən həsrəti, vətən dərdi çox ağır keçir, mən bu nisgilə dözə bilmirəm. Hələ bu ağrı-acı bəs deyilmiş kimi, mən yaşımın ahıl çağında övlad dağı ilə də rastlaşmışam. Allah heç bir valideynə övlad dağı göstərməsin. Oğlum Qabilin faciəli ölümü tək mənə yox bütün ailə üzvlərimizə dərd və kədər gətirib. Onun iki körpə qız balası hələ də atalarının ölümünə inanmırlar. Onun yolunu gözləyirlər.

Bu yerdə xalq şairimiz Bəxtiyar Vahabzadənin aşağıdakı misraları yada düşür.

Tək qalmışam, köçüb getdi həmyaşlarım,
Ürəyimə damcılayır göz yaşlarım.
Göz yaşları üzə düşsə, gəlib keçər,
Göz yaşları qəlbə düşsə, dəlib keçər.

Hörmətli oxucularım, həqiqətən, mənim göz yaşlarım ürəyimə axır. Üç ildən çoxdur ki, oğlum Qabil vəfat edib, hələ mənim ağladığımı, göz yaşı tökdüyümü heç kəs görməyib. Xalq şairi B.Vahabzadə demişkən, mənim göz yaşlarım həmişə ürəyimə axıb. Ona görə də ürəyimə çalın-çarpaz dağ çəkilib. Allah bilən yaxşıdır. Mən vətən dərdinə dözə bilmirdim, oğul dərdi üstə gəldi. Atalar gözəl deyib ki, dərd gələndə qoşa gələr. Həqiqətən, dərd də, sevinc də gələndə qoşa gəlir. Özümün yetmiş yaşım münasibətilə yazdığım şerimin bir bəndini demək burda yerinə düşər.

Dərd gələndə qoşa gələr,
Lap şütüyub başa gələr.
Oğul-vətən oldu qoşa,
Gəlib çatdım yetmiş yaşa.

Ata-analarımızın, əzizlərimizin məzarlarının düşmən tapdağında olması da bizə ağır bir dərd olub. Axı onların ruhları bizi bağışlamaz. Biz mütləq o yerləri azad etməliyik.

Qubadlıdan didərgin düşənlər öz vətənlərinin hansı yolla işğal olunduğun yaxşı bilirlər. Bəs ordan kənarda doğulanlar, biz onlara nə cavab verəcəyik? Axı

onların ata-anaları qubadlıdırlar. Tarix bizi çox ağır bir sınağa çəkib. Axırı xeyir olsun.

Ermənilər işğal etdikləri bütün Azərbaycan torpaqlarını, o cümələdən qədim tarixə malik olan Qubadlını da özlərininki hesab edirlər. Guya bu yerlər onların ata-baba torpaqlarıdır, biz bu yerləri onların əlindən almışıq. Onlar iddia edirlər ki, Azərbaycanda yaşayan azəri türkləri gəlmədir. Həm də bu uydurmalar bu günün işi deyil, onların on illərlə bundan əvvəl qaldırdıqları hay-küylərdir. Onların son zamanlar tərtib etdikləri qondarma xəritələr indi bütün dünyanı dolaşır. Ermənilərdən sual olunur, bu torpaqlar sizin olubsa, nə üçün iddia etdiyiniz Azərbaycan torpaqları ərazisində erməni adı ilə bağlı bir kənd, bir dağ, bir çay adlarına rast gəlinmir. Hələ Azərbaycanı demirəm, sizin indi yaşadığınız ərazidə də erməni mənşəli bir yer adına rast gəlinmir.

Amerika tarixçiləri Makkarti qardaşları Azərnəşr tərəfindən 1996- cı ildə nəşr etdirdikləri «Turki i arməni» adlı kitabında erməni Azərbaycan haqqında bir sıra faktları açıqlamışlar. Görün bu yad ölkənin tarixçiləri nə yazır:

«Ermənistan respublikasının indi yerləşdiyi ərazi ermənilərin deyil, azərbaycanlıların (türklərin) olub. Elə bu səbəbdən də Ermənistan ərazisində olan coğrafi adların əksəriyyəti azərbaycanlılara məxsusdur. Hörmətli oxucu, indi öyrənək görək nə vaxtdan ermənilər Azərbaycan torpağında peyda olublar. Ermənistanın Azərbaycan torpaqlarına kütləvi axını 1828-ci il «Türkmənçay müqaviləsi»ndən sonra başlayıb. Həmin müqavilə əsasında Azərbaycan torpaqları Rusiya ilə Iran arasında bölüşdürülüb. O vaxt Iran və Türkiyə ərazisində yaşayan ermənilər Azərbaycan ərazisinə köçürülüb. Əlbəttə, Rusiyanın köməyi və himayəsi ilə». Bu tarixdir və son vaxtlara kimi ermənilərin özləri də bunu təsdiq edirdilər.

Məsələnin başqa bir cəhəti də var ki, bunun üçün biz, yəni tarixçilərimiz və bir sıra dövlət başçılarımız günahkardırlar. Tarixçilərimiz susmuş, vaxtında ermənilərə cavab verməmiş, Azərbaycana rəhbərlik edən bəzi dövlət başçıları isə ermənilər torpaqlarımıza qarış-qarış yiyələnəndə «Allah xeyir versin» demişlər. 1948-50-ci illərədə Azərbaycan ərazisinə ermənilərin növbəti axını başladı. Azərbaycan şəhərləri olan Irəvan, Gəncə, Dağlıq Qarabağ və digər şəhərlərdə ermənilərin sayı artdı.

Azərbaycanlıların açıqürəkliliyindən, qonaqpərvərliyindən istifadə edib, yaxşı evlərə və vəzifələrə yiyələndilər. Qəlbimizi oğurlayıb, qızlırını oğlanlarımıza ərə verib qohum oldular. Biz gözümüzü açanda gördük ki, Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı qalmayıb.

Erməni əclaflarının hərəkətlərini bir daha yada salmaqda məqsədim ondan ibarətdir ki, gənc nəsil bilsin ki, bugünkü faciəmizin əsas səbəbkarı onlardır. Qaçqın və köçkün vəziyyətinə düşməyimiz onların qara niyyətlərinin nəticəsidir. Indi biz nə qədər yaxşı yaşasaq da, qayğı görsək də vətən həsrəti, doğma yurd nisgili bizi sıxır və qayıtmaq arzusu ilə yaşayırıq. Aradan on-beş ilə yaxın bir vaxt keçir, iki-üç ildən sonra Qubadlıdan kənarda qaçqın-köçkün düşərgələrində dünyaya göz açan Qubadlı övladları hərbi qulluğa gedəcək. Iş çox ləng gedir on beş il. Nə isə…

Indi biz gözləmə mövqeyi tuturuq. Deyirik ermənilər nə vaxtsa peşman olacaq, sülh yolu ilə torpaqlarımızı özümüzə verəcək. Açığını deyim ki, mənim

buna inamım yoxdur. Bu ona bənzəyir ki, darıya girmiş donuza yalvarırıq ki, a donuz sən Allah darını əzmə, kənara çıx. Atalar məsəlidir: Darıya girmiş donuzu paya ilə döyüb darıdan çıxararlar.

Hörmətli oxucu, mən əminəm ki, bütün Azərbaycan xalqı ayağa qalxacaq və müharibə yolu ilə torpaqlarımızı azad edəcəyik. Siz də əmin olun. Inşallah.

## POLKOVNIK NÜSRƏT NAMAZOV

Qubadlı tarixən qəhrəmanlar diyarı olmuşdur. Qubadlı torpağı Q.Nəbi, Q.Həcər kimi xalq qəhrəmanları yetişdirmişdir. Qubadlılar tarixin bütün sınaqlarından alnıaçıq, üzüağ çıxmışlar. Onlar həmişə vətənə sadiq olmuşlar. Qaçaq Nəbinin kiçik dəstəsi vaxtilə Çar Rusiyası və Iran hökuməti kimi iki böyük dövlətə qarşı vuruşmuşlar. Bu iki dövlət Qaçaq Nəbinin kiçik dəstəsinin öhdəsindən gələ bilmirdi.

Ermənilər 1988-ci il fevral ayının 27-28-də Sumqayıt faciəsini özləri qəsdən törətdilər. Eyni zamanda dünyaya bəyan etdilər ki, Azəri türkləri ermənilərə qarşı soyqırımı edir. Bu hadisədən istifadə edərək əvvəlcə Ermənistanda yaşayan iki yüz mindən artıq azərbaycanlıları soyqırıma məruz qoyaraq, vəhşicəsinə Ermənistandan qovdular. Ermənilərə havadarlıq edən Qarbaçov hökuməti 1988-ci ilin birinci yarısında Azərbaycandan ov tüfənglərinin yığılması haqqında qərar qəbul etdi. Ermənistanda isə nəinki ov tüfəngləri, heç ağır silahlar da yığılmadı. Sərhəd kəndlərimizə hücum başlandı. Ermənilər Qubadlıya iki tərəfdən Ermənistan və Dağlıq Qarabağ tərəfdən hücum edirdilər. Qubadlının qəhrəman oğulları ayağa qalxdı. Onlar bilirdilər ki, Moskvanın sözü ilə oturub-duran respublika rəhbərliyindən kömək olmayacaq. Rayon ağsaqqalları yığılıb məsləhətləşdilər. Gənclərdən Əlyar Əliyev, Balakişi Hüseynov, Ələkbər Əliyev, Şahbaz Quliyev və başqaları özünümüdafiə dəstələri yaradılması təklifini verdilər. Onların təklifi ağsaqqallar tərəfindən bəyənildi. Beləliklə, bütün sərhəd boyu özünümüdafiə dəstələri yaradıldı.

Xalqımızın igid oğlu, tanınmış güləşçi Əlyar Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə arazi özünümüdafiə taboru yaradıldı. Əlyar Əliyev Dağbəyi Məhyəddinovu tobora komandir məsləhət bildi. Özü isə komandir müavini, həm də kəşfiyyat dəstəsinin komandiri oldu.

Milli ordu formalaşmağa başlayanda Dağbəyi Məhyəddinov başqa işə keçirildi. Onun yerinə isə Əlyar Əliyev təyin olundu. Qubadlı möhkəm müdafiə olunurdu. Təcrübəli hərbiçi polkovnik Nüsrət Namazovun Qubadlıya briqada komandiri təyin olunması isə bu müdafiəni daha da möhkəmlətdi. Əslən Qubadlı olan, uşaqlığı ana vətəni Seytas kəndində keçən polkovnik Nüsrət Namazov ərazinin hər qarışına bələd idi.

Onun Qubadlıya gəlişi ilə cəbhədə yaxşılığa doğru böyük dönüş yarandı. Briqada komandiri polkovnik Nüsrət Namazovun göstərişi ilə əlverişli mövqelərdə hava hücumundan müdafiə istehkamları yaradıldı. Bütün postlar müasir səviyyədə quruldu. Nizam-intizam möhkəmləndirildi. Kadrlar düzgün seçilib yerləşdirildi. Bütün bunlardan xəbərsiz olan düşmən, həmişə olduğu kimi, yenə də rayon mərkəzini və sərhəd kəndlərini raket və artilleriya atəşinə tutdu. Polkovnik Nüsrət Namazovun əmri ilə Ermənistanın Gorus və Qafan şəhərləri raket və «qrad» atəşinə tutuldu. Zərbələr dəqiq olduğu üçün hər iki şəhərdə çoxlu sayda dağıntı və insan tələfatı oldu. Ermənilər matəm elan etdilər. Həm də Qubadlı rəhbərliyi ilə danışıqlar aparıb, atəşin dayandırılmasını xahiş etdilər. Yerevan radiosunun Azərbaycan dilində olan verilişlərində deyilirdi: «Təkcə Qubadlı Azərbaycanın Ermənistana vurduğu ziyandan çox ziyan vurub». Qubadlının alınmaz qala

olduğunu görən ermənilər hiyləyə əl atdılar. Dedilər ki, bizim sizinlə işimiz yoxdur, sizin də bizimlə işiniz olmasın. Biz qarışmırıq, Qarabağ erməniləri özləri bilər.

Nəhayət, təxribat nəticəsində Şuşa və Laçın əldən getdi. Əfsanəvi qəhrəman Əlyar Əliyev Müdafiə Nazirliyinə və Respublika rəhbərliyinə bildirdi ki, əgər biz Laçını qaytara bilməsək, qələbədən söhbət gedə bilməz.

Respublikanın taleyi Laçından asılıdır. 1992-ci ilin payızında briqada komandiri polkovnik Nüsrət Namazovun göstərişi və bilavasitə rəhbərliyi ilə Əlyar Əliyevin başçılıq etdiyi taborun igid döyüşçüləri Laçın şəhərinin azad olunması uğrunda yürüşə başladılar. Qısa müddət ərzində otuzdan artıq erməni postu dağıdıldı. Üç gün ərzində on dörd yaşayış məntəqəsi azad olundu.

Düşmən tələfat verərək geri çəkildi. Laçının 4 km-də döyüş gedirdi. Gorus-Laçın yolu bağlanmışdı. Bu yolun kəsilməsi ermənilər üçün ağır idi. Çünki onlar hava yolu ilə ağır hərbi texnikanı apara bilmirdilər. Yenə də xəyanət öz işini gördü. Qələbə astanasında Əlyar Əliyev gözlənilmədən vuruldu. Sərkərdənin ölümü döyüşçülərdə ruh düşkünlüyü yaratdı, bundan istifadə edən Əlikram Hümbətovun komandiri olduğu tankçılar taboru Əlyar Əliyevin taboruna kömək etməyib geri çəkildi. O hətta general Nurəddin Sadıxovun əmrinə də məhəl qoymadı. General Əlikramın hərəkəti barədə müdafiə naziri Rəhim Qazıyevə məlumat verdi. Nazirin cavabı isə belə oldu: «Əlikramla işiniz olmasın. Xəyanət nəticəsində hücumu davam etdirə bilməyən igid döyüşçülər geri çəkilib, Muradxanlı və Güləbird kəndlərində mövqelərini möhkəmlətdilər.

Laçının işğalından sonra Qubadlıya çoxlu yük maşınları göndərib, əhalinin çıxmasını tələb etmişlər. Müdafiə nazirinin müavini Şahin Musayev qubadlılara müraciət edərək, təcili rayondan çıxmalarını tələb etmişdir; səbəbi isə bu olmuşdur ki, respublikaya «Zemlya-zemlya» raketləri gətirilib. Şuşa şəhəri raket atəşinə tutulacaq. O, raketlərdən səhvən Qubadlıya da düşə bilər, ona görə də əhali rayondan çıxmalıdır. Təcrübəli hərbiçi polkovnik Nüsrət Namazov dedi ki, yaxşı olar ki, o raketlər Qubadlı yüksəkliklərində qurula. Atəş zamanı əgər səhvə yol verilərsə o raketlər Şuşadan keçib Xankəndinə düşsün.

Kələyinin baş tutmadığını görən Şahin Musayev hədə-qorxuya keçdi və dedi: «Laçınlılar da sizin kimi deyirdi, axırı nə oldu». Ş.Musayevin sözlərində xəyanət olduğunu başa düşən qubadlılar onu həbs etdilər. Bu hadisəni eşidən Rəhim Qazıyev çox qəzəbləndi. O, üç qırıcı vertalyotun müşaiyəti ilə Qubadlıya gəldi. Camaatı qorxutmaq üçün şəhərin üzərində bir neçə dəfə dövrə vurub yerə endi.

R.Qazıyev əvvəlcə qubadlılara hərbə-zorba gəldi, bunun xeyiri olmadığını gördükdə isə hiyləyə əl atdı.

Dedi: «Xəyanətkarı aşkar etdiyiniz üçün sizə öz adımdan və hökumət adından təşəkkür edirəm. Mən özüm onun cəzasını verəcəm. Beləliklə, nazir Ş.Musayevi apardı. Sonra onun Moskvaya qaçmasına şərait yaratdı.

Bu hadisədən sonra R.Qazıyev qubadlıları cəzalandırmaq qərarına gəldi. O, briqada komandiri N.Namazovu müşavirə adı ilə Yevlağa çağırdı, onu vəzifəsindən götürüb, həbs olunması üçün göstəriş vermişdir. Səbəbi də bu olmuşdur ki, Ermənistanın Gorus və Qafan şəhərlərində çoxlu dağıntıya və tələfata

səbəb olub. Polkovnik N.Namazovu həbs etməklə ürəyi soyumayan müdafiə naziri onu erməni ilə bir kameraya saldırdı.

Bundan sonra R.Qazıyevin göstərişi ilə yerli kadrlardan ibarət olan tabor və tağımlar başqa bölgələrə göndərildi, onların yerinə isə bu əraziyə bələd olmayan başqa bölgələrin tabor və tağımları gətirildi.

Əfsanəvi qəhrəman böyük sərkərdə Əlyar Əliyevin vurulması, təcrübəli komandir polkovnik N.Namazovun işdən uzaqlaşdırılması rayonda vəziyyəti pisləşdirmiş və şaşqınlıq yaratmışdır.

Rayon ictimaiyyətinin təkidi və tələbi ilə 1993-cü il avqust ayının 22-də polkovnik N.Namazov yenidən Qubadlıya briqada komandiri təyin edildi.

Lakin o, üç böyük çətinlik qarşısında qaldı. Birinci, onu öz vəzifəsinə iş-işdən keçəndən sonra qaytarmışlar. Ikinci, əraziyə bələd olan tabor və tağımlar çıxarılmışdır. Onların yerinə Əlikram Hümbətovun komandir olduğu tankçılar taboru kimi təxribatçı ordu göndərilmişdir. Üçüncü, ən böyük maneə isə polkovnik N.Namazovun Qubadlıya briqada komandiri göndərilməsini eşidən baş nazir Surət Hüseynov qəzəblənmiş və onun səlahiyyətlərini azaltmışdır. Pis vəziyyətdə qalan komandir tez-tez Bakıya teleqram vurub kömək istəyirdi. Baş nazir Surət Hüseynovun göstərişi ilə Horadizdən kömək gələcək deyə onu aldadırdılar. 1993-cü il 23 avqustda Qafan, Gorus, Laçın, Hadrut və Cəbrayıl istiqamətlərində Qubadlıya hücum oldu. Hücumun qarşısı alındı. Avqustun 28-də Gorus istiqamətdə yenə də Qubadlıya hücum olundu. Düşmən sayca çox olsa da, məğlub oldu.

1993-cü il avqustun 30-na keçən gecə əvvəlcə təxribatçı qüvvələr, sonra isə N.Namazova tabe olmayan qoşun hissələri rayonu tərk etdilər. Çaş-baş qalmış bəzi döyüşçülər isə ürəkdən vuruşmadılar. Əhalini köməksiz qoyub rayondan çıxdılar.

Qoşun çıxandan sonra üç tərəfdən mühasirədə qalan Qubadlılar mərdliklə müqavimət göstərə-göstərə rayonu tərk etmək məcburiyyətində qaldılar.

Bax belə. Qubadlı təxribatın qurbanı oldu.

# AĞIR FACİƏ

*Qocalar görmüşəm ki, itirib övladını,*
*Yenə sarsılmayıb, dayanıb dağlar kimi.*
***Süleyman Rüstəm***

Həyatda ən ağır dərd oğul cənazəsinin ata çiynində getməsidir ki, o da mənə qismət olub.

11 mart 2002-ci il tarixdə Rusiya Federasiyasının Irkutsk vilayətinin Irkutsk şəhərində yaşayan oğlum Qabil saat 19-da işdən evə gələrkən yaşadığı evin həyətində naməlum şəxslər tərəfindən tamah məqsədi ilə vəhşicəsinə qətlə yetirilib.

Bu faciə bizə çatdırılanda bütün ailə üzvlərimiz dəhşətli dərəcədə sarsıldı. Mənim isə bütün varlığım əlimdən alındı. Belə hadisələri hər valideyn bir cür qəbul edir. Bəziləri bunu həyatın bir üzü kimi qiymətləndirir. Belə hadisələri alın yazısı və tanrı qisməti hesab edib, buna şükür edənlər də olur. Bəziləri isə mənim kimi buna dözə bilmir və tamamilə sarsılır.

Mənim ürəyimə çalın-çarpaz dağ çəkilib, oğlumun müsibəti məni gündə yüz dəfə öldürüb-dirildir.

Oğlum Qabili məzara tapşıranda bütün bədənim lərzəyə gəldi. Ah-nalə göylərə ucaldı, göz yaşları sel-suya döndü. Oğlum Qabilin anası, bacısı, qardaşları, bəxti qara zövcəsi, körpə balaları göz yaşlarından məhv olurdular. Bircə mənim gözümdən yaş çıxmırdı. Bütün varlığım daşa dönmüşdür. Qoy o böyük yaradana xoş getsin, bəlkə, onlar göz yaşları ilə dərddən-qəmdən uzaqlaşırdılar. Mən isə əksinə…

Bu yerdə xalq şairi Bəxtiyar Vahabzadənin aşağıdakı misraları yada düşür.

Harda bir dərdli görsən,
Sən o yerdə sor məni.
Mən qəmi axtarmıram,
Qəm özü tapır məni.

Qəmim-sevinc qaynağım,
Dərdim-könül sirdaşım.
Axır damarlarımdan,
Qan yerinə göz yaşım.

Həmin dəqiqələrdə göylərə əl qaldırıb yerimdəcə ölməyi arzulamışam. Ancaq hər şey biz istədiyimiz kimi olsaydı nə vardı ki, kimin taleyinə nə yazılıbsa, o da olacaq.

Oğlum Qabilin qismətinə cəmi otuz iki il ömür sürmək yazılıbmış. Atalar deyib ki, yazıya pozu yoxdur. Onun iki körpə balası: Əminə və Gülnar atalarının ölümünə inanmır, hələ də onun yolunu gözləyirlər.

Tikmədaşlı Xəstə Qasım demişkən:

Bu dünya fanidir, fani,
Bu dünyada qalan hanı?
Davud oğlu Süleymanı
Qızıl taxtdan salan dünya.

Doğrudan da, dünya fanidir, hamı onda qonaqdır. Gec-tez hamı bu dünyanı tərk edəcək. Hörmətli oxucular, Allah heç kəsə övlad dağı göstərməsin. Ümumiyyətlə, cavan ölümü faciədir. Valideynin övlad dağı görməsi isə iki qat faciədir. Allah heç bir valideynə övlad dağı göstərməsin.

Insan bir əzizini itirəndə bəzən fikirləşir ki, görəsən bundan qaçmaq olardımı? Bəlkə o, başqa cür hərəkət etsəydi, belə olmazdı. Mən böyük bir həyat yolu keçmişəm. Insanlar həmişə belə düşünüblər, lakin taleyinə nə yazılıbsa, o da olub.

Böyük Azərbaycan  şairi Şəhriyar yazır:
Bir kiçik budağı qıranda rüzgar,
Budaq qan-yaş tökər, ağac qan ağlar.
Başqa bir şerində isə deyir:
Sənin bəhrin, yiyən kimdir?
Kiminkisən, yiyən kimdir?
Sənə doğru deyən kimdir?
Yalan dünya, yalan dünya!

Böyük şairimiz Şəhriyar necə də gözəl deyib. Insan dünyaya gəlir, az-çox yaşayır sonra ölüb gedir.

Şair demişkən, elə bil yalan imiş, heç yox imiş dünyada. Onun əzizləri dünyadan köçəndən sonra o da təzədən ölür və unudulub gedir. Lakin neçə ki əzizləri, doğmaları yaşayır, o da onların ürəyində yaşayır. Oğlum, sən də hələ ölməmisən, əzizlərinin, doğmalarının ürəyində yaşayırsan. Necə ki o ürəklər döyünür, yaşayır sən də yaşayacaqsan.

Oğlum Qabilə həsr etdiyim «Dağlar ağladı» şerindən bir neçə bənd:

Kədərli xəbərdən dağlar ağladı,
Analar, bacılar qara bağladı.
Sənin faciənə dözmədi Həkəri,
Hikkəsindən aşıb, daşıb çağladı.

Hərtizi, Sənkəri duman bağladı,
Həkəri, Bərgüşad qoşa çağladı.
Ana torpaq dözmədi, qan ağladı,
Sənin dərdinə ellər yas saxladı.

Işıq da vermədi günəş, ay, ulduz.
Qaranlıq oldu gecə kimi gündüz.
Hələ yol gözləyir bir cüt körpə qız
Səni çox sevən gəlin qalıb yalqız.

Sındırdın qəddini məğrur atanın
Səni canından da əziz tutanın
Daim sənin məzarında yatanın
Intizardan ömrü sona çatanın.

Əşirə bu dünya zülmət gecədir,
Daha işıq vermir, günəşi, ayı.
Dərdlərimin ölçüyə gəlmir sayı,
Allah, varmı bədbəxt məndən savayı.

## KƏNDIMIZIN SEYIDLƏRI

Bütün dövrlərdə xalqa doğru yol göstərən, eldə-obada mürşid kimi tanınan adamlar olmuşdur.

Mənim anadan olduğum Mollu kəndində də belə adamlar olmuşdur.

Təxminən 1946-47-ci illərdə bizim Mollu kəndinə üç seyid ailəsi köçmüşdür.

Bunlardan biri Seyid Həbib Ağa, digərləri isə iki qardaş olan Seyid Əbdül Ağa və onun qardaşı Seyid Ədil Ağa idi. Bu üç seyid ailəsi, həqiqətən, özlərini ağa kimi aparmış, elin bütün xeyir-şərlərində iştirak etmiş və camaatın dərin hörmətini qazanmışlar. Seyid Həbib Ağanın oğlu Seyid Haçif Ağa Mollu kəndidən qız almış və oğul-uşaq sahibi olmuşdur. Seyid Həbib Ağanın qızı Seyid Nicavat xanım da Mollu kəndində ərə getmiş o da oğul-uşaq sahibi olmuşdur.

Seyid Ədil Ağanın övladı olmayıb. Seyid Əbdül Ağanın iki oğlu olub: Seyid Həsən Ağa və Seyid Məcid Ağa. Seyid Həsən Ağanın oğlu Seyid Hüseyn Ağa Bakı Islam Universitetini bitirib. Ali təhsilli ruhanidir. Rayonumuzun bütün tədbirlərində yaxından iştirak edir. Rayondakı dəfn mərasimlərimizin əksəriyyətini o idarə edir. Seyid Hüseyn Ağa həccə gedib, Allah evini ziyarət edib. O hacıdır. Allah ona uzun ömür versin, işlərini uğurlu eləsin.

# HACI QASIM ÇƏLƏBI

Hörmətli oxucu, belə çətin və məsuliyyətli mövzunu qələmə almaq mənim öz elimə, obama bağlı olmaq istəyindən doğur.

Hacı Qasım Çələbi, Bəhlul Əfəndi, Mir Sədi Ağa kimi işıqlı zəkalarımız daim elimizə-obamıza ağsaqqallıq edib, onlara düz yol göstəriblər.

Şıx Hacı Qasım Çələbi haqda yazıya başlamazdan əvvəl mən istəyirəm öyrənək görək şıx və çələbi sözləri dilimizə hansı mənbələrdən daxil olub və o sözlərin mənası nədir. Bəzi ədəbiyyatçılar bu sözün kürd və ya monqol dilinə aid olduğunu, digərləri isə yunan sözü olduğunu iddia edirlər.

Məşhur səyyah Ibn Bətutənin fikrincə, «çələbi» sözü yunan dilində, fars və ərəb dillərində olan «mövlana», «seyyidi» və «seyidanə» mənasını bildirir.

Böyük Azərbaycan alimi Məhəmmədəli Tərbiyyənin fikrincə, yunan dilində işlənən «çələbi» sözü çox güman ki, onların dilinə həmişə təmasda olduqları skif türklərindən keçibdir. Alimin fikrincə, «çələbi» sözü fars dilində «mövlanə» (allahın dostu), ərəb dilində övliyullah (allahın dostu) sözlərinə sinonim kimi işlənmişdir. Bu gün də Orta Asiyadakı bir çox türk tayfaları adlı-sanlı, işıqlı adamlara çələbi deyə müraciət edirlər.

Azərbaycan türkləri arasında bu söz XII-XIII əsrlərdən başlayaraq geniş yayılmışdır. Məsələn: Mövlanə Ruminin müridi olmuş urməvi türkü Hüsaməddin çələbi bu sözü bir şair kimi özünə təxəllüs qəbul etmişdir. Deməli, XII-XIII əsrlərdən başlayaraq Azərbaycanda hörmətli, savadlı, işıqlı adamları «çələbi» adlandırmışlar.

Indi də öyrənək görək şıx sözü dilimizə hansı mənbələrdən keçib.

Qədim kitabalərdə «mürşüd» kimi işlənən söz ərəbcə «şeyx», «həzrət», farsca pir, azərbaycanca baba, ağa, şıx sözləri ruhani alimlərə, təriqət başçılarına, bir sözlə, vəzifəli, adlı-sanlı adamlara verilən adlardır. Şıx sözü şeyx sözünün dilimizdə işlənən formasıdır. XII-XIII əsrlərdən başlayaraq, şıxlar Azərbaycan türkləri arasında ən nüfuzlu şəxslər olmaqla yanaşı, ölkənin iqtisadi-siyasi, sosial-mədəni həyatında yaxından iştirak edirdilər. XX əsrin ikinci yarısından başlayaraq, başa bəla ziyalılarımız nədənsə şıx sözünü şeyx kimi deməyə və yazmağa başladılar. Məsələn, şıx Nizami oldu şeyx Nizami və s.

Şıx Hacı Qasım Çələbi Nəqşbəndi təriqətinə mənsubdur.

Indi öyrənək görək, Nəqşbəndi təriqəti nə deməkdir? Tarixi mənbələrin yazdığına görə, bu təriqətin əsası XIV əsrdə böyük Övlüyya Buxaralı şıx Bəhaəddin Məhəmməd tərəfindən qoyulmuşdur. Bəzi din tarixçiləri isə bu təriqətin tarixini daha da irəli atırlar. Onlar iddia edirlər ki, bu təriqət Təbrizdən Buxaraya keçmişdir. Ancaq öz yüksək təşəkkülünü şıx Bəhaəddinin başçılığı zamanı tapmışdır. Din alimlərinin dediyinə görə Şıx Bəhaəddinin özü danışırmış ki, «Atam, anam və mən naxışlı taxta toxuduğumuz üçün bizə «Nəqşbənd» adı verilmişdir». Digər din tarixçiləri isə iddia edirlər ki, bu ad Buxara şəhəri yaxınlığında yerləşən Nəqşbənd kəndinin adından götürülmüşdür. Şıx Bəhaəddin həmin kənddən olduğu üçün təriqət «Nəqşbəndi» adlanmışdır.

Bu təriqət ilk dövrlərdə müsəlmanlara tərkidünyalığı və ilahi məhəbbət ideyalarını təbliğ etmişdir. O, yoxsulluğun əlehinə olmuş və onu aradan götürmək

istəmişdir. Nəqşbəndi təriqəti Qafqaza rus işğalı zamanı gəlmişdir. Əsas məqsədi Qafqazda yaşayan müsəlmanları islam bayrağı altında birləşdirmək və ölkəni işğalçılardan təmizləmək olmuşdur. XIX əsrin əvvəllərində Nəqşbəndi təriqətini Qafqaza gətirən ilk şəxs Şıx Əfəndi (Seyid-Nigari) olmuşdur. Bu təriqətin davamçısı şıx əfəndidən sonra böyük Şıx Hacı Alı Çələbi olmuşdur. Böyük Şıx Hacı Alı Çələbi sünnü-şiyəliyi aradan götürmək istəmişdir. O, oğlu Qasımı sevib oxşayarkən həmişə deyərmiş mənim həyata keçirə bilmədiyim işləri bu balam həyata keçirəcəklir.

Şıx Hacı Qasım Çələbi 1858-ci ildə anadan olub. O, XX əsrin əvvəllərində Nəqşbəndi təriqətini ən yüksək zirvəyə qaldırıb. Şıx Hacı Qasım Çələbi, ilk növbədə, «Qurani-Kərim»in camaat arasında yayılmasına və öyrənilməsinə diqqət vermişdir. Nəticədə Allah kəlamı olan «Qurani-Kərim» xalq arasında şifahi xalq inciləri kimi dillər əzbəri olmuşdur.

Ərəb dilini və ərəb əlifbasını bilməyən insanlar şıx Hacı Qasım Çələbinin gərgin əməyi və səyi nəticəsində «Qurani-Kərim»i səhvsiz, nöqsansız əzbərləmişlər.

Şıx Hacı Qasım Çələbi sünnü-şiəliyi aradan götürmək istəyirdi. O, mollalara, axundlara tövsiyə edirdi ki, bütün məclislərdə «müaviyəyə lənət» oxunsun. «Müaviyəyə lənət» oxumayan mollaların, axundların özlərinə lənət oxuyurdu. Parçalanmağı və təəssübkeşliyi rədd edən «Qurani-Kərim»də sünnü-şiəliyə yer yoxdur. Bunu doğuran səbəbə lənət var.

Hacı Qasım Çələbinin təlimi bu gün daha böyük əhəmiyyət kəsb edir.

Bu gün bu təlimin öyrənilməsi həm sünnü-şiəliyi aradan qaldırar, həm də vahabizmi inkar edər. Hacı Qasım Çələbinin təliminin öyrənilməsi Azərbaycan cəmiyyətini şovinist və dağıdıcı islam təriqətlərindən, xristianlığı təbliğ edən cəmiyyətlərdən qorumaq deməkdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Hacı Qasım Çələbi, onun oğlu Alı Çələbi, kürəkəni ömrü boyu bir əlində «Quran», bir əlində azadlıq yolunda qılınc tutan, həmişə ermənilərə qarşı amansız olan Bəhlul Əfəndi təqib olunurdu. Nəhayət, 1924-cü ildə Bəhlul Bəhcəti həbs edib, ona on il iş verdilər.

Şıx Hacı Qasım Çələbinin və oğlu Alı Çələbinin təqibi isə davam edirdi. Bütün bu yersiz təqiblərə və işgəncələrə dözməyən şıx Hacı Qasım Çələbi 1928-ci ildə dünyasını dəyişdi. Allah rəhmət eləsin. Alı Çələbi Şıx Hacı Qasım Çələbi oğlu uzun sürən təqiblərdən sonra 1937-ci il 8 avqustda həbsə alınmış, əks-inqilabi mürid qrupunun rəhbəri kimi beşi sentyabr 1937-ci ildə güllələnmişdir. Ölüm yeri də bilinmir.

Şıx Hacı Qasım Çələbinin sevimli kürəkəni Bəhlul Bəhcət 1934-cü ildə həbsdən buraxılıb, ona «Azərnəşr»də iş verilmiş, indiki H.Hacıyev küçəsində üç otaqlı mənzil də ayrılmışdır. Lakin onun təqibi ermənilər tərəfindən davam etmiş və Mircəfər Bağırova yalan məlumatlar verilmişdir. Odur ki, 1937-ci ilin avqustunda Bəhlul Əfəndini iş yerində həbs etdilər. O 1938-ci il martın 15-də NKVD üçlüyünün qərarı ilə güllələnmişdir. 1958-ci il noyabrın 5-də işində «cinayət aktı» olmadığı üçün ölümündən sonra tam bəraət almışdır.

Şıx Hacı Qasım Çələbi atası Şıx Alı Çələbinin ölümündən sonra təriqət davamçısı və rəhbəri kimi bu yolda çox böyük işlər görmüşdür.

Hacı Qasım Çələbi deyirdi: «Müsəlmanın nə sünnüsü nə şiəsi». O, bu yolda daha ciddi addımlar atmağa başladı.

Hacı Qasım Çələbi Qubadlının Həmzəli kəndindən olan savadlı, adlı-sanlı bir adamla - şiəməzhəb Hacı Həsən Hacı Mehdi oğlu ilə bir yerdə həccə gedibmiş. O Kəbənin qapısından keçərkən Hacı Həsəndən soruşur: «Hacı Həsən, kəbənin neçə qapısı var»?

Hacı Həsən cavab verir ki, «əlbəttə bir».

Hacı Qasım Çələbi deyir: Onda biz nə üçün sünnü-şiəyə bölünməliyik? Islamda təfriqə salmaq, ziddiyyət yaratmaq, məzhəb ayrıseçkiliyi yaratmaq, vallah, ağılsızlıqdır. Hacı Həsən cavab verir: Ya Şıx Hacı Qasım Çələbi, sənə iman gətirməyənə lənət. Bununla da Hacı Həsən Hacı Mehdi oğlu sünnü-şiəliyi inkar edir və Hacı Qasım Çələbiyə qoşulur.

Şıx Hacı Qasım Çələbinin və onun müridlərinin «müaviyəyə lənət» şüarı altında sünnü-şiəliyə qarşı apardığı təbliğat kompaniyası sonda öz nəticəsini verdi. Hacı Qasım Çələbi və onun müridlərinin əhatə dairəsində yerləşən Qubadlı, Cəbrayıl, Zəngilan və Laçın rayonlarında, demək olar ki, məzhəb ayrıseçkiliyi aradan götürülmüş, sünnülər də, şiələr də bir bayraq altında birləşmişlər.

Şıx Hacı Qasım Çələbinin ölümündən sonra onun övladları, müridləri, tərəfdarları və ardıcılları DTK zirzəmisinə atılmış, sorğu-sualsız güllələnmişlər. Kəndin əhalisinin çoxu Sibirin, tundranın cəhənnəmi xatırladan çöllərinə sürgün edilmişdir. 1960-cı ilə qədər Çələbilər kəndində yaşayış olmamışdır. Qonşu ölkələrə getmək istəməyən və gedə bilməyənlər DTK-dan can qurtara bilməmiş və qırmızı terrorun günahsız qurbanları olmuşlar. Hətta Şıx Hacı Qasım Çələbi kimilərin irsinin öyrənilməsi də istilaçı dövlət tərəfindən yasaq edilmişdir.

Indiki müstəqillik dövründə Hacı Qasım Çələbinin və onun ardıcıllarının irsini öyrənmək sünnü-şiəliyi yaşadanlara layiqli cavab olardı. Sözdən işə keçməyin vaxtıdır. Bu, Islam birliyini pozanlara klassik rus siyasətçilərinə, daşnaqsütun partiyasının ifşa edilməsinə, şiəliyə millətçilik kimi baxan şovinizmin layiqli cavabı olardı.

## MIR SƏDI AĞA

*Dünyanı ancaq namusla idarə etmək olar.*
*Dövlət və bayraq ancaq namusla ucalar.*
***Nizami***

Mir Sədi Ağa haqqında çox yazılıb. Rayonumuzun ən güclü yazarlarından və ziyalılarından biri olan şair, nasir və jurnalist Tarıyel Gahangirin Mir Sədi Ağa haqqında yazdığı kitabı isə mən çox yüksək qiymətləndirir və onu ən güclü mənbə hesab edirəm.

Çünki Tarıyel müəllim o ailənin yaxın dostu olmuş, Mir Sədi Ağanın sevimli oğlu Mir Məhəmməd Ağa ilə uzun müddət yoldaşlıq və dostluq etmişdir. Tarıyel müəllimin ana babası tanınmış din xadimi Dünyamalı kişi və onun ömür-gün yoldaşı Səlbinaz nənəsi Nəqşibəndi təriqətinin iki böyük mürşidi Hacı Qasım Çələbinin və Mir Sədi Ağanın müridləri olmuşlar.

Mir Sədi Ağa Əlini Mola Dünyamalının kürəyinə vurub deyərmiş ki, sağ ol Dünyamalı, dinimizi bütün incəliklərinə qədər bilir və düzgün təbliğ edirsən. Sən olmasaydın, mən heç bir mollanı tanımazdım.

Bütün bunlardan başqa, Tarıyel müəllim 1999-cu ilin soyuq qış günlərindən başlayaraq, keçmiş DTK-nin müstəqil respublikamızın MTN-ə miras qalmış arxivində axtarılma başlayaraq, Mir Sədi Ağanın həbsləri haqqnda olan sənədləri üzə çıxarmış və onlara aydınlıq gətirmişdir. O, arxivlərdə uzun müddət işləmiş və çox əzab-əziyyət çəkmişdir.

Mir Sədi Ağanın özü də Tarıyel müəllimin xətrini çox istəmiş, onu öz sevimli oğlu Mir Məhəmməddən seçmirmiş.

Tarıyel müəllim bütün bunlarla kifayətlənməmiş, Mir Sədi Ağanın təmasda olduğu adamlarla görüşmüş və onların xatirələrini qələmə almışdır.

Mən mübağiləsiz deyərəm ki, o, şeyxin həyat və fəaliyyətini yüz faiz işıqlandırmışdır. Bütün bunları sadalamaqda məqsədim odur ki, heç kəs Mir Sədi Ağanın və Mir Məhəmməd Ağanın həyat və fəaliyyətini Tarıyel müəllim qədər düzgün və dolğun əhatə edə bilməz.

Ancaq mən yazdığım xatirə kitabında Hacı Qasım Çələbiyə və Bəhlul Əfəndiyə bölmə ayırıb, Mir Sədi Ağanın və Mir Məhəmməd Ağanın adını çəkməyə bilmirəm.

Məhz buna görə də mən əvvəldən oxucularımdan və xətrini çox istədiyim Tarıyel müəllimdən səhvlərimin bağışlanmasını xahiş edirəm. Əldə etdiyim materiallara əsaslanaraq deyə bilərəm ki, Mir Sədi Mir Ziyəddin oğlu 1898-ci ildə keçmiş Zəngəzur qəzasının Qubadlı rayonunun Mirlər kəndində anadan olmuşdur. Çox təəssüflər olsun ki, həmin il qırmızı imperiyanın yaradıcısı olan Kommunist partiyasıda meydana gəldi. Balaca Mir Sədi sürətlə böyüyür, əqli və kamalı ilə ətrafa nur saçırdı. O, ilk təhsilini atasından və ustadı şıx Hacı Qasım Çələbidən almışdır.

Şıx Mir Sədi Ağa 1906-cı ildə Ağdaş rayonunun Zeynəddin mədrəsəsinə qəbul olmuş və 1916-cı ildə onillik ruhani təhsilini başa vurmuşdur. Bu mədrəsə

ölkədə tanınmış elm ocağı idi. Çünki oranın zəngin tədris bazası, adlı-sanlı ilahiyyat alimləri, savadlı müəllimləri var idi.

Mir Sədi Ağa mədrəsəni bitirəndə onun rəhbərliyi və müəllim heyəti Ziyəddin Ağaya razılıq etmiş və oğlunun parlaq gələcəyi olduğunu söyləmişlər.

Nəqşibəndi təriqətinin mürşidi Hacı Qasım Çələbi də öz sevimli və istedadlı müridini yüksək qiymətləndirərək demişdir: «Mir Sədi Ağa Islam səmasında parlaq bir ulduza çevriləcək, böyük şeyx olacaq. Heyif ki, pis dövrə düşəcək.»

Ustadı və atası necə demişdi, eləcə də oldu. Sovet hökuməti din xadimlərindən və açıq fikirli ziyalılardan çox qorxurdu. Islam dini ilə bağlı ziyarətgahlar nəzarət altına alınır, məscidlər bağlanır, onlardan ancaq anbar kimi istifadə olunurdu.

Qırmızı imperiya bilirdi ki, Mir Sədi Ağa bu quruluşu istəmir və ona nifrət edir. Ona görə də onu həmişə nəzarətdə saxlayır, bir addım da olsun gözdən qoymurdu. Xalqın qəzəbini qazanmamaq üçün din məsələsini bir kənara qoyur, «xalq düşməni» və «antisovet» sözlərini işlədirdilər. Bu sözlərlə onlar şeyxi gözdən salmaq istəyirdilər. Din, xüsusilə Islam dini təhlukəli hesab olunurdu. Təsadüfi deyil ki, din və din xadimlərinə qarşı hücumlar 1937-ci il represiyasından çox-çox əvvəl başlanmışdır.

Azərbaycanda ən dəhşətli həbs 1929-cu ildə başlandı. Bu, kolxoz quruluşunun yaranması ilə bağlı idi. Onlar din xadimlərinin kolxoz quruluşuna mane olacağını əvvəlcədən görürdülər. Belə təbliğat aparılırdı ki, Sovet hökuməti xalqın və fəhlə kəndlinin hökumətidir. Xalq öz hökumətini sevməli, onun qurulmasına mane olanları aradan götürməlidir. Guya o quruluş xalqı azadlığa çıxaracaq və kommunizmə aparacaqdır.

Mir Sədi Ağa böyüyüb yaşa dolduqca onun ad-sanı, şan-şöhrəti ölkə hüdudlarından kənara çıxırdı. Bu, qırmızı imperiyanı qorxudur və narahat edirdi. Azərbaycanda vəziyyət daha qorxulu idi. Günahsız adamlar «troyka»nın qərarı ilə tutulur, bəziləri ailə üzvlərinin və camaatın gözü qarşısında xalq düşməni adı verilərək güllələnirdi.

Həbs olunanların bir çoxunu (iqlim dəyişikliyinə məruz qoymaq üçün) Sibirə və Rusiyanın soyuq yerlərinə sürgün edirdilər. Mir Sədi Ağa altmış üç illik ömrü ərzində üç dəfə həbs olunmuş və üst-üstdə on yeddi il iş almışdır.

Onun birinci həbsi 1930-cu ildə oldu. Hara aparıldığı da bilinmədi. Sən demə onu isti Azərbaycandan 40-50$^0$ şaxta olan Murmansk şəhərinə sürgün ediblərmiş. Orda Mir Sədi Ağanı beş il dəmir yolunda fəhlə işlətmişlər. Buz bağlamış relslər arasında ac-susuz işləyib ölməyən insanı ancaq Allah eşqi saxlaya bilərdi.

Həmin vaxtlar Tarıyel müəllimin ana babası, savadlı molla olan Dünyamalı Gülmalı oğlu da həbs olunmuşdur. O, həbsdən sonra çox yaşamadı, dünyasını dəyişdi. Mir Sədi Ağa həbsdən qayıdandan sonra Dünyamalı kişinin ölümünə heyfsilənmiş və demişdir: - Imamzadəni ziyarət edəndə Dünyamalını da ziyarət edin.

Beşillik həbsdən sonra şeyx vətənə qayıtdı. Mir Sədi Ağanın xalq arasında böyük nüfuza malik olduğunu görən qırmızı imperiya təşvişə düşür və onu bir an

da gözdən qoymurdu. Şeyx özü də bilirdi ki, Sovet hökuməti beşillik həbslə kifayətlənib ondan əl çəkməyəcək.

Ona görə də o, ehtiyatla hərəkət edir, hər addımını ölçüb-biçirdi. Buna baxmayaraq, 1943-cü il aprelin 9-da o, ikinci dəfə həbs olundu. Onun həbs olunması üçün qərara imza atanlar DTK adından Yemelyanov, DIK adından R.Markaryan olmuşdur. Mir Sədi Ağa Ermənistan SSRI xüsusi xidmət orqanlarının «faktları»na əsasən həbs olunmuşdur. Şeyx həbs olunacağını əvvəlcədən bilirdi. Ona görə də şam süfrəsinin tez açılmasını tapşırmışdı. Yeməkdən sonra səbəbini soruşanlara dedi:

- Qoxmayın, bir ildən sonra qayıdacağam. Allaha təvəkkül, o məni qoruyar. O, ailə üzvləri ilə görüşüb qurtaran kimi qapı döyüldü. Qapını özü açdı, onu maşına oturtdular. Ancaq maşın hərəkətə gəlmədi.

Ürəyində az- çox Allah xofu olanlardan biri yalvardı:

- Seyid sizi apara bilməsək, bizim evimizi yıxacaqlar. Mir Sədi Ağa üzünü sürücüyə tutub dedi:

- Sür, maşınında nasazlıq yoxdur.

Maşın işə düşdü. Bu dəfə onu Irəvana apardılar. Ermənistan DTK-nın türməsində saxladılar və işi erməni müstəntiqləri aparırdı. Guya hadisələr Ermənistan ərazisində cərəyan edib. Ermənistanın Qafan rayonu ərazisində yerləşən Azərbaycan kəndlərində yaradılan antisovet təşiklatına rəhbərlik etməkdə onu günahlandırırdılar.

1944-cü ilin mayında Mir Sədi Ağa həbsdən buraxıldı. Nəinki Qubadlı, ətraf rayonlardan da Ağanı ziyarət etməyə gəlirdilər. Bu, əlbəttə, qırmızı imperiyanı narahat etməyə bilməzdi.

Mir Sədi Ağa haqq yolunda idi, onu heç bir qüvvə bu yoldan döndərə bilməzdi. Haqq yolundan çıxmayan, mənəviyyatı, insanlığı uca tutan insanlar və bu insanların yaşadığı dövlət uzunömürlü olurlar. Osmanlı imperatorluğu buna ən yaxşı misaldır.

Mir Sədi Ağanı yenə də gözdən qoymurdular. O, özü də ehtiyatlı hərəkət edir, onu ziyarətə gələnlər də camaat yatandan, işıqlar sönəndən sonra gəlirdilər. Buna baxmayaraq, DTK bunu bilir və öz ağalarına xəbər verirdilər. Irəvan həbsindən buraxılandan sonra Mir Sədi Ağa ailə həyatı qurmuşdu. 18 fevral 1946-cı ildə Mir Məhəmməd Ağa dünyaya gəldi. Şeyxin həbsdən buraxılmasına, müharibənin qurtarmasına, Mir Məhəmməd Ağanın dünyaya göz açmasına xalq çox sevinirdi. Üç qat bayram idi. Təəssüflər olsun ki, bu sevinc uzun sürmədi. 1948-ci il aprel ayının 8-də Mir Sədi Ağa yenidən həbs olundu. Həmin ayın 22-də onu rus dilində yazılmış qərarla Azərbaycan DTK Nazirliyinin müstəntiqi tanış etdi.

Guya o, Sovet hökumətinin və kolxoz quruluşunun əleyhinə olmuş, bu barədə kolxozçular arasında antisovet təbliğatı aparmış, məktəblilər və əhali arasında dini təbliğ etmişdir.

Tarıyel müəllim qeyd edir ki, mən üçüncü həbsin istintaq materiallarını araşdırarkən, Mir Sədi Ağanın yalandan üzünə durmuş, ona böhtan atmış şəxslərin iç üzünü açmaq və onları el içində rüsvay etmək fikrinə düşmüşdüm.

Lakin Mir Sədi Ağa ocağının layiqli davamçısı, babasının adını daşıyan Mir Məhəmməd Ağanın oğlu gənc Mir Sədi Ağa verdiyi məsləhət məni bu fikirdən daşındırdı. O, mənə dedi:

- Əmi, babamın işi ilə əlaqədar arxivlərdə axtarış aparırsan, xahiş edirəm, babamın işini aparan müstəntiqlərin və şahidlərin adlarını çəkməyəsən. Heç babamın özü də bu barədə heç kəsə, hətta ailə üzvlərinə də bir söz deməyib. O vaxt çox günahkar quruluş olub.

Şeyx üçüncü dəfə on il müddətinə azadlıqdan məhrum olundu.

O, 1958-ci ildə həbsdən azad olub, doğma evinə qayıtdı. Qırx ildən sonra ona bəraət verdilər. Amma nə faydası.

Bütün bu əzab-əziyyətlər, təqiblər, işgəncələr, əlbəttə, onun səhhətinə mənfi təsir etməyə bilməzdi. Odur ki, Mir Sədi Ağa 1961-ci il fevralın 4-də dünyasını dəyişdi. Cəmi altmış üç il yaşadı. O bütün insalığa örnək olan bir ömür yolu keçdi. Allah Mir Sədi Ağanı hər cəhətdən gözəl yaratmışdır. Onun ümumi görkəmi də, xasiyyəti də gözəl idi. Mir Sədi Ağanın dörd övladı olmuşdu: Gözəl, Ətifə, Məleykə və Mir Məhəmməd Ağa. Allah hamısına rəhmət eləsin, qəbrləri nurla dolsun.

## MIR SƏDI AĞANIN MÖCÜZƏLƏRI

*Yaşlı kişinin dedikləri*

Tarıyel müəllim söhbət edir ki, institutu qurtarandan sonra, dağ kənldlərinin birində müəllim işləyirdim. Bir yaşlı kişi hərdənbir axşamlar mənzilimə gəlib, mənimlə söhbət edirdi. (O mənə kəndini və adını deməməyi xahiş edib). Bir axşam söhbətini bütövlükdə Mir Sədi Ağa ocağına həsr elədi. O dedi:

Tarıyel müəllim, mən bilirəm ki, sizin ailə Mir Sədi Ağa ocağına çox bağlıdır. Ona görə də bu sirri birinci dəfə sizə açıram. Müharibə təzə qurtarmışdı. Bir gün işdən ötrü rayon mərkəzinə getmişdim. Hava çox isti idi. Qərara aldım ki, gündüzü çay qırağında keçirim, axşamüstü kəndə qayıdım. Bərgüşad çayının sahilində bir kölgəlik tapıb oturdum. Özüm də tək idim. Axşamüstü gördüm ki, çay yuxarı bir dana gəlir. Onu da deyim ki, aclıq illəri idi. Tamah mənə güc gəldi, şeytan məni yoldan çıxartdı. Gözlədim təmiz qaranlıq düşəndən sonra danaya yaxınlaşdım. Onun başındakı çatının ucundan tutub qabağıma qatdım. Mən evə çatanda gecəyarı idi. Qorxudan tez dananı kəsib soydum. Ətindən 5-6 kq doğrayıb bir qazana tökdüm. Arvada dedim: «Qaynat, qoy uşaqlar yesin».

Qalan ətdən xarab olmasın deyə yaxın qohumlara da payladım. Sonra arvada dedim ki, ət xeyli vaxtdı qaynayır, tök teşdə uşaqları da durquz qoy yesinlər. Birdən gördüm arvadın sifəti ağappaq ağarıb. O, mənə dedi:

- A kişi, sən qazana ət tökməmişdin?

Dedim:

- Necə tökməmişdim, 5-6 kq olardı ki, tökmüşdüm.

Arvad dedi:

- Qazanda ət yoxdur, bütöv qan laxtalarıdır.

Mən qazanı teştdə tökdüm, gördüm ki, ət yoxdur, hamısı qan laxtasıdır. Mən məətəl qaldım

Dedim:

- Yaxşı, bəs sümükləri necə oldu?

Ət payladığım qohumlarımın evinə getdim, gördüm bizim başımıza gələnlər onların da başına gəlib. Ətin hamısını qaynatdıq. Hamısı da qan oldu. Səhərə yaxın mən elə paltarlı uzanıb yuxuya getdim. Yuxuda gördüm ki, bir yaraşıqlı, nurani kişi mənə baxıb gülümsəyir. Dedi:

- Məni tanımadın? Mən Mir Sədi Ağayam, seyidəm, heç mənim haqqımda eşitməmisən?

Dedim:

- Çox eşitmişəm, ancaq sizi birinci dəfədir görürəm. O, mənə dedi ki, şeytan səni aldadıb, sən oğurluq etmisən. Oğurladığın bizim danadır. Ətini yeyə bildinizmi? Bu dəfə keçirəm. Bir də belə iş tutma. Yuxudan ayılıb, əhvalatı yoldaşıma və qohum-əqrəbaya danışdım. Mənə məsləhət gördülər ki, elə bu saat Mir Sədi Ağanın yanına gedim. Mən inəyimizin başına həmin dananın çatısını salıb, körpə balası ilə birlikdə Mir Sədi Ağagilə getdim. Ağa məni gülər üzlə qarşıladı. O, həmin yuxuda gördyüm nurani kişi idi.

Mən inəyi qapıda bağlayıb, Mir Sədi Ağanın əllərini öpüb, dizlərini qucaqladım. Dedim:

- Ağa, məni bağışla, bir qələtdi eləmişəm.

O, mənə dedi:

- Mən səni elə yuxuda bağışlamışam. Bir də belə iş tutma.

Mən ağanın nəsihətlərindən sonra bir dəfəlik oğurluqdan əl çəkdim. Mən vidalaşıb evə gəlmək istəyəndə o, məni buraxmadı.

Dedi:

- Yol gəlmisən, yorulmusan, həm də acsan, çörək ye, sonra get.

Mən Ağa ilə birlikdə çörək yedim. O mənimlə xeyli söhbət etdi. Adam onun söhbətlərindən ayrılmaq istəmirdi. Mir Sədi Ağa inəyi də götürmədi, geri qaytardı.

### *Çərəli kənd sakini Kamilin dedikləri*

1959-cu ilin yazı idi. Çərəli və Mirlər kəndindən bir neçə ailə Qızıldaş yaylasında istirahət edirdi. Atam Əli Qara oğlu və anam Qəndili tez-tez Mir Sədi Ağanı ziyarət edirdilər. Atam hər görüşdən sonra deyirdi:

-Ağa, nə qulluğun olsa de, yerinə yetirək.

Ağa isə hər dəfə eyni cavab verirdi:

- Sağ ol ay Əli, lazım gəlsə, əziyyət verərik.

Bir gün yenə atam təkidlə xahiş edir:

- Ağa bizə bir qulluq.

Mir Sədi Ağa gülümsəyərək deyir:

- Yaxşı, Qara oğlu, Kamil bizim heyvanları da sizinkilərə qatıb otarsın.

Necə olursa, atam Mir Sədi Ağaya söz vermir. Deyir:

- Ağa, qadan alım, uşaq öhdəsindən gələ bilməz, heyvanlar gedib zəmiyə girər, ermənilər bizi incidər.

Şeyx deyir:

- Düz deyirsən Əli, onsuz da bizim heyvanlar özü gedib otlayıb gəlir.

Həmin gecə atam səhərə qədər yata bilməyir, boynu ağrıyır. Səhər görürlər ki, kişinin boynu şişib. Anam deyir:

- Evin yıxılsın, dağ boyda kişinin sözünü yerə salanda bilmirdin ki, belə olacaq. Dur gedək kişidən üzr istə.

Anam atamı Mir Sədi Ağanın yanına aparır. Ağa onları gülər üzlə qarşılayır. Əlini atamın boynuna çəkir. Həmin gün şiş də çəkilir, ağrı da.

### *Tarıyel müəllimin dedikləri*

1973-cü ilin payızı idi. Mir Sədi Ağa on iki il idi ki, dünyasını dəyişmişdi. Mən Bakı Ali Partiya məktəbində oxuyurdum. Imtahanlara hazırlaşırdım. Ancaq rus dilini pis bildiyim üçün həyəcan keçirirdim. Bir gecə Mir Sədi Ağa ilə Mir Məhəməd Ağa yuxuma girdilər. Şeyx mənə dedi:

- Özünü üzmə, onsuz da öz dilində dərsini gözəl bilirsən. Sən ancaq dördüncü süalı əzbərlə. Həmin sual bir düsturdan ibarətdir. Müəllim deyəcək ki, düsturu lövhədə yaz və izah et. Belə olduqda rus dilində yaxşı bilməyə ehtiyac

olmayacaqdır. Yuxudan duranda saata baxdım, saat üç idi. Mən sevindiyimdən qonşu otaqdakı yoldaşım Böyükağanın yanına getdim. O da seminara hazırlaşırdı. Yuxumu ona danışdım. Dedi:

- Gözəl yuxudur.

Həmin günün səhəri seminar başladı. Nurəddin müəllim mənə dördüncü sualı verdi və «əla» qiymət yazdı.

Hörmətli oxucu, mən Mir Sədi Ağanın ancaq üç möcüzəsi haqda danışdım. Onun yüzlərlə belə möcüzələri var. Onun möcüzələrinin hamıısını yazsan, bütöv bir kitab olar.

## MIR MƏHƏMMƏD AĞA

Mir Sədi Ağanın sevimli oğlu Mir Məhəmməd Ağa 1946-cı ildə Qubadlı rayonunun Mirlər kəndində anadan olub. Balaca Miri körpə ikən anasını itirmiş, iki yaşında isə atasını üçüncü dəfə həbs etmişlər. Mir Məhəmməd Ağanı Çərəli kəndindəki yaxın qohumları Şahsuvar baba və Züleyxa nənə müvəqqəti himayəyə götürüb, əzizləyib saxlamışlar.

Mir Ağa həbsdən qayıdandan sonra sevimli oğlunu evinə gətirmiş və onun tərbiyəsi ilə özü məşğul olmuşdur. O vaxt balaca Mirinin səkkiz yaşı var idi. Mir Məhəmməd Ağa 1962-ci ildə Dondarlı kənd orta məktəbini bitirmiş, elə həmin ildə Azərbaycan Tibb Institutuna qəbul olunmuşdur.

1968-ci ildə Institutun müalicə-profilaktika fakultəsini bitirmişdir. Bir müddət Çardaxlı və Xocahan kəndlərindəki tibb müəssisələrinə başçılıq etdikdən sonra Qubadlı rayon Mərkəzi xəstəxanasında əsəb həkimi işləmişdir. Mir Məhəmməd Ağa gözəl həkim, kəramətli seyid kimi hamının hörmətini qazanmışdır. Həmişə onun amalı xalqına xidmət etmək, xeyirxah işlər görmək və qurub yaratmaq olmuşdur.

Qubadlı rayonunda Bərgüşad çayının üzərindən iki körpü salmış, Sarı Aşığın sevgilisi Yaxşının uçub dağılmaqda olan qəbrini düzəltmiş və ona gözəl bir abidə qoymuşdur. Mir Məhəmməd Ağa da atası Mir Sədi Ağa kimi həmişə elinə-obasına sadiq qalmış, onların bütün problemlərinin həllində yaxından iştirak etmişdir.

Xeyirxah insan, gözəl ailə başçısı, sədaqətli dost və mehriban ata olan Mir Məhəmməd Ağa Mir Sədi Ağa oğlu çox gənc yaşında 1982-ci il may ayının 15-də dünyasını dəyişdi. O, cəmi otuz altı il yaşadı. Mir Məhəmməd Ağanın bir-birindən gözəl, ağıllı səkkiz yadigarı ata həsrəti ilə yaşayır. Saleh, Mir Sədi, Ziyəddin, Rəhnurə, Gülüm, Müntəxab, Nürayən və Merac.

Hal-hazırda onun ağıllı, gözəl-göyçək nəvələri böyüyür. Onların tərbiyəsi ilə anaları - elimizin hörmətini qazanmış, həmin ocağa layiq olan Akifə xanım məşğul olur.

Indi bu ocaqda Mir Sədi Ağanın da, Mir Məhəmməd Ağanın da adını daşıyanlar var: gənc Mir Sədi Ağa və balaca Mir Məhəmməd. Allah onların hamısını xoşbəxt etsin. Adlarına layiq böyüsünlər! – Amin!

# ƏFƏNDIYEV BƏHLUL MUSTAFA ƏFƏNDI OĞLU (Bəhlul Bəhcət)

Sən ey məğrur qartal! Sən düşmənlərlə döyüşlərdə həlak oldunsa da, mərd və qorxmaz adamların mahnısında əbədi yaşayacaqsan. Sən insanları azadlığa və işığa çağıran-yıxılmaz heykəl olaraq qalacaqsan. (Maksim Qorki)

Bəhlul Əfəndi haqqında yazıya başlamazdan əvvəl qeyd etmək istəyirəm ki, görkəmlli elm və din xadimi, elimizin ağsaqqalı Bəhlul Bəhçət haqqında geniş ictimaiyyətə məlumat vermək mənim çoxdankı arzum idi. Lakin mən Bəhlul Əfəndi haqqında yazılı məlumat əldə edə bilmirdim.

Bu işdə Bəhlul Bəhçətin nəvəsi Bakı Islam Universitetini bitirmiş ali təhsilli ruhani Əfəndiyev Həmdullah Mustafa oğlu mənə köməklik etdi. Həmdullah müəllim çox zəhmətkeş və çalışqan bir insandır. O, həmişə axtarışdadır. Dövri mətbuatda tez-tez çıxış edir. Uzun müddət əzab-əziyyətdən və axtarışdan sonra Həmdullah müəllim babası haqda bəzi materiallar əldə edib və onun əsasında «Bəhlul Əfəndi Bəhçət» adlı bir kitab yazıb. Bəhlul Bəhçət təkcə Həmdullah müəllimin yox, bütün Azərbaycan xalqının ağsaqqalı və körkəmli ziyalısıdır. Az-çox yazı-pozudan başı çıxan bütün ziyalılarımız onun həyat yoluna işıq salmalıdır. Bu yazının işıq üzü görməsində mənə köməklik etdiyinə görə Həmdullah müəllimə bəri başdan dərin minnətdarlığımı bildirir, ona cansağlığı, uzun ömür və yeni-yeni yaradıcıq uğurları arzulayıram.

Həmdullah müəllim babasının həyat və fəalliyəti ilə bağlı bir sıra yazılar yazıb. Məsələn, 18 fevral 1995-ci ildə «Zaman» qəzetində, 8 noyabr 1997-ci ildə «Xalq» qəzetində «Bəhlul Bəhcət: ruhani üsyançı, folklorşünas» adlı yazısı ilə çıxış edib. 1998-ci il mart ayının 22-də və 1999-cu ilin mart ayının 16-17-də radioda B.Bəhcət haqqında söhbət gedib; mart ayı Bəhlul Əfəndinin ölüm hökmü çıxarılan aydır.

Mərhum akademik Z.Bünyadov və akademik Qasım Qasımzadə bu sahədə böyük işlər görüblər.

Bəhlul Bəhcət unudulmuşlarımızdandır. Ona görə də onun həyat fəaliyyətinin bütün tədqiqatçılarına və bu sahədə az-çox əməyi olan insanlara səmimi minnətdarlığımızı bildiririk. Ədəbiyyatçılarımızdan, tarixçilərimizdən, ümumiyyətlə, tədqiqatçılarımızdan xahişim budur ki, B.Bəhcət kimi unudulmuşlarımızı yada salsınlar. Onları gənc nəslə tanıtdırsınlar. Çünki gənc nəsil onları tanımır.

Əldə etdiyim məlumata görə, Əfəndiyev Bəhlul Mustafa Əfəndi oğlu 1885-ci ildə Bərgüşad çayının sahilində yerləşən Azərbaycanın qədim vilayətlərindən olan Zəngəzur qəzasının Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuşdur. Balaca Bəhlul dindarlar arasında böyümüşdür. O, ilk təhsilini dövrünün nüfuzlu din xadimi olan atasından və qayınatası Hacı Qasım Çələbidən almışdır. Sonra isə Nuxa şəhərinə gedib, təhsilini başa çatdırmışdır. Bəhlul Əfəndi ali təhsil almaq üçün Türkiyəyə getmiş və orada ali ruhani məktəbini bitirmişdir.

Mükəmməl dini təhsilə malik olan Bəhlul Əfəndi çox mütərəqqi bir adam idi. O, ərəbcə «sevinc və gözəllik» mənasını bildirən «Bəhcət» təxəllüsünü qəbul

etmişdir. Bəhlul Əfəndi dünyəvi elmlərlə bərabər, siyasətlə də məşğul olurdu. O, həm də Azərbaycan xalq ədəbiyyatına qırılmaz tellərlə bağlı idi.

Təsadüfi deyil ki, xalq qəhrəmanı Qaçaq Nəbinin şəninə qoşulan el nəğmələrini toplamış və onun qəhrəmanlığını qələmə almışdır. Sarı aşığın bayatılarını kitab halına salmışdır. Seyid Əbülqasim Nəbatinin itib-batmaqda olan şerlərini toplamış və «Nəbati» adlı bir kitab yazmışdır. Həmin kitab 1935-ci ildə Ə.Cavadın redaktorluğu ilə çap olunmuşdur.

Bəhlul Əfəndi Azərbaycan tarixinə aid bir çox əsərlər yazmışdır. Təəssüflər olsun ki, onların əksəriyyəti bu günə gəlib çatmamış və itib-batmışdır.

Bu əsərlər içərisində «Qarabağ tarixi» xüsusi əhəmiyyət kəsb edir. O kitab Azərbaycanın bu günü ilə daha çox səsləşir.

Azərbaycanda Sovet hakimiyyətinin ilk dövrlərdə şifahi xalq ədəbiyyatı nümunələrinin toplanmasına xüsusi fikir verilirdi.

Həmin illərdə folklorçulardan S.Müntəz, H.Zeynallı, H.Əlizadə, B. Bəhcət və başqaları kənd-kənd, oba-oba gəzərək, çoxlu folklor nümunələri toplamışlar. Onların gərgin əməyi nəticəsində bir çox dastan, aşıq ədəbiyyatı nümunələri, atalar sözləri, lətifələr toplanıb nəşr olunmuşdur.

H.Araslı B.Bəhcətin şifahi xalq ədəbiyyatındakı xidmətlərini yüksək qiymətləndirmişdir.

B.Bəhcət 1934-1937-ci illərdə əvvəlcə Azərnəşr, sonra isə Az.FAH-nın ədəbiyyat bölməsində işləmişdir. O, 1937-ci ildə elə iş yerindəcə həbs olunmuşdur.

Hörmətli oxucu, indi də Bəhlul Bəhcətin həyat fəalliyyəti ilə daha ətraflı tanış olaq. Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər B.Bəhcət Zəngəzur qəzasının qazısı olub. Milli Demokratik Respublika yaradılandan sonra isə B.Bəhcət onun Zəngəzur qəzasında dayaq nöqtəsi oldu.

Sovet hakimiyyəti qurulandan sonra Zəngəzur mətbuatında Bəhlul Əfəndinin ünvanına çoxlu tənqidi yazılar gedirdi. Bunlardan xalq yazıçısı Əli Vəliyevi, Oruc Qüdrətovu, partiya və dövlət xadimi H.Heydərovu xüsusilə qeyd etmək istərdim. Onlar birtərəfli olaraq B.Bəhcəti tənqid edir, onun xalq qarşısında olan xidmətlərinə isə göz yumurdular. Azərbaycanın müstəqil dövlət olmasını istəməyənlər Azərbaycan ziyalılarını təqib edirdilər.

Böyük Ermənistan arzusu ilə yaşayan daşnaklar Abramyan, Şaumyan, Akopyan və Mikoyan kimi qan içənlər Mircəfər Bağırovun adından danışaraq müsavatçı və din xadimlərini məhv etmək üçün Şamaxıda, Qubada, Zəngəzurda, Qarabağ, Laçın, Cəbrayıl və s. yerlərdə kütləvi qırğına başladılar.

Bu vaxt B.Bəhcətə qarşı iki cəbhə vuruşurdu. Birinci Azərbaycan kommunistləri, ikinci isə Zəngəzur Icraiyyə Komitəsinin sədri Saak Ter-Ayrapetyan. Onlar B.Bəhcəti real təhlükə hesab edərək, onu aradan götürmək istəyirdilər. Əslində o vaxt Azərbaycanın taleyi HKBD-də işləyən ermənilərin əlində idi.

Ermənilər B.Bəhcət haqqında Mircəfər Bağırova yalan məlumatlar verirdilər. Guya B.Əfəndi Sovet hakimiyyətinə qarşıdır. Ermənilərə inanan Mircəfər Bağırov rus polkunu götürüb Zəngəzura gəldi və orada kültəvi qırğın törətdi. Azərbaycan Demokratik Respublikasının axırıncı dayaq nöqtəsi məhv edildi.

O vaxt Bəhlul Bəhcət öz tərəfdarları ilə birlikdə Irana keçdi. Bir ildən sonra isə vətənə qayıtdı. 1924-cü ildə on il müddətinə azadlıqdan məhrum edilərək həbs olundu. O, Bayıl həbsxanasında yatdığı müddətdə özünü çox mərd aparmış və yaradıcılıqla məşğul olmuşdu. Onun müdrik zəka sahibi olduğunu bilən həbsxana əhli ona böyük hörmət etmişdir. Qurani-Kərimin Azərbaycan dilinə ilk dəfə tam tərcüməsini B.Bəhcət etmişdir. B.Bəhcət on ildən sonra türmədən azad olunur, ona mənzil verilir və işlə təmin olunur. O, «Məhəmməd Peyğəmbərin ailəsinin tarixi» və s. dini mövzuda əsərlər yazmışdır. Onu görən ağsaqqalların dediyinə görə, B.Bəhcətin gözəl səsi və şirin avazı var imiş. Indinin özündə də Qubadlı məclislərində onu hörmətlə yad edir və ruhuna dualar oxuyurlar. Bəhlul Əfəndi həbsdən azad olub «Azərnəşr»in tərcümə şöbəsində işlədiyi zaman özünə fikir vermir, üzünü və saçını qırxdırıb, özünü sahmana salmırdı. Bir gün agentlərdən biri ondan soruşur ki, niyə özünə fikir vermirsən, saçını, saqqalını qırxdırmırsan? O, belə cavab verir: Neçə ki bu baş düşmənə xidmət edir, mən onu qırxdırmaram və ona qulluq etmərəm. Bu sözü olduğu kimi Mircəfər Bağırova çatdırırlar. Bu sözdən M.Bağırov çox qəzəblənir və deyir, onun ayağına ağır bir daş bağlayıb Xəzərin dərin yerinə atın. M.Bağırovun bu sözündən sonra B.Bəhcəti təqib etməyə başlayırlar, onu həmişə nəzarətdə saxlayırlar.

B.Bəhcət özü sünnü təriqətindən olub. Amma o sünnü-şiyəliyi ortaya atanlara həmişə nifrət edirdi. O, sünnü-şiyəliyi aradan götürmək istəyirdi.

B.Bəhcət deyirdi: Məhəmməd Allahın elçisidir, Əli isə onun varisidir. O, öz tərəfdarlarına əsasən sünnülərə bu sözləri dönə-dönə dedirdirdi. O, sünnü-şiyəliyi aradan götürmək üçün kitab da yazmışdır. Bəhlul Əfəndinin qoşun başçısı əslən Qubadlının Gödəklər kəndindən olan qatı şiyə qoçu Təhməz idi. O, sünnü-şiyəliyi aradan götürmək üçün qəsdən onu qoşun başçısı götürmüşdü. Təhməzi «hərbi mütəxəssis» adlandırırdı.

Görkəmli partiya və dövlət xadimi Nəzər Heydərov özünün «Zəngəzur dağlarında» əsərində B.Bəhcətə bir fəsil ayrımışdır. O, həmin əsərdə Bəhlul Bəhcəti və onun çox nüfuzlu və peyğəmbər nəslindən olan qaynatası, nurlu zəka, mahalın inac yeri olan Hacı Qasım Çələbini tənqid atəşinə tutmuşdur.

Əziz oxucu, elə bu tənqidi yazıları oxuyarkən biz onların necə böyük hörmət və nüfuz sahibi olduqlarının şahidi oluruq. Nəzər Heydərovun «Zəngəzur dağlarında» əsərindən bir neçə misal: O yazır mən Bəhlul Əfəndini ilk dəfə 1918-ci ildə Dəmirçilər kəndində gördüm. O, orada müsavatın hansısa bir cəmiyyətinə rəhbərlik edirdi. Seçkiyə hər kənd icmasından on-on beş adam çağırılmışdır. B.Bəhcət nəzərdə tutulmuş nümayəndələri elan etdi və təklif etdi ki, nümayəndələr ayrılıqda müzakirə edilsin, axırda yekun vurulsun və kimin seçildiyi elan olunsun. Mən təklif etdim ki, namizədlər elə burada bütün icmaların yığıncaqlarında müzakirə edilsin. Bu, Bəhlul Əfəndinin xoşuna gəlmədi. O, hirsli-hirsli mənə baxıb dedi:

- Siz oğlum, çox cavansınız, belə şeyləri başa düşməzsiniz.

Camaatın çoxu mənə cəmiyyətdə öz yerini bilməyən bir uşaq kimi təəccüblə baxıb dağılışdılar.

Ikinci dəfə mən B.Əfəndinin Teymur Müskanlı kəndində gördüm. O, Sisyandan və Qafandan gəlmiş qaçqınlara paylanan maddi yardıma göz qoymaq üçün gəlmişdi. Bəhlul Əfəndi məndən soruşdu:

- Bəylərlə niyə aran yoxdur?

Mən dedim:

- Bəylər bizim sinfi düşmənimizdir.

- Niyə? Məhz sizin sinfi düşməninizdir?

Ona görə ki, biz zəhmət çəkirik, bəylər isə heç nə etmirlər, ancaq bizim əməyimizin bəhrəsini yeyirlər. O, mənə baxıb öz tərəfdarlarına dedi:

- Bax bundan bolşevizmin iyi gəlir.

Üçüncü dəfə mən Bəhlul Əfəndini, məni Dondarlı kəndinə gətirib döydükləri gün, qəza rəisi Sərməsbəyovla balkonda oturmuş gördüm. Bəhlul Əfəndi Türkiyədə dini təhsil almışdır. Lakin dindən çox siyasətlə məşğul olurdu. Sovet hakimyyəti qurulana qədər tutduğu qəza qazılığı ona çox böyük gəlir gətitirirdi. Bundan əlavə, onun torpaq sahəsi vardı və icradarlardan çoxlu qazanc alırdı.

B.Bəhcət qazı adını «Müqəddəs» Hacı Qasım Çələbinin qızına evlənəndən sonra daha da «Müqəddəsləşdirilmişdir». Bu «müqəddəs» qız onun neçə-neçə arvadlarından biri idi.

Müqəddəs sayılan piy basmış Hacı Qasım Çələbi Əfəndilər kəndində yaşayırdı. O, bir kəndə getmək istəyəndə ətrafına yığılmış məsləkdaşları «müqəddəsi» elə yola salırdılar ki, onu qarşılamaq üçün dindar kəndlilər bir neçə kilometr qabağına çıxırdılar. «Müqəddəsin» düşdüyü kənddə qadınlar onun ayağını yuyurdular. Ətraf kəndlərin camaatı Çələbiyə çoxlu böyük hədiyyələr: pul, qoyun, kəbə, kisə-kisə düyü, buğda gətirirdilər. Çələbi adını yaxşıya çıxartmaq üçün nadir hallarda ona gətirilən şeylərdən yetimlərə və yoxsullara paylayırdı. Bu mənfur və alçaq adam utanmadan xalqı aldadır, hər cür hiylələrlə əl atır, görünməmiş cinayətlər edirdi.

Hacı Qasım Çələbi 1922-ci ilin əvvəllərində öz tərəfdarlarına tapşırmışdı ki, kəndlilər arasında şaiyə yaysınlar ki, bu il buğdadan çox arpa əkmək lazımdır, çünki arpa bu il bol olacaq. Qəza Icraiyyə Komitəsinin sədri kimi mən, hiyləgər Çələbinin bu cür «aqrotexniki» məsləhətinin qarşısını almağı lazım bilib, qəza milis idarəsinin rəisinə tapşırdım ki, onu yanıma gətirsin. Yarım saatdan sonra qəza təşkilatının yerləşdiyi Xanlıq kəndindən altı ağsaqqal mənim kabinetimə girdi.

Onlar yalvardılar ki, Hacı Qasım Çələbini yanıma çağırmayım, yoxsa yer tərpənər və ondan da betər faciə baş verə bilər.

Mən onları sakitləşdirib dedim ki, Çələbiyə heç nə olmayacaq, mən ancaq onunla bir az söhbət edəcəm. Çələbi həmin gün Icraiyyə Komitəsinə gəldi. Özü də tək yox, başında böyük bir dəstə. Onlar Çələbi ilə ona görə gəlmişdilər ki, əgər «müqəddəsə» bir şey olsa, onu incidənə divan tutsunlar.

Mən bütün bunları nəzərə alıb, Çələbini qapının ağzında nəzakətlə qarşıladım, kresloda oturtdum. Ədəb xatirinə bir qədər ordan-burdan danışdım, sonra sözü gətirib ilin quraqlıq, məhsulun az olmasına çıxartdım. Eyni zamanda Çələbini başa saldım ki, belə işləri mütəxəssislər bizdən yaxşı bilirlər. Ona dedim ki, siz belə işlərə qarışmayın. O dərhal mənimlə razılaşdı. Dedi:

- Oğlum, siz deyirsiniz qarışma, qarışmaram. Mən Çələbi ilə xudafizləşib onu nəzakətlə yola saldım.

1921-ci ildə Bəhlul Əfəndi Xocahan kəndində çağırılmış birinci qəza kəndlilər qurultayında iştirak edirdi. Onu bura heç kim dəvət etməmişdir. Qurultayda biz Sovet hökumətinin aqrar siyasəti haqqında məlumat verir və başa salırdıq ki, yeni iqtisadi siyasətin, bəzi torpaq sahiblərinin düşündüyü kimi, heç də torpaqdan istifadəyə dəxli yoxdur.

Torpaq həmişəlik kəndlilərə verilib. Onlar keçmiş mülkədarların fitnəsinə uymasınlar.

Kəndlilər qurultayında Bəhlul Əfəndi çox fitnəkər bir çıxış edərək dedi ki, ərzaq sapalağı dövrü mülkədarların və digər varlı adamların mal-qarası əlindən alınmışdır. Indi isə yeni iqtisadi siyasətlə əlaqədar olaraq ərzaq sapalağı ərzaq vergisi ilə əvəz olunmuşdur. Sahibkarlardan alınan kiçik müəssisələr öz sahiblərinə qaytarılır.

Madam ki, belədir Sovet hökuməti yavaş-yavaş inqilabdan əvvəlki qaydalara qayıdır. Yəqin ki, torpaq da öz sahibinə qaytarılacaq. Ona görə bu saat torpaq bölgüsü aparmaq lazım deyil. Əlbəttə, qurultayda iştirak edən kommunstlər bu bəy fitnəkarlığını pislədilər. Bütün bu tənqidlərə baxmayaraq, o, qurultayı tərk etmədi, axıra qədər oturdu.

Bəhlul Bəhcət qaçaqları, oğruları, adam öldürənləri başına toplayıb, 400 nəfərlik bir dəstə düzəltmişdir. Bu dəstənin istinadgahı Dağtumas, Sirik, Qazanzəmi, Maşanlı kəndləri idi. Bu kəndlər Qaryakin qəzasına daxil idi. Ancaq bizim qəza mərkəzi Xanlığa yaxın yerlər idilər. Bəhlul Bəhcət bu silahlı dəstəni saxlamaq üçün maddi yardımı Xanlıq, Çaytumas, Əfəndilər və Usubbəyin kəndlərindən alırdı. Əlyanlı meşəsində yuva salmış banditləri məhv etmək üçün gəlmiş xüsusi dəstə gedəndən sonra üsyana başlamağı qət etmişdir. Bəhlul Əfəndi Əlyanlı qaçqınları ilə də əlaqə yaratmaq fikrinə düşdü. Onların başçılarını yanına çağırdı: Kərbəlayı Məhəmməd, Babaş, Həsən, Qabil, Ədil bəy və Qəhrəman Dağtumas kəndində onun yaşadığı otağa toplaşdılar. Söhbətdə Təhməz də iştirak edirdi. Ancaq Bəhlul Əfəndi danışırdı: Siz qoçaq adamlarsınız: Sizin içərinizdə elə adamlar var ki, uzun müddət kafirlərə qarşı mübarizə etmişdir. Indi Islam dini təhlükə qarşısındadır. Bolşeviklər Allahı danırlar, heç bir dini qəbul etmirlər. Mən sünnü və şiyələri birləşdirmək üçün bu qərara gəlmişəm ki, Imam Hüseyn faciəsinə sünnülər də ağlamalıdırlar. Indi bir çox sünnü kəndləri elə də edirlər. Təhməz o kəndlərdə olur. O, Allah şahididir. Təhməz təsdiqlədi; Dedi Əfəndi düz deyir. Bəhlul Əfəndi dedi:

- Mənim dörd yüz igidim var, sizin də adamınız az deyil. Gəlin birləşib, qəzada Sovet hökumətini yıxaq. Bütün müsəlmanlar ayağa qalxacaq.

Kərbəlayı Məhəmməd Təhməzə müraciət etdi:

- Kürdlər nə fikirdədirlər?

O, yalandan dedi ki, kürdlər də köməyə gəlməyə söz veriblər.

Kərbəlayı Məhəmməd düz Bəhlul Əfəndinin gözünün içinə baxaraq xatırlatdı:

- Bizim ağır günümüzdə siz bizə kömək etməyə söz vermişdiniz. Lakin biz bu köməyi görmədik. Indi bizim gücümüz tükənib, biz əzillimşik. Sovetlər isə təsərrüfatı dirçəldiblər. Bütün gənclər, hətta qocalar da sovetlərə inanırlar.

Qabil Kərbəlayı Məhəmmədin sözünü kəsib dedi:

- Əfəndi, siz başlayın, biz də fikirləşərik, bəlkə kömək etdik. Bununla söhbət qurtardı. Daha doğrusu, pozuldu.

Əksinqilabçı çıxış 1922-ci il oktyabr ayının 18-də kəndlilərin naxırına quldurcasına hücumla başlandı. Bir nəfər çoban Xanlıq kəndinə qaçıb əhvalatı söylədi. Milislər bir neçə silahlı kommunistlə köməyə getdi. Pusquda duran quldurlar onların arxasına keçdi. Milislər və kommunistlər çətinliklə bir neçə yaralı ilə Usubbəyli kəndinə çəkilə bildilər.

Bəhlul Əfəndi Xanlığa daxil olur. O vaxt mən Qubadlı dairəsinədə olmuşam. Xanlıqda olan yoldaşlar üç saat davam edən çətin vuruşdan sonra Həkəri çayının sağ sahilinə keçməli olurlar. Qəza partiya komitəsinin katibi Abbas Sultanov qəza partiya komitəsinin sənədlərinin bir hissəsini birtəhər Xanlıqdan çıxara bilmişdi. Bəhlul Əfəndi Xanlıq kəndinə daxil olur və bütün qəzada Sovet hakimiyyətini yıxacağına söz verir. Onun tapşırığı ilə Təhməz mənim evimə daxil olur. Mənim evdə olmadığımı yəqin etdikdən sonra qıfılı sındırıb mənim şeylərimi, o cümlədən içərisində şəxsi səndlərim olan portfelimi aparırlar.

Biz qəzadakı bütün qüvvələri toplayıb, üçüncü gün səhərə yaxın Bəhlul Əfəndinin dəstəsini Xanlıqdan çıxartdıq. Lakin onlar kəndin üst tərəflərində təpədə yerlərini möhkəmləndirib, vuruşmanı davam etdirdilər.

Biz Bakıya teleqramma vurduq. Günortaya yaxın Səfyan dairəsindən bizə səksən nəfər silahlı atlı köməyə gəldi. Iki saatdan sonra arxadan və qarşıdan açılan atəş nəticəsində üsyançılar Dağtumas kəndinə çəkildilər.

Mən Zəngəzur qəzasından kömək almaq üçün Korusa getdim. Zəngəzur qəza Icraiyyə sədrinin kabinetində Daxili Işlər Idarəsinin rəisi Saak Ter – Ayrapetyan, qəza siyasi bürosunun rəisi Nikolay Kostanyan, qəza milis rəisi Avanos Akopyan, hərbi kommisar Aşot Abramyan və başqaları var idi. Mən qəzamızda baş verən hadisələr barədə məlumat verdim və xahiş etdim ki, bizə kömək versinlər. Onlar tərəddüd edirdilər. Mən dedim ki, camaat Bəhlul Əfəndiyə nifrət edir, onun xalq arasında nüfuzu yoxdur.

Qəza Icrayə komitəsinin sədri Baqram Artupyan Ter-Ayrapetyana müraciət etdi. XTH-dən bir dəstə yaradın, özünüzlə plamyot götürün! Sabah tezdən yola düşün:

Kostanyan, Akopyan, Ağramyan və Aqabasov yoldaşlar da sizinlə ketsinlər. Qaryakindən sərhəd qoşunlarının süvari polkundan Semyanovun komandası altında altı plomyotu olan bir eskadron Xanlığa bizə köməyə gəlmişdi. Bu döyüşdə Bəhlul Əfəndi kiçik bir dəstə ilə Irana qaça bildi. O, 1923-cü ilin payızında Irandan qayıtdı və tutulub on il həbs cəzasına məhkum edildi.

Hörmətli oxucu, mən Nəzər Heydərovun sözlərini olduğu kimi qələmə almışam. Elə bu tənqidi yazıdan da nəticə çıxarmaq olar ki, o vaxt Hacı Qasım Çələbi xalq arasında neçə böyük nüfuza malik olub. Xalq həmişə ona sitayiş edib, ona böyük hörmət bəsləyib. Eyni zamanda Bəhlul Əfəndinin necə böyük nüfuza, hörmətə və gücə malik oduğunu siz bu tənqidi yazıdan yəqin ki, anladınız.

B.Əfəndi dinini, dilini, vətənini, millətini canından əziz tutan bir adam olub. O təkcə Qubadlının yox, bütün Azərbaycan xalqının oğludur. Bəhlul Əfəndi deyirdi: «Ya qalib gəlib ağa olaq, ya da şəhid.»

Filologiya elmləri namizədi Bədirxan Əhmədov yazır: Bəhlul Bəhcət unudulmuşlarımızdandır, indiki gənclik onu tanımır. Ancaq o zamanın məşhur şəxsiyyətlərindən idi. Dini əsərlər yazmış, tərcümələr etmiş və folklorşünas kimi tanınmışdır. Müəllif yazır Bəhlul Əfəndi 1920-ci ilə qədər din idarələrində işləyib. 1934-cü ildə S.Mümtaz, H.Cavid, Q.Məmmədli, H.Zeynallı kimi alimlərlə bir yerdə işəlyib. Onun şifahi xalq ədəbiyyatının toplanmasındakı fəaliyyəti xüsusi qeyd edilir. B.Əfəndi «Məhəmməd Peyğəmbərin ailəsinin tarixi» əsərini 1923-cü ildə Təbrizdə olarkən çap etdirmişdir.

O, şifahi xalq ədəbiyyatına çox bağlı idi. B.Əfəndi şərq ədəbiyyatını kamil bilmiş, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. O, Məmməd Əmin Rəsulzadənin yaxın dostu olmuş; o da M.Ə.Rəsulzadə kimi, bu quruluşun aqibətini yetmiş il əvvəl görmüş, o, dövrü, hadisələri düzgün təhlil etmişdir.

Bəhlul Bəhcətin oğlu Mustafa kişinin dediklərindən: «Atam Nuxada molla məktəbini bitirib, bir müddət mollalıq edib, Türkiyədə ali ruhani təhsil alıb, Şura hökuməti gələnə qədər Zəngəzur qəzasının qazısı olub. O vaxtkı Zəngəzur qəzasına indiki Ermənistanın üçdə bir hissəsini tutan: Gorus, Qafan, Sisyan, Mehri rayonları, Lasın, Qubadlı, Zəngilan əraziləri daxil idi. Atam bu torpaqda böyük nüfuz və ixtiyar sahibi idi.

Şura hökuməti gələndə atamı ianə idarəsinə qoymuşdular. Dayım da xəzinədar idi. Üç ilə yaxın o işdə işlədi.

Atam ərəbi, farsı kamil bilirdi, həmişə mütaliə edirdi, kitab əlindən əskik olmazdı. 1923-cü ildə Irana gedəndə beş hazır kitabını aparmışdı. Üçünün Təbrizdə çap olunduğunu dəqiq bilirəm. Müsavat dövründə Zəngəzurun bütün hökumət işlərinə atam rəhbərlik edirdi. Məmmədəmin rəhmətlik ilə şəxsi münasibətləri var idi. Tez-tez bir-birinin yanına adamları gedib-gəlirdi. Atamın Türkiyədən, Irandan çoxlu qonağı olurdu.

B.Əfəndinin oğlu Mustafa kişi qeyd edir ki, o vaxt Zəngəzur bütövlükdə ermənilərin əlində idi. Az-çox bizdən olanlar da onların əlində nökər idi. Bolşevik donuna bürünmüş erməni daşnakları Zəngəzur və Qarabağla bağlı niyyətlərini həyata keçirirdilər.

Biz tərəfdən olan fəal kommunist Nəzər Heydərov idi. O, «Zəngəzur dağlarında» kitabında atama bir fəsil həsr eliyib: «Bəhlul Əfəndi Bəhcətin fitnəsi» o kitab 1986-1988-ci illərdə təkrar nəşr olundu. Başdan-axıra qədər erməni - Azərbaycan dostluğundan bəhs edir.

Bu günün gözü ilə baxıb, o kitabı təzədən oxuyan adam, Bəhlul Əfəndinin necə adam olduğunu çox aydın görər və qiymətləndirər. O kitabda atama və Hacı qasım Çələbiyə qarşı böhtanlar çoxdu. Xanlıq əhvalatını da özündən uydurub. Atam o vaxt kommunistlərə, Sovet hökumətinə qarşı cihad elan etmişdir. Həmin cihad bəyannaməsi arxivlərdə durur və o kitabda da var. O bəyannamədə Bakıda, Naxçıvanda rus qoşunlarının dinc əhalini qırmasından yazmışdı atam. Yazmışdı ki, ya qalib gəlib, öz torpağımıza sahib olmalıyıq, ya da ölməliyik. Ancaq atam

düşmənin gücünü də bilirdi. Ona görə xalqı qırğına verməmək üçün hamını evə buraxmış, əlyazmalarını da götürüb Irana getmişdir.

Atam Zəngəzurda rus-erməni bolşevik ittifaqının bədnam niyyətlərini həyata keçirməsinə mane olan yeganə güclü adam idi. O, Irandan bir ildən sonra qayıtdı. Təzə gəlmişdi. Yayda Şükür bəy gəlib apardı. On il iş kəsdilər, guya sərhəddi qanunsuz keçibmiş. Atam 1934-cü ildə həbsdən azad olan kimi, Azərnəşrdə iş verdilər, indiki H.Hacıyev küçəsində üç otaqlı mənzil də verdilər. Onunla durub-oturanların hamısını tanıyırdım. Mənə Bəhcətin madarı deyirdilər. Hüseyn Cavidlə dost idilər.

Hənəfi Zeynallı, Əlinazim, Vəli Xuluflu, Əhməd Cavad, Zülfüqar Əhmədzadə, Salman Mümtaz, Əmin Abid, Əliağa Vahid atamın xatirini çox istəyirdilər. Atam Hənəfi Zeynallı ilə birlikdə siyasi ədəbiyyatları ruscadan tərcümə eləyirdi.

Eyni zamanda, atam Əmin Abidlə birlikdə Firdovsinin «Şahnaməsi»ni fars dilindən tərcümə etmişdir. O vaxt atama «Qızıl qələm» mükafatı vermişdilər. Ancaq o, həmişə fikirli olurdu, elə bil ki, hər şeyi bilirdi.

1937-ci ilin avqustunda atamı işdən apardılar. Mən bilən kimi, evə qaçdım. Nə qədər əlyazması, kitabı var idisə, yığdım divanın içinə, yerimi açdım üstünə. Bilirdim ki, evi axtaracaqlar. Bir azdan iki nəfər gəlib əlyazmalarının yerini soruşdular. Mən dedim ki, hamısı işdədir. Onlar evi axtardılar, sonra məni durquzub, divanın içindəkilərin hamısını yeşiklərə yığıb apardılar. Analığımı və Hafizə nənəmi də atamla bir gündə həbs edib, Arpxangelskə sürgün etdilər. Hər ikisi elə oradaca rəhmətə getdi. Mən öyrəndim ki, atam son gününə qədər Cavid Əfəndi ilə bir yerdə olub.

Aclıq illərində B.Bəhcətin şəxsi nüfuzu sayəsində Bakı milyonçuları Zəngəzur camaatına ağ neft və ərzaq məhsulları göndərdilər. Bəhlul Əfəndi haqqında az yazılıb.

Səbahəddin Eloğlu, Elbrus Şahmar, Nizaməddin Şəmsizadə, Həmdullah Əfəndiyev onun haqqında mətbuatda yazılar dərc etsələr də, bu yazılar alimin şəxsiyyətini və fəaliyyətini tam əhatə etmir. Bəhlul Əfəndi tariximizdə görkəmli yer tutur. Ancaq o unudulub. Hazırkı gənclik onu tanımır.

Bəhlul Bəhcət bütün fəaliyyəti boyu elmi ictimaiyyətə məlum olmayan və ya az tədqiq olunan klassikləri yenidən həyata və sənət meydanına çıxaranda görəsən özünün də oxşar taleyi ağlına gəlirdimi?

Bəhlul Bəhcətin həyat və fəaliyyətinin öyrənilməsi müasir və gələcək tədqiqatsçıların təxirəsalınmaz işidir. Bəhlul Əfəndi Azərbaycan tarixinə aid bir çox əsərlər yazmışdır.

Bu gün tamamilə itib-batmış belə əsərlər içərisində «Qarabağ tarixi» xüsusi yer tutur. Bəhlul Mustafa Əfəndi oğlu Əfəndiyev 1937-ci ilin martın 15-də NKBD-üçlüyünün qərarı ilə güllələnib. 5 noyabr 1958-ci ildə işində «cinayət aktı» olmağdığına görə ölümündən sonra tam bəraət almışdır. B.Bəhcət beş bacının bir qardaşı olub, onun bir oğlu və bir qızı olmuşdur. Qızı erkən vəfat edib, oğlu Mustafanın isə iki oğlu və bir qızı olub. Oğlanları Həmdullah və Bəhluldur, qızının adı isə Məhbubdur. Həmdullahın Bəhcət adlı bir oğlu var. Bəhlulun isə iki qızı, bir oğlu var. Qızları Bənövşə, Bahar, oğlunun adı isə Amindir.

Beləliklə, Bəhlul Əfəndinin bir oğlu, bir qızı, üç nəvəsi və dörd nəticəsi olub. Oğlu və qızı vəfat edib, nəvə və nəticələri isə yaşayırlar.

Allahdan Bəhlul Bəhcətin özünə, oğluna və qızına rəhmət diləyirik, qəbirləri nurla dolsun. Nəvə və nəticələrinə isə cansağlığı və uzun ömür arzulayırıq.

# CƏBRAYIL UZBAŞI

*«Böyük Adam əbədi körpədir, o öləndə*
*böyük körpəliyin dünyaya miras qoyur»*
*F.Taqor*

1888-ci ilin baharında Həkəri çayının axarlı-baxarlı, güllü-çiçəkli sahilində Azərbaycanın qədim güşələrindən olan Zəngəzur qəzasının, Qubadlı rayonun Qaçaq Nəbi, Qaçaq Həcər kimi xalq qəhrəmanlarını yetişdirmiş Aşağı Mollu kəndində sayılan seçilən kişilərdən biri olan Kəblə Budaq kişinin evində bir körpə dünyaya gəldi.

Körpənin adını Cəbrayıl qoydular. Balaca Cəbrayılın tərbiyəsi ilə dayələr məşğul olmağa başladı.

O böyüyür, hamının sevimlisi olurdu. Hələ uşaqlıqdan balaca Cəbrayıl ağıl kamalda, fərasətdə tay-tuşlarından seçillirdi.

Cəbrayılın atası Kabla Budaq kişi xüsusi müəllim tutdu. Cəbrayıl dünyəvi elmləri öyrəndi. Rus dilində mükəmməl təhsil aldı. O, həddi buluğa çatıb, gözəl bir oğlan oldu.

Atası Kabla Budaq oğlunu adlı-sanlı nəsillərdən olan, gözəllikdə, ağılda, kamalda tayı bərabəri olmayan Sitarə xanımla evləndirdi.

Dövrünün gözüaçıq, savadlı adamı olan Cəbrayıl, bəy rütbəsi aldı. Savadına, fərasətinə görə Cəbrayıl bəyi uzbaşı seçdilər. O, uzun müddət uzbaşı işləyib. Işlədiyi müddətdə həmişə xalqına, elinə-obasına arxa, dayaq olub və haqsız yerə heç kəsin təhqir olunmasına yol verməyib.

1917-20-ci illərdə Zəngəzur qəzasında aclıq olmuşdur. Həmin aclıq illərində o, xalqa əlindən gələn köməyi əsirgəməmişdir.

Həmin qıtlıq illərində Cəbrayıl bəy dəfələrlə Irandan əlli-altmış qatır yükü taxıl gətirmiş, camaata pulsuz paylamışdır.

O, həmin taxılı Irandakı dostu və qardaşlığı Əmirərşad bəydən təmənnasız almış və camaata pulsuz paylamışdır. Cəbrayıl bəy elin bütün dərd sərinə şərik olar və imkanı dairəsində onlara kömək edərmiş. O, qanlılığı, düşmənçiliyi aradan götürər və barışıq edərdi. Ətraf rayonlardan da kim çətinə düşsə, onun yanına gələrdi. Cəbrayıl bəy heç kəsi naümüd yola salmazdı. Hamıya bacardığı köməkliyi edərdi. Ağsaqqalların dediyinə görə, indiki Cəbrayıl rayonunun kəndəlirndən birində bir nəfərin Gorusda məhkəməsi imiş. Həmin adam bir nəfəri qətlə yetirdiyi üçün onu ömürlük Sibir sürgünü gözləyirmiş. Həmin məhbusun adamları Cəbrayıl bəyin evinə gəlib, ondan xahiş edirlər ki, onlara kömək etsin. Cəbrayıl bəy ağsaqqalların sözlərini yerə salmır. Gorusa gedir və həmin adamı məhkəmə zalından azad etdirir. Özü də o, bu işi təmənnasız görür.

Sonra Cəbrayıl bəy həmin məhbusun öldürdüyü adamın ağsaqqalları ilə görüşür, barışıq əldə edir və qanbahasını da özü verir. Bu işdən razı qalan cəbrayıllılar Cəbrayıl bəyin evinə gəlir və ona bir xurcun (heybə) Nikolay pulu gətirirlər.

Cəbrayıl bəy pulu götürmür. Deyir mənə heç nə lazım deyil. Gəlin, dost olaq. Onlar dost olurlar. Cəbrayıl bəyin həyatında belə hadisələr yüzlərlədir.

Cəbrayıl bəyin qardaşı Məşədi Balacanın oğlu Hüseyn də ömrü boyu onunla bir yerdə yaşamışdır. Eyni zamanda Cəbrayıl bəyin baldızı Güllü xanımla evlənmişdir.

Onu da qeyd edim ki, nə Cəbrayıl bəyin, nə də Hüseyin bəyin övladı olmayıb. Hüseyin bəyin anası seyid Xeyri xanım təxminən 1945-46-cı illərdə vəfat edib. Seyid Xeyri xanımı mən də görmüşəm.

Cəbrayıl bəyin əmisi oğlu Bəylər bəyin Qafan rayonunda mis mədəni olub. Deyilənə görə, Bəylər bəy Nikolayın büro üzvü imiş. Cəbrayıl bəyin babası Isaq bəy də uzun müddət uzbaşı olub. Bəylər bəyin nəvələri, Abbas bəyin oğlanları Bahadır, Nüsrət və Mansur Sovet hökumətinin təqibindən qorxaraq, hərəsi bir rayonda yaşayıb. Məsələn, Bahadır Saatlıda, Nüsrət isə Bərdədə yaşayırdı. Mansur isə Irana getmişdir.

Abbas bəy Irana qaçanda oğlu Mansuru özü ilə aparıb. Ancaq necə olubsa, Bahadır ilə Nüsrəti apara bilməyib.

Mətləbdən çox uzaqlaşdıq, mən yenə də hörmətli oxucularımın diqqətini Cəbrayıl bəyə yönəltmək istəyirəm.

Yuxarıda dediyim kimi, Cəbrayıl bəy elin sözü keçən, sayılan-seçilən ağsaqqallarından olub.

1930-cu ildə Mir Cəfər Bağırov Qubadlıya gəlir. O soruşur ki, burada hörmətli, sözü keçən adam kimdir? Deyirlər ki, Cəbrayıl bəydir. Mir Cəfər Bağırov Cəbrayıl bəyi yanına cağırır və ona deyir ki, qaçaqların tərksilah olunmasında mənəköməklik et. Onu da qeyd edim ki, Hüseyn bəy əmisi Cəbrayıl bəyi tək burxamır. O da əmisi ilə birlikdə M.C.Bağırovun yanına gedir. M.C.Bağırov Cəbrayıl bəyə deyir ki, biz bu saat gedək Əlyanlı meşəsinə. Deyirlər ki, qaçaqlar orda yuva salıb. Onları tərksilah edək. Sonra da kəndbəkənd düşək, bütün silahlıları tərkisilah edək.

Cəbrayıl bəy Bağırova məsləhət görür ki, belə getsək, sizi vura bilərlər. Gəl bir yerdə düşərgə salaq, kəşfiyyat aparaq, sonra gedək. Bu sözdən M.C.Bağırov qəzəblənir və deyir ki, bizi heç kim vura bilməz.

Onlar qoşunun qabağında, qoşunsa arxalarınca yola düşdülər. Elə bu vaxt güllə açılır və M.C.Bağırovla qoşa gedən onun adyutantı Ismayılovu vururlar. O, yerindəcə keçinir.

Bu hadisədən sonra M.C.Bağırov Cəbrayıl bəylə razılaşır, deyir sən necə desən, elə də edərik. Onlar bir yerdə düşərgə salırlar.

Cəbrayıl bəy M.C.Bağırova deyir ki, yoldaş Bağırov, icazə ver Hüseyn uşaqlardan bir-iki nəfər götürüb, meşəyə getsin, həm kəşfiyyat aparsınlar, həm də quş vurub gətirsinlər, sizə quş ətindən kabab verək. M.C.Bağırov razılaşır.

Hüseyn bəy quş vurmaq adı ilə meşəyə gedir, həm quş vururlar, həm də qaçaqların başçılarına xəbər göndərirlər ki, üstününzə güclü qoşun gəlir. Gecə ikən Arazı keçib Irana gedin.

Qoşun gecə düşərgədə qalır, səhər bütün kəndləri, meşələri gəzirlərsə də, bir nəfər də olsun silahlı adama rast gəlmirlər.

Cəbrayıl bəy M.C.Bağırova deyir ki, sizin qoşunla gəldiyinizi eşidib, gecə ikən Irana keçiblər.

Cəbrayıl bəyin mərdliyi, igidliyi M.C.Bağırovun xoşuna gəlir. Cəbrayıl bəyə bir onatılan bağışlayır. Həm də öz yanına buraxılmaq üçün buraxılış kağızı verir. M.C.Bağırov Cəbrayıl bəyə tapşırır ki, mənim yanıma gələrsən, sənə yaxşı bir iş verəcəm.

Bağırov gedəndən sonra iranlılar gəlib, bizim sərhəd kəndlərindən birini yandırıb, var-dövlətini qarət edirlər. Bu xəbər M.C.Bağırova çatır. O gedib həmin hadisəni gözləri ilə gördükdən sonra bərk qəzəblənir. Bağırov qoşun götürüb Irana keçir. O da Iranda bir kəndi yandırır, var-dövlətini qarət edərək geri qayıdır.

Bu hadisəni eşidən Iran hökuməti Bağırovu beynəlxalq məhkəməyə verir. Bu hadisəni bilən Stalin Iran hökumətinə xəbər verir ki, onun cəzasını özümüz verərik.

O, Bağırovu yanına çağırır və onu altı ay Moskvada saxlayır. Cəbrayıl bəy Bakıya Bağırovun yanına getsə də, onu tapa bilmir. Onu da hörmətli oxucularımıza çatdırmaq yerinə düşər ki, Hüseyn bəy heç cürə Sovet hökumət ilə barışmaq istəmir. Bu vəziyyət Cəbrayıl bəyə pis təsir edir.

Elə bu vaxtlar bir neçə milis Cəbrayıl bəyin yanına gəlib, yalandan ona deyirlər ki, bizi göndəriblər ki, səni tutaq. Biz isə səni tutmarıq, ona özləri hazırladıqları saxta möhürlü kağız göstərirlər.

Bağırovu tapa bilməyən Cəbrayıl bəyin əlacı kəsilir. Deyir bir az gözləyin. O, qardaşı oğlu Hüseyn bəylə Irana gedir. Orda dostu və qardaşlığı Əmirərşad bəyin köməkliyi ilə altmış ev hazırlayırlar.

Cəbrayıl bəy Irandan gələndən sonra yenə də Bağırovu görmək niyyət ilə Bakıya gedirsə də, onu tapa bilmir. Kəndə gəldikdə yenə də həmin naçalnik milislər onun yanına gəlib deyirlər ki, bizə göstəriş veriblər ki, səni tutaq. Biz isə papağımızı yerə vurarıq ki, səni tutmarıq. Gəl bir yerdə Irana qaçaq. Hörmətli oxucular, onu da nəzərinizə çatdırım ki, həmin naçalnik milisyələrin hamısı bəy idi. Onlar gözəl bilirdilər ki, bu vəzifə onların başını qatmaq üçün verilib. Gec-tez Sovet hökuməti onları tutacaq.

Həm Hüseyn bəyin Sovet hökuməti ilə barışmaması, həm də bu vəzifəli şəxslərin yalandan ona dedikləri söz Cəbrayıl bəyi çıxılmaz vəziyyətdə qoyur. Nəhayət, o açıb deyir ki, Iranda Təbriz yaxınlığında altmış ev hazırdır. Cəbrayıl bəyin bu sözündən bəylər çox sevinir. Nəhayət, altmış nəfər evlərinin çəkidə yüngül, qiymətdə ağır şeylərini götürüb Irana gedirlər. Məndə olan məlumata görə, onların arasında Məhərrəm bəy, Abbas bəy, Baba bəy, Ədil bəy, qaçaq Qabil və s. olublar.

Aşağı Molludan isə kasıb olmalarına baxmayaraq, Əsgər və Hüseyn də onlarla gedir. Bu dəstəni Iranda yaxşı qəbul edib yerləşdirirlər. Elə bu vaxt Iran xanı vəziyyəti öyrənmək üçün Cəbrayıl bəyi yanına çağırır. Cəbrayıl bəy xanın yanına gedərkən qardaşı oğlu Hüseyni dəstənin başçısı kimi yanına çağırır və hətta Qurana da and içdirir ki, mən gələnə kimi Arazın o tayına keçməyin.

Cəbrayıl bəy gedəndən sonra Hüseyn bəy dözə bilmir və həmin dəstə ilə birlikdə sərəhəddi keçir. Zəngilanın Sabi kəndinin kənarında bir çəmənlikdə öküz kəsib kabab edirlər. Hüseyn bəy sovetin qoşun başçısı Slavinkiyə bir məktub yazıb bildirir ki, gəl müharibə edək. Eyni zamanda zastavaya hücum edirlər. Zastavanın qoşununu qırırlar. Sonra onların kiçik dəstəsinin üstünə güclü qoşun yeridirlər.

Çoxlu rus qoşunu qırılır, bunlardan da ölən olur. Bu müharibədə Hüseyn bəy ağır yaralanır. Hüseyn bəy meşəbəyi işlədiyi üçün meşəbəyi paltarında olub. Hüseyni özlərininki bilib, götürmək istəyəndə bir milis deyir ki, onu götürməyin, bu qoşunun başçısı odur, mən onu tanıyıram.

Genaral Slavinkiyə xəbər çatır. O deyir baxım görüm o necə alamdır ki, cürət edib mənə məktub yazıb. Onu öz əllərimlə öldürəcəm. General Slavinski yaralı Hüseyn bəyin yanına gəlir, ona baxır. Sonra tapancasını çıxarıb Hüseyini vurmaq istəyəndə Hüseyn bəyin huşu hələ başında imiş. O altında gizlətdiyi tapancasını çıxarıb Slavinskiyə atır. Hər iki komandirin gülləsi eyni vaxtda açılır. Elə oradaca hər ikisi ölür.

General Slavinskini aparıb sərhəddə dəfn edirlər. Hüseynin meyidini isə gecə yoldaşları gizlicə aparıb, kənd qəbiristanlığında torpağa tapşırırlar. Bu hadisədən sonra Aşağı Molludan olan Əsgər və Hüseyn utandıqlarından Irana, Cəbrayıl bəyin yanına qayıtmırlar, kəndə gedirlər. Bir müddət gizlənib, sonra üzə çıxırlar. Sonra onları tutub hərəsinə on il iş verirlər. Onlar türmədən qayıtmırlar. Öldü-qaldıları da bilinmir.

Hüseyn bəyin dəstəsindən sağ qalanları Irana gedib, əhvalatı Cəbrayıl bəyə danışırlar. Hüseynin ölümü ona pis təsir edir. Cəbrayıl bəy xəstələnib yorğan-döşəyə düşür.

Dostları ona nə qədər qayğı göstərsələr də, xeyiri olmur. Nəhayət, təxminən 1939-cu ildə Iranda dünyasını dəyişir. Onu Təbriz yaxınlığında, öz yaşadığı kəndin qəbiristanlığında dəfn edirlər. Allah rəhmət eləsin. Belə adamlar yüz ildən bir yetişir.

### *Bəylər bəyin nəvəsi Abbas bəyin oğlu səksən yaşlı Nüsrət kişinin dedikləri*

Babam Bəylər bəyin Qafanda mis mədəni olub. Həmin mədəni o, erməni Xaçatur bəydən alıb. Bəylər bəyin Şuşada da böyük mülkü olub. O, həmin mülkü Cavanşirovlardan alıb. Babamın Şuşadakı mülkü böyük sahəni əhatə edib. Sovetləşmədən sonra həmin mülkdən sanatoriya kimi istifadə olunub.

Atam Abbas bəy çox savadlı adam olub. O, Gürcüstanda gimnaziya, Peterqradda isə texnologiya institutunu bitirmişdir. Atam Iranda mühəndis işləyib. O, Zəngilan rayonunun Vətənli kəndində adlı-sanlı bəy olan Abbas bəyin qızı Zərövşən xanımla evlənib. 1932-ci ildə atam, anam, böyük qardaşım Bahaduru, ortancıl qardaşım Mansuru və sonbeşikləri olan məni də götürüb Irana gedirlər. Bir qədər Iranda qalandan sonra anam məni və Bahaduru götürüb Azərbaycana qayıdır. Bundan sonra sərhəd qoyulur, gediş-gəliş kəsilir, beləliklə, atam və qardaşım Mansur Iranda qalır, anam, mən və böyük qardaşım Bahadur Azərbaycanda qalırıq. 1937-ci ildə biz, yəni anam, qardaşım Bahadur və mən Qazaxıstanın Çalaquran kəndinə sürgün olunmuşuq.

1939-cu ildə Stalinin qərarı ilə sürgündən azad olunub, Azərbaycana qayıtdıq. Anamla mən Bərdə də, Bahadır isə Saatlıda məskunlaşdıq. Qardaşım Mansurun Iranda altı uşağı olub, biri vəfat edib, beş uşağı isə yaşayır. Onun uşaqlarının dördü oğlan, biri isə qızdır. Oğlanları ali təhsilli mühəndis, qızları isə

dərzidir. Qardaşım Mansurun nəvəsi Bəylərniya Əli Bəhram oğlu tibb elmləri doktoru, professordur. O, ürək və ciyər üzrə tanınmış cərrahdır. Hal-hazırda onun otuz yaşı var. Mənim ana babam Ağa bəyin oğlu Ələsgər də Iranın Tehran şəhərində yaşayıb. Onun beş qızı olub. Qızlarının üçü Amerikanın Meçiqan şəhərində Dövlət Universitetində müəllim işləyir. Onlar alimdirlər. Iki qızları isə Almaniyanın Münxen şəhərində yaşayırlar. Onlar pedaqoji institutu qurtarıblar. Orta məktəbdə müəllim işləyirlər. Mənim beş uşağım: üç oğlum və iki qızım var. Qardaşım Bahadurun səkkiz uşağı olub, ikisi vəfat edib, altısı isə hal-hazırda yaşayır. Onların üçü oğlan, üçü isə qızdır.

Atamız Abbas bəy Zəngilanın Mirzə Həsənlilər kəndində yaşayıb. O kəndin bünövrəsini babamız Mirzə Həsən bəy qoyduğu üçün kənd onun adı ilə Mirzə Həsənlilər adlanır. Onu da qeyd edim ki, bizim əslimiz Qubadlı rayonunun Aşağı Mollu kəndindəndir. Qardaşım Bahadur 1990-cı ildə Saatlıda vəfat edib. Qardaşım Mansur isə 2001-ci ildə Iranda vəfat edib.

Cəbrayıl bəylə Hüseyn bəyin arvadları iki bacı olan Sitarə və Güllü xanımlar Bəylərbəyin qızlarıdır. Cəbrayıl bəylə Bəylər bəy həm də yaxın qohum olublar. Atam qardaşım Mansuru Cəbrayıl əmimə və Sitarə bibimə oğulluğa vermişdi. Mansur ömrü boyu onlarla bir yerdə yaşayıb,

Onu da qeyd edim ki, babamız Bəylər bəy Mirzə Həsən bəyin oğludur. Mirzə Həsən bəy çox dövlətli və adlı-sanlı adam olub. Isaq bəy isə Bəylər bəyin babasıdır.

## YELMAR MƏMMƏDOV

Böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin davamçısı, cavan olmasına baxmayaraq «el atası» adlanan Yelmar Isbəndiyar oğlu Məmmədov 1957-ci ildə Həkəri çayının sahilində Qaçaq Nəbi və Həcər xanım kimi xalq qəhrəmanları yetişdirmiş Qubadlı rayonunun Aşağı Mollu kəndində kolxozçu ailəsində dünyaya göz açmışdır. Çox kiçik yaşlarından anasını itirmişdir. Anadan yetim qalan balaca Yelmar körpəlikdən həyatın acılarını dadmış, zəhmətin nə olduğunu öyrənmişdir.

Y.Məmmədov orta məktəbi bitirəndən sonra Bakıya gəlir, ali məktəbə imtahan verir, ancaq müsahibədən keçə bilmir. 1975-76-cı illərdə Bakıda qalıb zavodda fəhlə işləyir. 1976-cı ildə əsgər gedir. Əsgəri xidmətini Çita şəhərində başa vurur. Əsgəri xidmətdən sonra, özünün dediyinə görə, təsadüf nəticəsində Daşkəndə gəlir. Şəhər və adamları onun xoşuna gəlir. Bir müddət Daşkənddə qalıb fəhlə işləyir, eyni zamanda Milis məktəbinə daxil olur. Sonralar isə Moskva hüquq institutunun qiyabi şöbəsində oxuyur. Komi Respublikasının Uxta şəhərinə gəlir. Yelmar Məmmədovun özünün dediyinə görə, Uxta şəhərinə ehtiyac üzündən gəlir. O qeyd edir ki, dedilər orda aylıq əmək haqqı yüksəkdir. Ayda min manatdan çox qazanmaq olur. Yelmar Məmmədov Uxta şəhərində Neft Kəşfiyyatı idarəsində işə girir. Əvvəlcə fəhlə, sonra usta, mühəndis, şöbə rəisi və baş mühəndisin müavini olur.

1988-ci ildə sahibkarlıq haqqında qanun çıxması onun ürəyincə olur. O, lazımi yerlərə müraciət edib, əvvəlcə dörd nəfərlik bir kooperativ açır. Ilk işləri bir zavodun damını örtmək olur.

Bu işdən əldə olunan gəlirlə yeni avadanlıq alır, əlavə işçi qəbul edir.

Bir ildən sonra onun işçilərinin sayı artıq min nəfər olur.

1990-cı ildə «Mariya» Assosiasiyasını təsis edir. Bundan sonra fəaliyyətləri genişlənir. Bir neçə şəhərdə filialları yaranır. Bir neçə bank açırlar. Rusiya televiziyası ilə göstərilən «Mariya Assosiasiyası» adlı sənədli filmdən sonra hər yerdə tanınmağa başlayır.

Uzun ayrılıqdan sonra Y.Məmmədovun vətən yadına düşür. O, 1992-ci ilin avqust ayında Azərbaycana gəlir. Özünün dediyinə görə cəbhədəki məğlubiyyətlər ona pis təsir edir. Məhz buna görə də bir təyyarə icarəyə götürür, cəbhə üçün paltar, müxtəlif ərzaq malları yükləyib Bakıya gəlir.

Azərbaycanda vəziyyətlə tanış olandan sonra görür ki, cəbhəyə humanitar yardım yox, həqiqi kömək lazımdır.

Elə buna görə də Bakıda «Yelmar interneyşil» koperasiyasını yaradır.

Həmin koperasiyaya üç tikinti idarəsi, bank, ticarət mərkəzi, sığorta şirkəti və s. daxildir. Orda üç mindən çox Adam işləyir.

Əziz oxucular, burda bir haşiyə çıxmaq istəyirəm. «Xalq» qəzetinin müxbiri Ziyəddin Sultanov Qarabağ müharibəsinin qaynar nöqtələrində olmuş, «Qarabağ gündəliyi», «Qarabağın qara günləri», «Xocalı faciəsi», «Ağdərədən gələn var» kitablarının müəllifidir. Eyni zamanda onun «Burdan bir atlı keçdi» kitabı çapa hazır idi. Özü yazır ki, kitabımı çap etdirmək üçün vəsaitim yox idi. «Işıq» nəşriyyatında mənə məsləhət gördülər ki, özünü H.Z.Tağıyevin davamçısı adlandıran Yelmar Məmmədova müraciət edim. Bu kitabın sponsoru o ola bilər.

1994-cü ilin yanvar ayında mən Yelmar Məmmədovun yanına gəldim. Fikrimi bilən kimi razılıq verdi.

Beləliklə, «Burdan bir atlı keçdi» kitabım Y.Məmmədovun vəsaiti hesabına işıq üzü gördü.

Hörmətli oxucular, Ziyəddin Sultanovun məqaləsindən bir hissəni olduğu kimi sizə çatdırmaq istəyirəm. O yazır: Böyük xeyriyyəçi H.Z.Tağıyevin nəcib ənənələrini ləyaqətlə davam etdirən Yelmar Məmmədovun xeyirxah əməllərinə aid bir neçə misal: indiyə kimi şəhid ailələrinə yüz əlli milyon rubl pul paylayıb. Respublika Daxili Işlər Nazirliyinin qoşunlarına qırx yeddi milyonluq hərbi geyim, (rubl), teleradio şirkətinə altı milyon rubl dəyərində avtobus, ayrı-ayrı redaksiyalara üç video kamera bağışlayıb. Gürcüstandakı Azərbaycan məktəbləri üçün iyirmi beş min nüsxə dərslik alıb. «Bakı Tayms» qəzetinin xərcini öz boynuna götürüb. Respulikada çıxan bir neçə qəzetə maddi yardım göstərib. 1993-cü ildə otuz dörd, bu il isə əlli tələbəyə hərəsinə iyirmi beş min rubl, Bakı dövlət Universitetinin üç qaçqın tələbəsinin hərəsinə əlli min rubl təqaüd verib. Üç gənci təhsil almaq üçün Çinə göndərib.

Hörmətli oxucu, bunlar ancaq bir məqalədə göstərilənlərdir. Belə misallardan çox çəkmək olar.

Y.Məmmədov Bakıya gələndə H.Z.Tağıyevin qızı Sara xanım çox ağır xəstə idi, həm də qulaqları eşitmirdi. Pis ev şəraitində yaşayırdı. Dava-dərman və ərzaq almaq üçün pulu yox idi. Y.Məmmədov Sara xanıma baş çəkdi, onun ev şəraitini yaxşılaşdırdı.

Eyni zamanda onun bütün xərclərini öz üzərinə götürdü. Y.Məmmədov özü deyirdi ki, nəinki Azərbaycandakı, mən Rusiyadakı müəssisələrimin gəlirini də Azərbaycana xərcləyirəm. Təki müharibə bizim xeyrimizə qurtarsın. O gileylənirdi ki, müharibə bir qrup adamlar üçün deyil. Vətən, topaq hamınındır. Fəhlə də, milyonçu da, nazir də, alim də öz övladlıq borcunu verməlidir. Bizdə isə müharibədə bir nəfər də olsun rəhbər işçinin övladı vuruşmur.

Cavan olmasına baxmayaraq, «el atası» sayılan, ağsaqqal, müdrik, əliaçıq, alicənab insan olan Yelmar Məmmədov çox yaşamadı.

O, 12 aprel 1995-ci ildə Daşkənddə həyat yoldaşı ilə birlikdə müəmmalı şəkildə vəfat etdi. Guya gecə bunlar yatandan sonra qaz sızıb və qazdan boğulub ölüblər. Nə isə… allah hər ikisinə rəhmət eləsin, qəbirləri nurla dolsun.

Y.Məmmədov özünün qısa ömründə çox iş gördü. O, həmişə onu sevənlərin ürəyində yaşayacaqdır.

Yelmarın dörd övladı – iki qızı, iki oğlu ata-ana həsrəti ilə böyüyürlər.

## MEHRIBAN
*Hekayə*

Min doqquz yüz əlli ikinci ilin yayı idi. Mən rayonda orta məktəbi bitirmişdim. Fikrim gündüz zavodların birində işləyib, axşam ali məktəbdə oxumaq idi. Kimyaçı olmaq istəyirdim.

Məhz buna görə də Sumqayıt kimya zavodunda işə girmişdim. Işdən sonra imtahanlara hazırlaşırdım.

Bekar vaxtlarımda kitablarımı da götürüb, indiki Nəsimi parkına gedirdim. Parkda sakit bir yer seçib kitab oxuyurdum.

Bir gün nazik bədən, incəbel, qaymaq dodaq, qaraqaş, qaragöz, gözəl-göyçək bir qızın balaca bir qız uşağının əlindən tutub parka gəldiyini gördüm. Qız uşağın əlindən tutub, parkda gəzdirir, uşaq oynayır, gül-çiçək dərir, dəcəllik edirdi. Hər dəfə uşaq mənə yaxınlaşanda qız qoymurdu:

- Getmə, qoy əmin dərslərini oxusun.

Bir gün uşaq qaçıb mənim yanıma gəldi.

- Əmi adın nədir?

- Mənim adım Vüqardır, Bəs sənin adın nədir?

- Mənim də adım Cəmilədir.

Kitabı götürüb baxdı və məndən soruşdu:

- Əmi bu nədir?

- Kitabdır.

- Kitabı nə edirsən?

- Oxuyuram.

- Oxuyub nə edirsən?

Uşaq şirin uşaq ləhcəsi ilə o qədər suallar verdi ki, axırda mən gülərək onu atıb - tutdum. Uşağın anası bildiyim qız bizim yanımızda durub, bizə baxıb gülürdü. Mən üzümü qıza çevirib dedim:

- Qəşəng qızınız var. O, gülümsəyib dedi:

- Qardaşım qızıdır.

Uşaq məni adımla çağırdıqda qız dedi:

- Deyəsən, tanış olmusunuz?

- Bəli, biz artıq Cəmilə ilə tanışıq.

Qız uşağı götürüb getdi.

Artıq biz tanış olmuşduq, mən uşaq üçün darıxırdım. Səhəri səbirsizliklə gözlədim. Təzəcə oturub kitab oxuyurdum ki, onlar gəldi. Mən onu öpdüm, bir neçə dəfə atıb-tutdum. Uşağı gətirən qız söhbətə qarışırdı, deyirdi Cəmilə əmini incitmə, qoy dərsini hazırlasın. Mən etiraz edərək. Işiniz olmasın deyirdim.

Mən uşağa çox öyrəşmişdim. Həmişə cibimdə onun üçün konfet gəzdirirdim. Bir gün mən qızdan adını soruşdum. O bir qədər tərəddüt etdikdən sonra

- Adım Aytəndir - dedi.

- Siz yəqin mənim adımı bilirsiniz?

- Bəli Cəmilə evdə hey sizdən danışır. Vüqar əmi məni atdı-tutdu, Vüqar əmi mənə konfet verdi və s. evdə qardaşım Sərdar da, onun yoldaşı Solmaz da qiyabi olaraq sizi tanıyırlar.

O gündən sonra bizim aramızda tanışlıq başladı. Mən öyrəndim ki, Aytən doqquzuncu sinifdə oxuyur. Qardaşı sərdar inşaatçıdır. Qardaşının həyat yoldaşı Solmaz tibb bacısıdır.

Artıq biz tanış olmuşduq. Onlar parka gələn kimi Cəmilə mənim yanıma qaçır, verdiyim konfetləri tərəddüt etmədən götürür və mənə sağ ol deyirdi.

Bir gün onlarla bir cavan gəlin də gəldi. Cəmilə həmin gəlini çəkə-çəkə mənim yanıma gətirdi.

- Ana bu Vüqar əmidir.

Gəlin mənimlə salamlaşıb dedi:

- Cəmilə sizdən dil ağıza salmır, elə hey sizdən danışır.

Mən dövlət imtahanlarını verib, Neft Kimya Institutuna qəbul olunmuşdum. Gündüz işləyir, axşam isə oxuyurdum.

Həftənin dörd günü dərs keçilirdi. Şənbə, bazar günləri evdə olurdum.

Mən Cəmilə ilə Aytənə o qədər öyrəşmişdim ki, bir gün onları görməyəndə darıxırdım. Məni parkda görən kimi, Cəmilə yanıma qaçır və qucağıma tullanırdı.

Mən hiss edirdim ki, Aytəni sevirəm. Onu görəndə özümü itirirdim. Başa düşürdüm ki, o da mənə qarşı laqeyd deyil. Bir gün ürəyimi Aytənə açdım. Onu sevdiyimi dedim. O qızardı, bir söz deməyib cəmiləni qucağına alıb məndən uzaqlaşdı.

Aytən üç gün parka gəlmədi. Bu, məni çoz narahat etdi. Dördüncü gün mən parkda oturub dərslərimi hazırlayırdım. Onların gəldiyini gördükdə özümdən asılı olmayaraq, ayağa durub, onlara tərəf getdim.

Cəmilə qaça-qaça yanıma gəldi. Onu qucağıma alıb üzündən öpdüm. Cibimdən konfet çıxarıb ona verdim.

Aytən mənə yaxınlaşıb, utana-utana salam verdi. Birinci dəfə olaraq o, mənə əl uzatdı. Mən onun əlini sıxdım. O uçunurdu, sifəti qıpqırmızı qızarıb, od tutub yanırdı. Mən ona:

- Əliniz çox istidir, həm də həyəcanlısınız. O qızarıb başını aşağı saldı, heç nə demədi.

Biz artıq tanış olmuşduq. Bircə gün görüşməyəndə darıxırdım. Aytən çox vaxt Cəmiləsiz gəlirdi. Belə hallarda biz xəlvət guşəyə çəkilib söhbət edirdik.

Aytən mənə sıxılır, başını sinəmə qoyur, əlimi öpür, ürəyinin başına qoyaraq gözlərini yumurdu. Mən isə onun saçlarını oxşayır, üzündən, gözündən öpməkdən doymurdum. Biz bir-birimizi dəlicəsinə sevirdik. Aytən ölsə, qara torpağın, qalsa, mənim olacağına dəfələrlə and içmişdi.

Aytənin atası vəfat etmişdi. Anası rayonda yaşayırdı. Mən də atamın vəfat etdiyini, anamın isə rayonda yaşadığını dedikdə Aytən:

- Vüqar, bizim oxşar taleyimiz var, - dedi.

Bizim eşq macəramızı Aytənin qardaşı arvadı Solmaz xanım da bilirdi.

Mən üçüncü kursa keçmişdim. Həmin il Aytən orta məktəbi bitirdi. Mənim təkidimlə sənədlərini V.I.Lenin adına Azərbaycan dövlət Pedaqoji Institutuna verdi. Ancaq elə birinci imtahandan iki aldı. Indi mən Aytəni evlərinə ötürürdüm.

Son vaxtlar o gec-gec görüşə gəlir, bir bəhanə edib, tez də gedirdi. Mən onda mənə qarşı bir soyuqluq hiss etmişdim. Sonra bir müddət Aytən görünmədi. Mən narahat olmağa başladım. Bekar vaxtlarımda Aytəngilin evlərinin yan-yörəsində gəzirdim.

Bir gün Aytənin qardaşı arvadı Solmaz xanımla rastlaşdım. O, mənə salam verdi və Vüqar qardaş, xahiş edirəm bizə gedək, sənə sözüm var, - dedi. Mən heç nə deməyib, onunla getdim.

O, qapını döydü bir cavan oğlan gəlib qapını açdı. Solmaz xanım bizi tanış edərək dedi: - Sərdar Vüqar qardaş budur. Siz söhbət edin, mən çay hazırlayım. Sərdar mənə oturmağı təklif etdi. Mən oturdum. Sərdar:

- Solmaza mən demişdim sizi yanıma gətirsin. Mən Aytənlə sənin bir-birinzi sevdiyinizi bilirdim. Bunu mənə Solmaz demişdi. Balaca Cəmilə də sizdən dil boğaza salmır, ona görə mən sizi qiyabi olaraq tanıyıram. Ancaq Aytən dönük çıxdı. Qonşumuzda bir nəfər kirayəçi var idi. O, bizim tikintiyə ezamiyyətə gəldiyi üçün mən onu tanıyırdım. Adı Cəbiş idi. Bir neçə dəfə onu evə çaya da təklif etmişdim. Sonra eşitdim ki, Aytən Cəbişlə görüşür. O neçə olmuşsa, qızı ələ almışdı. Mən Aytəni hədələdim, onunla görüşməməyi tapşırdım.

Sonra Somaz mənə dedi ki, Aytən deyir mən Vüqara getmirəm. O lütün biridir. Mən Cəbişə gedirəm. Cəbişin evi, maşını, pulu, hər şeyi var. Mən Cəbişi sevirəm, ona da ərə gedəcəm. Indi o həyasız qoşulub ataşı yaşda Cəbişə qaçıb. Yerini-yurdunu da bilmirəm ki, dalıncan gedəm. Vüqar, mən səni çağırmışam ki, üzr istəyəm.

Mənim başım hərləndi, özümü itirdim. Heç nə deyə bilmədim. Evə necə gəlib çıxdığımı da bilmirəm. Mən üç gün nə işə, nə də dərsə gedə bilmədim. Fikrimi cəmləşdirib özümü ələ ala bilmirdim. Yaxşı ki, Aytənin məndə şəkli var idi. Gecələr ürəyimin başına qoyub yatırdım. Beləliklə, günlər gəlib keçirdi. Mən ömrüm boyu evlənməməyi qərara aldım.

Artıq institutu qurtarmışdım. Zavodda növbə rəisi işləyirdim. Gənc mütəxəssis kimi, mənə ev də vermişdilər. Mənim işim zavod dirkektorunun xoşuna gəlirdi. O, məni sex rəisinin müavini keçirdi.

Bir neçə ay sex rəisinin müavini işlədikdən sonra zavodun direktoru Kərim müəllim məni yanına çağırıb, geridə qalmış və ən ağır sahə olan xlor sexinə rəis getməyimi təklif etdi.

Mən boyun qaçıraraq dedim:

- Kərim müəllim, mən o işin öhtəsindən gələ bilmərəm. O isə təkid etdi, dedi qorxma mən sənə kömək edəcəm. Həmişə mənim diqqət mərkəzimdə olacaqsan. Beləliklə, mən xlor sexinə rəis keçdim.

Kərim müəllim mənə ata qayğısı göstərirdi. O, tez-tez sexə gəlir, bir çatışmamazlıq olan kimi tez aradan qaldırırdı. Bir neçə aya sex zavodun ən qabaqcıl sexlərindən biri oldu.

Sexdə növbə rəisi işləyən Mehriban xanımı işgüzarlığına görə özümə müavin götürmüşdüm.

O, mənə ürəkdən kömək edirdi. Artıq beş il idi ki, mən zavodda işləyirdim. Bütün meylimi işə salmışdım. Var gücümlə çalışırdım. Ona görə də şəklim şərəf

lövhəsindən düşmürdü. Zavodun direktoru Kərim müəllim iclaslarda, zavodda keçirilən bütün tədbirlərdə məni başqarlarına nümunə göstərirdi.

Mehriban mənə yaxşı kömək edir və qayğı göstərirdi. Axır vaxtlar mənə çox yaxınlaq edirdi. Köynəklərimi təkidlə məndən alıb aparır. Yuyub, kraxmallayıb, ütüləyib gətirirdi.

Bir gün Mehriban mənə yaxınlaşıb utana-utana dedi: - Vüqar, niyə evlənmirsən. Artıq yaşın keçir, başına dən düşməyə başlayıb.

Mən Aytənin şəklini göstərib, başıma gələnləri ona söylədim. Ömrümün axırına kimi onun əksini cibimdə, məhəbbətini isə ürəyimdə gəzdirəcəyimi və evlənməyəcəyimi dedim.

Mehriban bir müddət bu söhbətə qayıtmadı. Iki – üç aydan sonra Mehriban yenə Aytəndən söhbət açıb:

- Vüqar, bir gör aradan nə qədər vaxt keçib, artıq çoxdan o, səni unudub, atıb.

-Haqlısan, Mehriban, mən bilirəm o, məni çoxdan unudub, atıb. Ancaq mən o vəfasızı unuda bilmirəm.

Biz xeyli söhbət etdik. Mehriban mənə evlənməyi təklif etdi. Eyni zamanda ilk məhəbbətimi qoruyacağına da söz verdi. Mən onu xoşbəxt edə bilməyəcəyimi və sevə bilməyəcəyimi bəyan etdim. Mehriban isə ömrü boyu mənə sadiq olacağına və məni sevəcəyinə söz verdi. O, ömrü boyu mənə vəfalı həyat yoldaşı olacağına and içdi. Düzü mən də Mehribana qarşı laqeyd deyildim. Məhz buna görə də mən Mehribandan fikirləşmək üçün vaxt istədim.

Nəhayət, çox götür-qoy etdikdən sonra mən Mehribanla razılaşdım. O, çox sevindi. Mənim qız evinə elçi göndərmək üçün heç kimim yox idi. Mən qərara aldım ki, bu işə ağsaqqalıq etməyi Kərim müəllimə tapşırım. Ona görə də sexin ağsaqqal fəhlələrindən birinə bu məsələni Kərim müəllimə deməyi xahliş etdim.

Kərim müəllim çox sevinmiş və onun yanına getməyimi xahiş etmişdi. Mən utandığım üçün həmin ağsaqqalı da yanımda apardım. Kərim müəllim qapıya qədər mənim qabağıma gəldi. Məni bir ata nəvazişi ilə qucaqlayıb öpdü. Mehribanı çoxdan tanıdığını, onun işgüzar və tərbiətli qız olduğunu bildirdi. Ona görə də bu izdivaca çox sevindiyini dedi.

Mehribangilə elçiliyə bir neçə ağsaqqalla Kərim müəllim özü getdi. O, bizə zavodun hesabına gözəl bir komsomol toyu elədi. Beləliklə, biz evlənib yaşadıq.

Mehriban mənə çox qayğı göstərirdi. Darıxmağa qoymurdu. Toydan üç gün sonra işdən evə gələndə Aytənin şəklinin böyüdülüb çarpayımın qabağından divara vurulduğunu gördüm. Düzü, mən çox həyəcanlandım. – Mehriban, bu nə oyundur çıxarmısan? O gəlib məni qucaqlayıb öpdü və dedi: - Vüqar, sən Allah, ona dəymə. Darıxanda bax, xatırla. Mehribanın sözü məni çox mütəəssir etdi. Gözlərim yaşardı. O, yenə məni bağrına basdı. Gözlərimdən öpüb onun yaşını sildi. - Qurban olum Vüqar, özünü ələ al. Allah məni öldürsün, - dedi. Mən arvadımı öpüb dedim: - Sənin nə böyük ürəyin varıymiş, Mehriban? Mən səni belə bilməzdim.

O, gündən mən vəfasız Aytəni unudub, öz Mehribanımı sevməyə başladım. Biz xoşbəxt ər-arvad olduq. Aradan illər keçdi. Biz oğul-uşaq sahibi olduq.

Günlərin bir günü təsadüfən Aytən qabağıma çıxdı. Başı ağarıb, gözləri çuxura düşüb, üzü qırışıb, dişləri tökülüb, bir sözlə, qoca qarıya oxşayır. O, məni

görəndə əvvəl özünü itirdi, sonra özünü ələ alıb, mənimlə görüşdü və ağladı. Cəbişin onun başına açdığı oyunları söylədi.

- O fırıldaqçı imiş. Onun nə maşını, nə evi, nə də pulu var imiş. Cəbiş arvadı Məzlumu, qızı Möhtacı və oğlu Qəribi qürbət diyarda atıb, onları arxasız, köməksiz qoyubmuş. Neçə-neçə həbəş qızlarını da mənim kimi bədbəxt edibmiş.

Biz bir nesə ay darısqal evdə kirayədə yaşadıq. O, məni döydü, incitdi, evə sərxoş gəldi. Axırda bezib evdən qaçdım. Yeganə üzüyümü satıb, bir ev kirayə etdim. Vətən oğlu Qəşəm məni bazarda işə düzəltmişdi. Mən ağlaya-ağlaya bazarı süpürürdüm.

Mən peşman olmuşdum. Səni özümdən on beş yaş böyük olan bir əyyaşa dəyişdirdiyim üçün özümü bağışlaya bilmirdim. Vüqar bu müddətdə bir an da olsun səni unutmamışam. Sən məni yəqin çoxdan unutmusan.

- Mən də səni unuda bilmirdim, həyat yoldaşım Mehribanın sədaqəti, böyük ürəyi səni unutdurdu.

Sonda üzümü vətən qızlarına tutub deyirəm: Ilk məhəbbətinizi qoruyun. Pula-vara, daş-qaşa uymayın, ailəyə qarşı mənim Mehribanım kimi səmimi, sədaqətli, dəyanətli, qətiyyətli və mehriban olun. Bir ürəkdə yalnız bir məhəbbətə yer ola bilər. Ikinci məhəbbətə yer ola bilməz.

# POEZIYA DƏFTƏRINDƏN NÜMUNƏLƏR

## Oğlum Qabilə həsr etdiyim şerlər

## QATIL ƏLIN QURUSUN

*Bir kiçik budağı qıranda rüzgar,*
*Budaq qan-yaş tökər, ağac qan ağlar.*
*Şəhriyar*

Bir qatilin əlləri sənə uzandı,
Tamahı insafa üstün gələndə.
Sanmadı hədəfi hələ cavandı,
Tamahı insafa üstün gələndə.

***

Sanmadı neçə göz baxır arxanca,
Sanmadı körpən var, atan-anan var.
Gözləri qızmışdı onun yamanca,
Tamahı insafa üstün gələndə.

***

Xəbər qara xəbər dözülməz oldu,
Varlığım sarsıldı, ürək dözmədi.
El-oba xəbərdən pərişan oldu,
Tamahı insafa üstün gələndə.

***

Elə bil biryolluq ocağım söndü,
Can verən sən oldun, ölən mən oldum.
Gələnlər soruşdu: «Bu nədən oldu?»
Tamahı insafa üstün gələndə.

***

Yadımdan çıxmayır qamətin, boyun,
Hər dəqiqə varlığım hey inildəyir.
Kim idi çıxardı belə bir oyun?
Tamahı insafa üstün gələndə.

***

Sənin faciənə ellər ağladı,
De, nədən yarandı bu qara xəbər?
Bu xəbər sinəmi yaman dağladı,
Tamahı insafa üstün gələndə.

***

Dərd ağır olanda dözmək olmayır,
Düzəldib qaməti gəzmək olmayır.
Yerini boş görrəm, dözmək olmayır,
Tamahı insafa üstün gələndə.

***

Cüt balana baxıb, özünü görrəm,
Gəzdiyin hər yerdə izini görrəm.
Məzarına baxıb gözünü görrəm,
Tamahı insafa üstün gələndə.

***

Atan Əşir günü-gündən əriyir,
Təsəlli odur ki, qəbrinə dəyir.
Yaşamaq istəmir, ölmək istəyir,
Tamahı insafa üstün gələndə.

## OĞUL DƏRDI

Gəlib çatdı acı xəbər,
Varlığımı aldı kədər.
Bütün ömrümə bəs edər,
Oğul dərdi, oğul dərdi.

***

Evimin səfi pozluldu,
Cüt balanın gözü doldu.
Mənə hamıdan çox oldu,
Oğul dərdi, oğul dərdi.

***

Qürbət öz qoynuna aldı,
Düşmən səni tora saldı,
Ahım göylərə ucaldı,
Oğul dərdi, oğul dərdi.

***

Dizimin taqəti getdi,
Gözümün işığı itdi,
Pəhləvan bir oğlum getdi,
Oğul dərdi, oğul dərdi.

***

Cənazəsi ağır getdi,
Ana-bacı fəryad etdi,
Bununla şad günüm getdi,
Oğul dərdi, oğul dərdi.

***

Ayrılığa dözümüm yox,
Ömür qısa, dərd isə çox.
Əşir, dərdinə çarə yox,
Oğul dərdi, oğul dərdi.

## DAĞLAR AĞLADI

Kədərli xəbərdən dağlar ağladı,
Analar bacılar qara bağladı,
Sənin dərdinə dözmədi Həkəri,
Hikkəsindən aşıb, daşıb çağladı.

***

Hərtizi, Səngəri duman bağladı.
Həkəri, Bərgüşad qoşa çağladı.
Ana torpaq dözmədi qan ağladı.
Sənin dərdinə ellər yas saxladı.

***

Işıqda vermədi günəş, ay, ulduz,
Qaranlıq oldu gecə kimi gündüz,
Hələ yol gözləyir bir cüt körpə qız,
Səni çox sevən gəlin qalıb yalqız.

***

Sındırdın qəddini məğrur atanın,
Səni canından əziz tutanın.
Daim sənin məzarında yatanın,
Intizardan ömrü sona çatanın.

***

Sevimli oğlum sən cismən ölmüsən.
Ruhən həmişə mənim qəlbimdəsən.
Oğlum sən həyatda gün görməmisən,
Açılmamış qönçə kimi solmusan.

***

Əşirə bu dünya zülmət gecədir,
Daha işıq vermir günəşi, ayı.
Dərdlərimin ölçüyə gəlmir sayı,
Allah varmı, bədbəxt məndən savayı.

## YAŞAMAĞIN NƏ MƏNASI?

Elə sarsılmışam səndən sonra Qabil,
Özümü özümdən soruşuram bəzən.
Dost-tanış mənə deyir səbir et səbir,
Ölmüş bilir oğrun-oğrun məni süzən.

***

Həmişə gəzirəm sakitlik, künc-bucaq.
Daim oluram mən insanlardan uzaq,
Elə gəzib axtarıram doğma ocaq,
Çöldə gəzməkdən öldürür məni sazaq.

***

Görüşəndə tanımıram dost-tanışı,
Yaxın dostların məyus olur hamısı.
Elə bilirəm hər yer zülmət gecədir,
Sanki günəş, ay doğmur batıb hamısı.

***

Əşir sənin bu dərdin çox ağır keçdi,
Sənin ömrün başa çatıb artıq gecdi.

Bundan sonra yaşamağn nə mənası,
Nə qədər yaşasanda axırı heçdi.

## AĞIR FACIƏ

*Hicranın əlindən mən hara qaçım?*
*Yıxır ürəyimi öz ürək acım…*
*Rza Əfşapur*

Düşmən gülləsinə tuş oldu balam.
Ürəyim bağlayıbdır dərd vərəm.
Arada qalıbdır iki balası.
Ağlamaqdan kor olubdur anası.

***

Namərd necə qıydın mənim balama,
Allah niyə fürsət verdin zalıma?
Qohum qardaş yanır mənim halıma,
Yer-göy ağlar vallah belə ölümə.

***

Əgər siz Qabilimi axtarsanız,
Bilin balalarının izindədir.
Sevimli Gülnarının ürəyində,
Doğma Əminəsinin gözündədir.

***

Gülnar elə bil ki, onun özüdür.
Mehriban, Əminə iki gözüdür,
Ramilədə onun şirin sözüdür,
Biz gecə-gündüz onları qoruyaq.

***

Balamın zövcəsi qara bağlama,
Balaların ürəyini dağlama,
Qabilimin yadigarı ağlamaz,
Heç vaxtı başına qara bağlamaz.

***

Oğul cənazəsi aparan ata,
Yaşamaya hardasa itə-bata.
Həyatda böyük xoşbəxtlik odur ki,
Ata cənazəsini oğul tuta.

***

Tarixin təkəri tərsinə dönür,
Görürsən ata qalır oğul ölür.
Təbiətdə nizam təmiz pozulur,
Xarabada bayquş yox, bülbül olur.

***

Əzab çəkmək üçün yaşayır ata,
Həyatda sevinci yox, kədəri tuta.
Arzumdur nəvələri xoşbəxt görmək,

Onları ərsəyə çatdırıb ölmək.
***
Allahım əmilərinə dəyməsin,
Belim bir əyilib bir də əyməsin,
Nəvələrim yaman günlər görməsin,
Ana bacıları qara geyməsin.
***
Aslanın erkəyi, dişisi olmaz,
Qızım səndə aslan sayağı yaşa.
Atalar deyibdir tökülən dolmaz,
Ömrünü namus, qeyrətlə vur başa.
***
Oğlum inanmıram mən yoxluğuna.
Sənin faciyən ürəyimə oxdur.
Dözə bilmirəm dərdin çoxluğuna.
Mənim dərdim hamı dərdlərdən çoxdur.
***
Sənin sevimli və əziz Gülnarın,
Ağır ölümünə inanmır hələ.
Bir neçə yüz illər keçsə də belə,
Inanmıram səni unuda bilə.
***
Körpə Əminən qanmır indi,
Faciyə o, qananda olacaqdır.
Ata uşaqların əzizləyəndə,
Qəlbi soğan kimi soyulacaqdır.
***
Alçaq şərəfsizə tuş oldu canı,
Bica yerə axdı balamın qanı.
Oğlanlarım qəddinizi əyməyin,
Ana-bacınız ağlasın dəyməyin.
***
Əşir doğrudan sən nər oğlu nərsən,
Əyilmə sınarsan əgər əyilsən.
Heç vaxt əyilmə mərdi-mərdanə dur,
Sən daimi şükür edənlərdən ol.
Sən daimi şükür edənlərdən ol.

## QABIL DƏRDI, TURAL DƏRDI

*Dayım oğlu Əliyə*

Mənə çatdı qara xəbər,
Ömür günüm oldu hədər.
Ömrə bəs edər bu kədər,
Qabil dərdi, Tural dərdi.
***

Qabilimin izi qaldı,
Vardır onun cüt balası
Turalımın sözü qaldı,
Qabil dərdi, Tural dərdi.
***
Birisini qərib diyar,
O, birini vətən yedi.
Ata-ana içdi zəhər,
Qabil dərdi, Tural dərdi.
***
Hər ikisi uca boylu,
Qamətləri lap şux idi.
Anaları olub hoylu,
Qabil dərdi, Tural dərdi.
***
Birisini rul apardı,
O birisi hədər getdi.
Ömürlərin gül çağıydı,
Qabil dərdi, Tural dərdi.
***
Vətən dərdi bəs deyilmiş?
Üstə gəldi oğul dərdi.
Ataların belin əydi,
Vətən dərdi, oğul dərdi.
***
Əşir sənin ahu nalən,
Çıxıb ərşə daha bəsdi.
Var Əminə, Gülnar balan,
Şükür elə daha bəsdi.
Şükür elə daha bəsdi.

## KIŞI GƏRƏKDIR

Ocağıma böyük bir dərd gəlibdir,
Bu dərdə dözməyə ürək gərəkdir.
Təbəssümü gülüşləri silibdir,
Bu dərdə dözməyə ürək gərəkdir.
***
Şamil balam dərdə dözə bilməyir,
Gözünü yollardan üzə bilməyir.
Ah-nalə eyləyir, hey qardaş deyir,
Bu dərdə dözməyə ürək gərəkdir.
***
Onun  kədəri də bir dərd olubdur,
Qabil balasının rəngi solubdur.

Hamıdan irəli mənə olubdur,
Ataya bu dərdə dözmək gərəkdir.
***
Içərdən ürəyimə sel-su axır,
Gözlərin yollara baxır, hey baxır,
Başımdan göylərə dumanlar qalxır,
Bu dərdə dözməyə ürək gərəkdir.
***
Əşir ürəyinin şamı sönübdür,
Ağlaya bilmirsən daşa dönübdür,
Oğlunun bu dərdi səni əyibdir,
Bu dərdə dözməyə ürək gərəkdir.

## IBADƏTGAHIM

*Istəyimə yol gedirəm*
*Gözü bağlı, sinə dağlı,*
*Mən dünyaya neyləmişəm*
*Mənə baxır qaşqabaqlı.*
***B.Vahabzadə***

Məzarın önündə dayanmışam lal,
Danışa bilmirəm, dinə bilmirəm
Məni qucaqlayıb qara bir xəyal,
Danışa bilmirəm, dinə bilmirəm.
***
Xəyal uzaqlara aparır məni,
Sənin körpəliyin yadıma düşür.
Əksini görəndə məzar daşında,
Dilim söz tutmyaır, varlığım üşür.
***
Bircə yol baş qaldır, möcüzə yarat,
Bircə an da olsa ruhumu et şad.
Yanan ürəyimə bir damla su at,
Mənim ürək balam, ay Qabil balam.
***
Inana bilmirəm bu yoxluğa mən,
Elə bil qəlbimdə günəş tutulub.
Inana bilmirəm şirin həyatdan,
Mənim ürək parçam Qabil yox olub.
***
Məzarından səs gəlir deyir, ay ata.
Göz yaşı tökməyin nə mənası var?
Bir də bu yerlərdə məni axtarma,
Qayıt cüt balamın qəlbində axtar.

***
Əşirəm, dərd çəkir məni bu yerə,
Atayam yüksəlib göylərə ahım,
Hər gün gələcəyəm mən bu yerlərə,
Çünki bu məzardı ibadətgahım.

## ALLAH KƏRIMDIR

Dərd bir olsa onu çəkməyə nə var.
Bu qədər dərdin mən hansını çəkim?
Vətən dərdi, oğul dərdi, el dərdi.
Istəyirəm həyatımdan əl çəkim.
***
Dərdim dağa yüklənsə dağ əriyər.
Filədə yüklənsə dizi bükülər.
Xəyalla gəzirəm dağı, aranı.
Ürəyə salıram qarı, boranı.
***
Ürəkdə təpər, canda taqət yoxdur.
Sevinc məndən qaçır, kədərsə çoxdur.
Gəlmə, köçkün, qaçqın sözü eşitmək.
Mənim ürəyimə sancılan oxdur.
***
Əşir sənin yaran çox-çox dərindir.
Səbr et dərd ürəyini əridir
Tək çəkmə, bu həm də elin dərdidir.
Hər şeyin sonu var, Allah kərimdir.

# DOSTLARA VƏ QOHUMLARA HƏSR OLUNMUŞ ŞERLƏR

## ÜRƏK DOSTU

*Dostum Bəhram müəllimə*

*Yalnız yaxşı insanlar arasında*
*dostluq mümkündür.*
*M.T.Siseron*

Bir aqildən soruşdular,
Dost yaxşıdır, yoxsa qardaş?
Dedi: qardaşın qardaşdır,
Yaxşı dosta sən de qardaş.
***
Dost həyatda müxtəlifdir,
Çörək dostu, gərək dostu,
Belə dostlar naxələfdir,
Əsil dostdur ürək dostu.
***
Süfrəndə nemətin bolsa,
Ürək dostu çox sevinər,
Darda qalsan naxələf dost,
Kömək etməz, qoyub gedər.
***
Gərək dosta lazım gəlsən,
Tapar səni harda olsan,
Ona lazım deyilsənsə,
Axtarmaz darda da qalsan.
***
Bəhram mənim ürək dostum,
Işlərimə gərək dostum,
Qohum qardaşdan irəli,
Ürək dostum, ürək dostum.
***
Dostluqda daim ucaldın,
Əşirin qeydinə qaldın,
Pis günümdə yada saldın,
Ürək dostum, ürək dostum.

## SEV ELINI, UCADA DAYAN

*Milli Məclisin deputatı*
*Sevindik Hacağa oğluna*

Dostum zirvəni fəth etmisən,
Orda mərdi-mərdanə dayan.
Düşmənə kinli, dosta həyan,
Olma lovğa, özünü öyən.
Sev elini, ucada dayan.
***

El səni qaldırıb ucaya,
Hörmət et zəlilə, qocaya.
Uymaginən şöhrətə-şana,
Qoyma  məmurlar haqqı dana.
Sev elini, ucada dayan.
***
Arzum doğma vətənə dönmək,
Savaşla torpaqları almaq.
Bu haqda siz çıxarın qərar,
Xalq istəyir vətənə dönmək.
Sev elini, ucada dayan.
***
Zəhmətə  bağlısan əzəldən,
Əməyindir səni ucaldan.
Istərəm daha da ucalasan,
Ancaq elindən güc alasan.
Sev elini, ucada dayan.
***
Elin çox  istəyir xətrini,
Səndən alır vətən ətrini.
Torpaq almaq olsun  ilk işin,
Bu haqda gecə-gündüz düşün.
Sev elini, ucada dayan.
***
Qartal  yurdu sara qılıbdır,
Vətən gülləri də solubdur.
Ellərimiz yasa  batıbdır,
Pis qonşu arzuya çatıbdır.
Sev elini, ucada dayan.
***
Hanı yurdun Nəbi, Həcəri?
Tezləşə düşmənin əcəli.
Soltan bəy o, Tayqulaq hanı?
At körpüdən qoy çıxsın canı.
Sev elini, ucada dayan.
***
Sən ucaldın Əsir sevindi,
Səni elin sevir Sevindik.
Sən eli sev onu sevindir,
Elinlə bir ucal Sevindik.
Sev elini, ucada dayan.

## GƏLIB  ATDIM 70 YAŞA

Üçü noyabr otuz beşdə,
Mən dünyaya göz açmışam.
Ağır keçib uşaqlığım,
Vaxtından tez qocalmışam.
***
Uşaqlağım yetim oldu,
Çətinliklə yaşa doldum.
Gah yıxıldım, had da durdum,
Gəlib çatdım yetmiş yaşa.
***
Beş yaşımda atam getdi
Pis günlərim  tüğyan etdi.
Dərdlə addımladım qoşa,
Gəlib çatdım yetmiş yaşa.
***
Nələr çəkmiş yazıq başım,
Az qalmışam hərdən çaşım.
Çətin yollar aşa-aşa,
Gəlib çatdım yetmiş yaşa.
***
Balalarım böyüdülər,
Arxa dayağım oldular.
Sevincimlə qaldım qoşa,
Gəlib çatdım yetmiş yaşa.
***
Pis qonşu xəyanət etdi,
Müqəddəs vətənim getdi.
Qəmimlə mən qaldım qoşa,
Gəlib çatdım yetmiş yaşa.
***
Dərd gələndə qoşa gələr,
Lap şütüyüb başa gələr.
Oğul, vətən oldu qoşa,
Gəlib çatdım yetmiş yaşa.
***
Qürbət eldə öldü balam,
Az qalmışam dəli olam.
Cüt balası bir tamaşa,
Gəlib çatdım yetmiş yaşa.
***
Vətən dərdi, oğul dərdi,
Hər ikisi ağır dərddir.
Istəyir ki, ağlım çaşa,

Gəlib çatdım yetmiş yaşa.
***
Şamil balam sevir məni,
Unutdurur dərdi qəmi.
Məclislərdə çəkir başa,
Gəlib çatdım yetmiş yaşa.
***
Əşir eldən ayrı düşəli,
Artıb dərdi qəmin sənin.
Tanrı möcüzə göstərə,
Vətəndə ola səksənin.

## HACISAN

*Dostum Bəhramın həyat yoldaşı,*
*mənim bacım Zərifə xanıma*

Dostumun vəfalı yarı,
Ey sevimli əziz qadın.
Sən bəhrama nə etmisən?
Salıbdı dillərə adın.
***
Bu  hörməti, bu izzəti,
Zəhmətinlə qazanmısan.
Damla-damla, gilə-gilə,
Hörmətinlə qazanmasın.
***
Hər kişiyə qismət olmur,
Sənin kimi gözəl qadın.
Dostum Bəhram nər kişidi,
Dillərə düşübdü adın.
***
Düşüb dillərə hörmətin,
Görür hamı ləyaqətin
Dostum üçün sədaqətin,
Düşüb dilə mənim bacım.
***
Sən həyatda külüng çalıb,
Fərhad kimi ad almısan.
Bu pilləyə, bu zirvəyə,
Zəhmətinlə ucalmısan.
***
Bu ərköyün qardaşıma,
Mənim ürək sirdaşıma,
Sən arvad yox dost olmusan,
Onunla bir qocalmısan.
***

Çoxları çoxdan bilir ki,
Əşirə doğma bacısan.
Ziyarətə getməmişdən.
Çox hörmətli BIR hacısan.

## ƏYILMƏ, SINMA, BIBI OĞLU

*Bibim oğlu Əliyə*

Qaçqınlıq ən çox sənə zülüm etdi.
Ağsaqqalın düşmənə Əsir getdi.
Tikdin uçurdular əməyin itdi.
Körpə balaların ah-fəğan etdi.
Əiylmədin, sınmadın bibi oğlu.
***
Balaların böyüdü ərsə yetdi.
Hərəsi bir işin dalınca getdi.
Oxudular kamil təhsil aldılar.
Onlar sənə arxa-kömək oldular.
Heç vaxt əyilmə, sınma bibi oğlu.
***
Cüt maşının yağı düşmənə qaldı.
Qurulu evin-eşiyin talandı.
Sürü ilə mal-qoyun qarət oldu.
Bütün varın-yoxun zalıma qaldı,
Əyilmədin, sınmadın bibi oğlu.
***
Ən böyük dərdimiz vətən dərdidi,
Bu dərd həm Əşiri həm səni əydi.
Yığılsın elimin ikidi, mərdi
Qovaq düşməni azad edək yurdu.
Heç vaxt əyilmə, sınma bibi oğlu

## ARXADI, KÖMƏKDI, DAYAQDI QARDAŞ

*Qardaşım Nüsrətə*

Insana, dost da, qardaş da lazımdır.
Qardaşın öz yeri, dostun öz yeri.
Gərək dostu, çörək dostu nə lazım?
Ürək dostuna qurban olsun canım
Arxadı, köməkdi, dayaqdı qardaş.
***
Pis gündə qardaşın dayağın olar,

Arxan, köməyin, həm mayağın olar,
Çətinə düşəndə kəsər yanımı,
Düşmənə ox olar alar canımı
Arxadı, köməkdi, dayaqdı qardaş.
***
Gen gündə o, səndən uzaq gəzər.
Yıxılsan, əzilsən, yanını kəsər.
Yolunda çalışıb, özünü üzər.
Xəstə olsan yatmaz, hey səni süzər.
Arxadı, köməkdi, dayaqdı qardaş
***
Əşirə qardaşı arxa dayaqdı.
Onun övladları qoldu, qanatdı.
Onları sevirəm həyatım qədər,
Biz birgə olanda qaçır dərd-kədər.
Arxadı, köməkdi, dayaqdı qardaş.

## QIRXDIR SAQQALINI, ƏZIZ OĞLUM

*Oğlum Şamilə*

Əzəldən qaydadır ürək dərd çəkər,
Gözün öz işi var, o da yaş tökər.
Bənizi dəyişər, qüssə, qəm, kədər,
Saqqal nəyə gərək, ay əziz oğlum.
***
Oğlum, sən çəkəni biz də çəkirik,
Hər yada düşəndə qan-yaş tökürük.
Vaxt gəlib çatanda biz də köçürük,
Saqqal nəyə gərək, ay əziz oğlum.
***
Fələk öz çərxini sürür hər yana,
Nə baxır qocaya, nə də cavana,
Qoyur insanları hey yana-yana,
Saqqal nəyə gərək, ay əziz oğlum.
***
Qabilin qızları üzünə baxır,
Hər baxanda onlar yaman darıxır,
Bu hal onlar kimi məni də sıxır,
Saqqal nəyə gərək, ay əziz oğlum.
***
Əvvəlldən saqqalı sayıblar ayıb,
Sabir də saqqalı cəhalət sayıb,
Bütün bu sözləri nəzər alıb,
Qırxdır saqqalı, ay əziz oğlum.

***
Dost-düşmən içində vüqarlı gəz  sən,
Ürək qəm yesə də, hərdən bir şənlən,
Qoy ibrət alsınlar  körpələr səndən.
Saqqal nəyə gərək, ay  əziz oğlum.
***
Əşirəm,  dünyanın hər üzün gördüm,
Dərd-qəmdən  özümə  bir cələng hördüm.
Ölümlü günümdür sizi şən görüm
Saqqal nəyə gərək, ay  əziz oğlum.

## CƏNAZƏMƏ KIM  GIRƏCƏK

Ölsəm cənazəmə kimlər girəcək?
Dörd oğlumdan biri yanımda yoxdur.
Düşmənlərim bunu görüb güləcək,
Ölsəm cənazəmə kimlər girəcək?
***
Əzrayıl da  susayıbdır qanıma,
Xəncər çəkib, girişibdir canıma.
Balalarım  gələ bilmir  yanıma,
Ölsəm cənazəmə  kimlər girəcək?
***
Şamil balam balaların gözüdür,
Hər bir işdə atasının özüdür.
«Atamı sevirəm» onun   sözüdür
Ölsəm cənazəmə kimlər girəcək?
***
Kaş bilərdim ayırılğı kim  salıb,
Bəs vətəndə kim qırılıb, kim  qalıb
Düşünürəm hərdən xəyala dalıb
Ölsəm cənazəmə kimlər girəcək?
***
Tahirin yoludr, ağsaqqal yolu,
Məzahirə deyirlər dəli-dolu,
Qabil balan bax onların saz qolu,
Ölsəm cənazəmə kimlər girəcək?
***
Əşirəm vətəndə mən tək qalmışam,
Körpə nəvələrə meyil salmışam.
Ürək nisgil çəkir, yaman dolmuşam
Ölsəm cənazəmə kimlər girəcək?

## BASILMAZ PƏHLƏVAN, IGID SƏRKƏRDƏ

*Azərbaycan Respublikasının milli*
*qəhrəmanı Əlyar Əliyevə*

Basılmaz pəhləvan, igid sərkərdə,
Tək qalmısan doğma vətəndə, eldə.
Dağ çəkdin düşmənə, qul oldun yurda
Canın fəda getdi, vətən yolunda
***
Unudarmı səni xalqın, dövlətin?
Göylərə qaldırdın  elin şöhrətin.
Sən ölməmisən həmişə yaşarsan,
Vətəndə yanan daima məşəlsən.
***
Ustadın Bahadurla yurdda qaldız.
Pəhləvan Həzini bəs harda qoyduz?
Həzimiz dərd çəkir, ömrü nəsdədir.
Ürəyi yurd istər canı xəstədir.
***
Ustadınla çağır Həbi, Həcəri,
Haylayın qürbətdən Həzidə gəlsin.
Vuruşun yetsin düşmənin əcəli,
Vətənə qovuşaq bəxtimiz gülsün
***
Komandir Namazovu sən tək qoydun.
Top-tüfəngsiz, arxa-köməksiz qaldı.
Xəbislər elin mərd oğluna güldü.
Qəhrəmanlar yurdü, düşmənə qaldı.
***
Biz  çəkə bilmirik bu ağır dərdi.
Sənin yoxluğun belimizi əydi.
Qaliblər məğlub kimi, yurda döndü.
Düşmən bizə gülüb özünü öydü.
***
Sənə yaraşmazdı olasan köçkün.
Vətəndə vətənsiz didərgin, qaçqın.
Əlyar qəlbi tab gətirməz bu dərdə,
Partlardı ürəyi qürbət diyarda.
***
Əşir dözə bilmir vətən dərdinə.
Canım qurban Əlyar kimi mərdinə.
Düşmən basıla, el dönə yurduna.
Yetək əzizlərimizin ruhuna.

## KÖVRƏK ÜRƏYINƏ QURBANAM ANA

Məni işıqlı dünyaya gətirən,
Qayğımı çəkib ərsəyə yetirən,
Gecələr beşik başında oturan,
Gündə yüz dəfə bələyib, yedirən,
Kövrək ürəyinə qurbanam ana.
***
Vətəndə vətənsiz qalıb ağlayan,
Gecə-gündüz ürəyimi dağlayan,
Körpə nəvələrə könül bağlayan,
Dəniz kimi silkələnib çağlayan,
Kövrək ürəyinə qurbanam ana.
***
Fələk niyə mənə belə qarğayıb?
Məni qürbət eldə anasız qoyub.
Həkəri-Bərgüşad kimi çağlaran,
Qan yaş töküb gecə-gündüz ağlaran.
Kövrək ürəiynə qurbanam ana.
***
Əşir gedib çıxa yazı düzünə.
Üz qoya ananın ayaq izinə.
Orda ölüb qalam anamla qoşa,
Çürüyüb qarışan torpağa, daşa.
Kövrək ürəyinə qurbanam ana.

## GÜLNAR MƏKTƏBƏ GEDIR

Ağlama Qabilimin anası,
Axı var onun cüt balası.
Gülnar elə bil ki, özüdür,
Əminəsi iki gözüdür.
***
Gülnarımız məktəbə gedir,
Olsun qədəmləri mübarək.
Əminəmiz bizi şad edir,
Axı o da bağçaya gedir.
***
Oğlum ruhun şad olsun sənin,
Gülnar bu gün məktəbə getdi.
«Gözəl vətən» şerini dedi,
Oynadı bizi heyran etdi.
***
Qabil sənin qızların şuxdur,
Düşmən gözünə batan oxdur.

Evdə sənin yerin görünür,
Hamı qəm libası bürünür.

***

Sən baş qaldır möcüzə göstər,
Cavan ömür getməsin hədər.
Atan Əşiri üzdü kədər,
Bizə əzab vermə bu qədər.

## TƏK BALAM

Şamil balam, ürəyimin parçası,
Məhəbbətdə, sədaqətdə tək balam.
Orxandan alıram sənin iyini.
Məhəbbətdə, sədaqətdə tək balam.

***

Orxan gözlərimdə kiçik Şamildir,
O da sənin kimi çox şirin dildir.
Düşüb bu ayrılıq bir neçə ildir,
Məhəbbətdə, sədaqətdə tək balam.

***

Övlad var ki, atasını yad etmir,
Aylarla, illərlə yanına getmir.
Olsa-olsa el üzünə yad edir,
Məhəbbətdə, sədaqətdə tək balam.

***

Bu dünya fanidir, bilirəm bunu,
Ölümdür, itimdir axırda sonu.
Təəssüf, hər övlad bilməyir bunu,
Məhəbbətdə, sədaqətdə tək balam.

***

Aylar-illər bir-bir gəlib gedəcək,
Atanda dünyadan köç eyləyəcək.
Son nəfəsdə sənə əhsən deyəcək,
Məhəbbətdə, sədaqətdə tək balam.

***

Əşirəm övlada mən çox bağlıyam.
Qabil unudulmur, sinə dağlıyam.
Yaş da gəlmir mən doyunca ağlayam
Məhəbbətdə, sədaqətdə tək balam.

## PIS GÜNDƏ GƏRƏKDI QARDAŞ

*Oğlanlarıma*

Tahirin yoludur ağsaqqal yolu,
Şamillə, Məzahir qanadı, qolu,
Onlar bir-birinə arxa köməkdir,
Böyük qardaş öndə gedən mayaqdır.
Pis gündə adama gərəkdir qardaş.

***

Birləşsəz düşmən sizdən gen gəzər,
Əgər ayrılsaz düşmən sizi əzər.
Qoymayın düşməni girə araya,
Qaynayın-qarışın siz olun sirdaş.
Pis gündə adama gərəkdir qardaş.

***

Itirdik Qabili sındı belimiz,
Dərddən, qəm-qüssədən gülmür üzümüz,
Mehribanlaşın siz olun dost, sirdaş.
Pis gündə adama gərəkdi qardaş.

***

Siz Əşiri intizarda qoymayın.
Əyilmiş belini birdə əyməyin.
Qoymayın düşmən aranıza girə.
Allah xatirinə olun əməkdaş.
Pis gündə adama gərəkdi qardaş.

## TƏNHALIQDAN AĞLADIN

Şam kimi əridin qohum yolunda,
Heç sənin qədrini bilən olmadı.
Tənhalıqdan ağladın gecə-gündüz,
Gözünün yaşını silən olmadı.

***

Sən həmişə bizimlə birgə oldun.
Ağladıq ağladın, güləndə güldün.
Işıq saldın doğmaların yoluna,
Kömək etdin yaslarına, toyuna.

***

Əzizim səni boğmasın qəm, kədər,
Balalar sevir səni ana qədər.
Qəddini düzəlt sən bir gəl özünə,
De, şükür olsun Allahın gözünə.

***

Əşirəm məni göynədir vətən dərdi,
Bu dərd həm məni həm də səni əydi.

Qaçqın, köçkün dedilər bizə dəydi,
Vətəndə vətənsiz olmaq bizi əydi.

## QIZ NƏVƏLƏRIM

Mənim bu dünyada altı nəvəm var,
Familə, Aygün bir də Səbinəm var,
Əminə, Lalə və gözəl Gülüm var,
Şirindi-şəkərdi qız nəvələrim.

***

Nəvədi dünyada birinci dövlət,
Nəvədi ailədə şirin nemət,
Nəvəsi ollmayan hey çəkər həsrət,
Şirindi- şəkərdi qız nəvələrim.

***

Güləndə dünyanı mənə veriirlər,
Bəzən dodaq büzüb naz eyləyirlər,
Dildən düşməyirəm baba deyirlər,
Şirindi-şəkərdi qız nəvələrim.

***

Saxlasın onları böyük Yaradan,
Qoy uzaq eyləsin dərddən-bəladan,
Görüm kam alsınlar bax bu dünyadan,
Şirindi-şəkərdi qız nəvələrim.

***

Özüm Qubadlıyam Əşirdi adım,
Nəvənin dilindən düşməyir adım,
Onlardı dünyada mənim muradım
Şirindi-şəkərdi qız nəvələrim.

## ATAM QƏDƏR ƏZIZDIR

Atam öldü pis günlər tüğyan etdi,
Anam həyat qurdu təkliyi atdı.
Qardaş-bacım yox idi, tək qalmışdım,
Fikirimi dərdə-qəmə salmışdım.

***

Bəxş olundu mənə qardaşla bacı,
Ürəyimdən silindi ağrı-acı.
Indi var mənim qardaşım, həm bacım,
Gedib ürəyimdən ağrımla acım.

***

Atalığımdan daim hörmət gördüm,
Mən analı və atalı böyüdüm.
Atalığım mənə çox-çox əzizdir,
Onun məhəbbəti ümman, dənizdir.

***

Əşir dərdin vətən, oğul dərdidir,
Bu dərd sənin ürəyini əridir.
Sənin arzun ancaq vətənə dönmək,
Doğma yurda çatıb, orada ölmək.

## TƏKI SƏN YAŞA

Şamil balam çıx yasdan,
Bəsdi daha ağlama.
Ağladıqca ürəyimi,
Çalın-çarpaz dağlama.
Sən yaşa, yaşad oğlum.

***

Mən çox ömür sürmüşəm,
Çox faciə görmüşəm.
Düzdür yaran dərindir,
Ağır yukdə nərindir.
Sən yaşa, yaşad oğlum.

***

Səni qəmli görəndə,
Daha əyilir belim.
Oğlum səni şad görüm,
Mən də deyim və gülüm.
Sən yaşa, yaşad oğlum.

***

Köçüb tayım tuşlarım,
Həyatda tək qalmışam.
Qəlbə axır göz yaşım,

Bağrı yara olmuşam,
Sən yaşa, yaşad oğlum.
***
Sən uca tut başını,
Axıtma göz yaşını.
Düşmən görsün xar olsun,
Ürəyinə mil olsun.
Sən yaşa, yaşad oğlum.
***
Sən Allah qırx üzünü,
Qaydaya sal özünü.
Yasdan çıx, şux gəz bala,
Tay-tuşdan qalma dala
Sən yaşa, yaşad oğlum.
***
Atan qurban gözünə,
Bir fikir ver özünə.
Baxsan ata sözünə
Əşir gələr özünə.
Sən yaşa, yaşad oğlum,
Sən yaşa, yaşad oğlum.

## ILK NƏVƏM

*Nəvəm Rəşada*

Nəvə şirin olur oğuldan, qızdan.
Babanı qoruyur qardan, ayazdan.
Gözəl xəbər verir bahardan, yazdan.
Hamıdan əzizdir, ilk nəvəm mənim.
***
Çətinə düşəndə yetir dadıma.
Daim hörmət edir baba adına.
Həmişə düşürəm onun yadına.
Hamıdan əzizdir, ilk nəvəm mənə.
***
Qocaya əlilə hey edir hörmət.
Həmyaşları alırlar ondan ibrət.
Babasına çox göstərir səxavət.
Hamıdan əzizdir, ilk nəvəm mənə.
***
Vətən məhəbbəti onda güclüdür.
Dosta yumşaq, düşmənə sərt üzlüdür,

Dığaları qovmaq onda arzudur,
Hamıdan əzizdir, ilk nəvəm mənə.
***
Onun gözü yoxdur qızılda, zərdə.
Hörməti var vətəni, sevən mərdə.
Əlilə-zəlilə hey tutar əldə.
Hamıdan əzizdir, ilk nəvəm mənə.
***
Adı Rəşad özü rəşadətlidir.
Yağı öldürməyə qol-qanadlıdır.
Düşmən piyada o, yorğa atlıdır
Hamıdan əzizdir, ilk nəvəm  mənə.
***
Əşirəm vətənsiz sinə dağlıyam
Yaşda gəlmir mən doyunca ağlıyam.
Vətən əldən gedib yolu bağlıyam,
Hamıdan əzizdir, ilk nəvəm mənə,
Hamıdan əzizdir, ilk nəvəm  mənə.

## QIZIM

Sən baharımsan, yazımsan,
Söhbətim, sazımsan qızım.
Mənə ana əvəzisən,
Ay mənim mehriban qızım.
***
Qocalıb yaşa dolasan,
Elinə arxa olasan.
Balalara toy edəsən,
Ay mənim mehriban qızım.
***
Həyatda namusla yaşa.
Heç vaxt büdrəmə qızım.
Ömrü şərəflə vur başa.
Ay mənim mehriban qızım.
***
Balaların ağıllıdır.
Tərbiyəsin gözlə qızım.
Zəyifi ayağa qaldır.
Ay mənim mehriban qızım.
***
Atan Əşir sevir səni.
Sən də onu qoru qızım.
Allah qorusun nəslini.

Ay mənim mehriban qızım,
Ay mənim mehriban qızım.

## BAĞIŞLAYA BILSƏNIZ

Şamil balam zəng etdi,
Məndən hal-əhval tutdu.
Dedi: ata necəsən?
Dedim: məni şad etdiz.
Camaat çörək tapmır,
Siz maşın alıb getdiz.
***
Dedi çox iş görmüşük?
Bir az hörmət etmişik.
Oğul var ata saymır,
Kefin əhvalın sormur.
Onun qeydinə qalmır.
***
Ata böyük yol keçmisən.
Ömrünü şam etmisən.
Bizi saf böyütmüsən,
Düz tərbiyə vermisən,
Bəs bizdən nə almısan?
***
Sən zarafat edirsən,
Mənə evlən deyirsən.
Sizi doğan ananı,
Özgə əvəz edərmi?
Tanrı razı qalarmı?
***
Qulaq asın nəsyətə,
Əməl edin vəsyətə.
Bağışlaya bilsəniz,
Bir deyib, bir gülsəniz,
Şad ollam dost olsanız.
***
Bacınızı yad edin,
Tez-tez evinə gedin.
Mən ölsəm əyilməyin.
Qızım qolun ağlasın,
Sizlər ona dəyməyin.
***
Əşir çox razı gedir,
Son anda dua edir.

Tanrı sizə yar olsun,
Qohum, dostlar var olsun.
Düşməniniz xar olsun,
Düşməniniz xar olsun.

## AYRILIQ

Əcəl gəlib haxladyıbdır,
Ömürüm çox laxlayıbdır.
Əcəl deyir ölməlisən,
Ürək deyir yaşa hələ.

***

Qürbət sizi necə aldı?
Azar məni tora saldı.
Bəz özünüz necə olduz?
Cənazəmi kimə qoyduz?

***

Cənazəmi qızım tutdu.
Göz torpağın özü atdı.
Qardaş deyib fəryad etdi,
Siz yetmədiz fəryadına.

***

Cənazəm çox ağır getdi,
Qohum-qardaş fəryad etdi.
Balalar çox uzaq getdi.
Qürbət mənə zülüm etdi.

***

Ayrılığın axrı yoxmuş
Onun dərdi yaman çoxmuş
Həsrət ölən ataların,
Göz yaşların sonu yoxmuş.

***

Qızım  yaman fikir edir.
Göz yaşları seltək gedir.
Deyir qardaşlar tez gəlin.
Atanı ziyarət edin.

***

Əşirdə heç dözüm yoxdur,
Bala məhəbbəti çoxdur.
Ayrılıq uzaq apardı,
Dartıb lap zorla qopardı.

## O, MƏNƏM

Şan şöhrəti bilinməyən,
Yaxşılığı görünməyən,
Talehi kür bəndə varsa,
Bil ki, o, mənəm dünyada.
***
Çörəyində düz olmayan,
Ocağında köz olmayan,
Bir talesizi görsəniz,
Bil ki, o mənəm dünyada.
***
Balında dad bilinməyən,
Xətir hörmət görüməyən,
Bir nuranini görsəniz,
Bil ki, o mənəm dünyada.
***
Dost tanışa sədaqəti,
Övlada xətir hörməti,
Bilinməyən bir kəs varsa,
Bil ki, o mənəm dünyada.
***
Etdiyi hörmət görünməz,
Səmimiyyəti bilinməz,
Bir sadə Məcnun görsəniz,
Bil ki, o, mənəm dünyada.
***
Hamıya hörmət edəndə,
Qazancı təhqir olanda,
Harda bir fağır görsəniz,
Bil ki, o, mənəm dünyada.
***
Övladları uzaq gedən,
Gecə-gündüz fikir edən,
Bir ağsaqqal görsəniz,
Bil ki, o, mənəm dünyada.
***
Əşir dediklərin düzdü,
Axı fikir səni üzdü.
Toxta özünü ələ al,
Ömür gəmisin yola sal.

## TEZ DANIŞ

*Nəvəm Samirə*

Samir bala, can bala,
Eşit bala, qan bala,
Baban yaman darıxır,
Tez danış, tez din, bala.

***

Boy-buxunda bir dənə,
Olubsan həmdəm mənə.
Rəhim elə bizlərə,
Tez danış, tez din, bala.

***

Çox həssas mehribansan,
Sən istəkli bir cansan.
Gözəllikdə də təksən,
Tez danış, tez din, bala.

***

Atanın fəxri bala,
Enli kürək, nər bala.
Gəl bizi məyus etmə,
Tez danış, tez din, bala.

***

Qurban kəsərəm sənə,
Əziyyət vermə mənə,
Ürəyə məlhəm bala
Tez danış, tez din, bala.

***

Əşir baban qocalıb,
Çox işdə geri qalıb.
Sən gəl məni duy, bala,
Tez danış, tez din, bala.

## ŞIRIN BALADIR

*Nəvəm Orxana*

Şamil Əşirin oğludur.
Orxan Şamilin noğludur.
Orxan Şamilin balası,
Mənim gözümün qarası.

***

Orxan nəvələrin tacı,
Gözüm gözlərinin acı.
Allah nəzərdə saxlasın,
Yaşı da yüzü haxlasın.

***

Orxan bir az avaradır.
Amma o, şirin baladır.
Avara bir zarafatdır.
Orxan balam gül nabatdır.
***
Üç bacıya bir qardaşdır,
Həm arxadır, həm sirdaşdır,
Allah amanda böyüsün,
Bacılar ona öyünsün.
***
Əşir on bir nəvən vardır,
Etdiyinsə ahu-zardır,
Dərd-qəmin aləmə cardır.
Səbrin olsun Allah yardır.

## KIŞI AĞLAMAZ

Şamil  balam dərdə dözə bilmir.
Gözlərini yoldan üzə bilmir.
Deyir mütləq qardaşım gələcək,
Mənim arxa köməyim olacaq.
***
Oğlum kənardan dözə bilmirsən,
Gözlərim o, körpələrə baxır.
Qəm-kədərim ürəyimə axır,
Sanki düşmən mənə güllə çaxır.
***
Heç vaxt aşkarda ağlamamışam
Hamı mənə daş ürəkli deyir.
Xəlvətdə günlərlə ağlamışam.
Sinə daşları şahidəm  deyir.
***
Kişinin yaşı ürəyə axar,
Düşmən ona yana-yana baxar.
Ağlasa hönkür-hönkür ağlayar,
Səsi düşmən ürəyin dağlayar.
***
Mənim belimi əyən ürəkdir,
Yenə də dərdə dözmək gərəkdir,
Bax sinəm deşik-deşik ələkdir,
Bu işləri də edən fələkdir.
***
Əşir «daş ürəy»in muma dönüb,
O, sərvi qamətin kaman olub.
Qəlbdə dərd kök salıb yaman olub,

Yenə səbir sənə guman olub.

## AY ÖVLADLARIM

Soruşdular övladların hardadır?
Dilim söz tutmadı, dinə bilmədim.
Şimalı göstərib dedim ordadır,
Qayıtmaq vaxtıdır, ay övladlarım.
***
Mənə qarşı gündə yüz sual doğur,
Sizsiz məni kədərli xiffət boğur,
Hər gün ürəyimdə yüz şübhə doğür,
Qayıtmaq vaxtıdır, ay övladlarım.
***
Burda sizin arxa, köməyiniz var,
Bəs qərib diyarda kimləriniz var?
Orda tapılandan burda da olar,
Qayıtmaq vaxtıdır, ay övladlarım.
***
Bir yolluq tərk edin qərib uzağı,
Hər kəsin evində yansın çırağı.
Bir də təzələyək  köhnə növrağı,
Qayıtmaq vaxtıdır, ay övladlarım.
***
Qayıtmaq haqqında çıxarın qərar,
Qoyun özlərinə qalsın o diyar,
O böyük Allah olar sizə yar,
Qayıtmaq vaxtıdır, ay övladlarım.
***
Əşirəm sizlərsiz mənim nə günüm,
Sizdən ilham alım, hey deyim-gülüm,
Hər dərdi-kədəri ürəkdən silim,
Qayıtmaq vaxtıdır, ay övladlarım.

## NAZ   BALALAR

Gülnar balam naz baladır.
Gülər üzlü saz baladır.
Xoşbəxt olsun gül baladır.
Altı nəvəm qız baladır.
***
Familə çox mətanətli,
Aygün möhkəm dözümlü,
Səbinə Əminə düzümlü,
Laləmiz bir tər çiçəkdir.

***

Necə gözəl qəşəngdilər.
Elə bil gül-çiçəkdilər.
Allah bəd-nəzərdən saxlasın
Yaşları yüzü haxlasın.

***

Atalar gözəl deyib,
Övlatda şirindir nəvə,
Dövlətdə şirindir dəvə.
Övlatdan şirindir nəvə.

***

Əşirə nəvədir əziz,
Gülüşləri coşqun dəniz.
Onlardı mənə oğul-qız
Sevirəm canımdan əziz.

## CAN QURBAN EDƏRƏM VƏFALI YARA

*Həyat yoldaşım Sərmayə xanıma*

Olarsa kişinin sevimli yarı,
Nə lazmdı dünya dövləti, varı?
Olmaz onun ürəyində qubarı,
Can qurban edərəm vəfalı yara.

***

Vəfalı yar uymaz dövlətə vara,
Yol verməz ürəkdə niskil qubara.
Dost aşnadan qoymaz qalasan dala.
Can qurban edərəm vəfalı yara.

***

Çətinə düşəndə dayağım olar,
O səni hamıdan ucada bilər,
Dərd onu əysə də təsəlli verər,
Can qurban edərəm vəfalı yara.

***

O dərdə dözməsə gizli ağlayar,
Ürəkdə niskili pünhan saxlayar,
Gecə də yüz dəfə səni yoxlayar,
Can qurban edərəm vəfalı yara.

***

Mənim dərdim qoşadır, vətən, oğul.
Hər ikisi də bir-birindən ağır,
Çaşanda zövcəm verir mənə ağıl,
Can qurban edərəm vəfalı yara.

***

Cavanlıq dözümüm qalmayıb daha,
Bəzi işlərdə qalmışam dala,
Mən meyil salmışam kədərə aha,
Can qurban edərəm vəfalı yara.

***

Gedib tayım tuşum mən tək qalmışam.
Körpə nəvələrə  çox meyil salmışam,
Təsəllimi öz zövcəmdən almışam,
Əşir can qurban et vəfalı yara.

## BƏŞIR MƏNƏ HƏM ATADIR, HƏM NƏVƏ

*Nəvəm Bəşirə*

Nəvəmə atamın adını qoydum.
Atam qayıtdı, mən atalı oldum.
Bununla həsrətin gözünü oydum.
Bəşir mənə həm atadır, həm nəvə.
***
Dördük çətin bizə düşmən bata,
Həm nəvə, baba, həm də oğul, ata
Arzumdur onun yaşı yüzə çata.
Bəşir mənə həm atadır, həm nəvə.
***
Vətən yolunda ayıq- sayıq dayan.
Düşmənə dəvə kinli, dosta həyan.
Deməsinlər lovğa, özünü öyən.
Bəşir mənə həm atadır, həm nəvə.
***
Sonu beş arşın bez hamı bükülür,
Alimdə, namərddə, mərddə bükülür.
Həyat budursa, niyə qan tökülür
Bəşir mənə həm atadır, həm nəvə.
***
Insan öz ömründə iz qoyub gedə.
O, heç kəsə gəlməyə hərbə, hədə.
Qoyma mərdə meydan oxuya gədə,
Bəşir mənə həm atadır, həm nəvə.
***
Eynşteyn ey böyük alim, ulu zəka,
Sən kəşf etdin aləm nura boyana.
Yoxsa bombalana həyat dayana?
Bəşir mənə həm atadır, həm nəvə.
***
Əşirəm istərəm millət oyana,
Yer üzündə sülh ola hərb dayana
Cahan qardaşlaşa, dostluq yarana
Bəşir mənə həm atadır, həm nəvə.

## SALMIR NƏZƏRDƏN

*Qızım Sevincə*

Sən dünyaya göz açanda çox sevindik
Ona görə biz adına Sevinc dedik.
Ilahinin verdiyinə şükür eylədik.
Sevinərək biz adına Sevinc dedik.
***
Dedilər ki, dörd qardaşa bir bacıdır.
Oğul ya qız, nə fərqi var baş ucaldır.
Sonra gördüm həm də başımın tacıdlır.
Sevinərək biz adına Sevinc dedik.
***
Indi Sevincmin cüt balası var,
Onları sevirəm həyatım qədər
Allahımız onlara daim olsun yar.
Sevinərək biz adına Sevinc dedik.
***
Qızım məni məhəbbətlə sevir əzəldən.
Heç vaxtı atasını salmır nəzərdən.
Mən də ona qoşuram şerdən, qəzəldən.
Sevinərək biz adına Sevinc dedik.
***
Əşir qocalığı heç almır boynuna,
Gələcəkdir, balalarının toyuna,
Nəticələrin də salacaq qoynuna
Sevinərək biz adına Sevinc dedik.

## ANALI GÜNLƏRIM YADIMA DÜŞÜR

Anam mənim daim görən gözümdür.
Bu dünyadakı xatirəm izimdir,
O, mənim mayağım, dan ulduzumdur,
Analı günlərim yadıma düşür.
***
Anam mənim həyata baxışımdır,
Gözəl, göyçəyim ilmə naxışımdır,
Xeyir duası yola çıxışımdır,
Analı günlərim yadıma düşür.
***
Anam mənim şer, nəğmə qəzəlimdiir,
O, mənim qəşəng, zərif, gözəlimdir.
Canım fəda, axırım, əzəlimdir.

Analı günlərim yadıma düşür.
***
Anam mənə həyat, qida, qan verib,
Daha doğrusu ürəklə, can verib,
Hanı  igidlər, vətən darda qalıb,
Analı günlərim yadıma düşür.
***
Arzumdur düşməndən vətəni almaq,
Doğmalarımla bir orada olmaq,
Qürbəti tərk edib, elimdə ölmək,
Analı günlərim yadıma düşür.
***
Əşir vətənsiz günün ahu-zardı.
Qərib geniş olsa da, yerin dardı,
Sənin gözəl Qubadlı elin vardı.
Analı günlərim yadıma düşür.
Analı günlərim yadıma düşür.

## ŞIRIN BACIM,  ŞƏKƏR BACIM

Anam düşəndə yadıma,
Bacım yetişir dadıma,
Anam qədər sevir məni,
Həmişə qalır qeydimə
Şirin bacım, şəkər bacım.
***
Çox istəyirəm xətrini,
Alıram ana ətrini,
Gözlərimdən duyur məni,
Fəxr edərək sayır məni,
Şirin bacım, şəkər bacım.
***
Ana plovu düşsə yadıma,
Gedirəm bacı evinə,
Plovu bişirir adıma,
Anamı salır yadıma
Şirin bacım, şəkər bacım.
***
Baş qoyuram dizi üstə,
Oxşayaraq öyür  məni,
Əgər dəcəllik eləsəm,
Gülə-gülə döyür məni,
Şirin bacım, şəkər bacım.
***

Bacımla mən görüşəndə,
Uzaqlaşır qəm, kədərim,
O, anamı əvəz edir,
Məndən qasçır dərdi sərim
Şirin bacım, şəkər bacım.

***

Əşir səni anan kimi,
Sevən əziz bacın varmış.
Heyif ki, ana məzarı,
Şərəfsiz düşmənə qalmış,
Şirin bacım, şəkər bacım.

# MƏHƏBBƏT  ŞERLƏRI

## NAZU-QƏMZƏSI CANIM ALIR

Bu gözəl mənə baxır,
Ürəyimi yandırıb yaxır.
Hara getsəm qarşıma çıxır,
Nazu-qəmzəsi canım alır.
***
Yar görüşünə qaçıb, gəlib,
Günəş kimi nur saçıb, gəlib.
O, ahu gözlüm mənə baxır,
Nazu-qəmzəsi canım alır.
***
Yar unutdurur dərdi, qəmi
Gözlərimdən silibdir nəmi.
Odur qəlbimin zili, bəmi,
Nazu qəmzəsi canım alır.
***
Toy paltarını biçib, gəlib,
Eşq badəsini içib, gəlib,
Yar görüşünə uçub, gəlib.
Nazu qəmzəsi canım alır.
***
Mən unutmuşam dərdi-qəmi,
Artıq yoxdur gözümün nəmi.
Mənə paxıllıq edir hamı,
Nazu qəmzəsi canım alır.
***
Sevgilim ay kimi nur saçıb,
Gözəl sinəni külək açıb.
O, qoşa nara əğyar baxır.
Nazu qəmzəsi canım alır.
***
Əşir qurbandır gözəl yara,
Afət dərdimə eylə çarə.
Busə ver səni sevən yara,
Nazu qəmzəsi canım alır.

## SƏN DƏ DÜŞÜRSƏN YADIMA

Bağda bülbül ötüşəndə,
Sevgililər görüşəndə.
Qucaqlaşıb öpüşəndə,
Sən də düşürsən yadıma.
***

Küsülülər barışanda,
Yar yarına qovuşanda.
Şirin-şirin danışanda,
Sən də düşürsən yadıma.
***
Mən canımdan bezəndə də,
Dərd-qəm məni üzəndə də,
Namə gələndə adıma,
Sən də düşürsən yadıma.
***
Yar yarını arıyanda,
Qara qızlar yarıyanda,
Tanrı yetəndə dadıma,
Sən də düşürsən yadıma.
***
Al yanaqlı qız görəndə,
Qəmli çalan saz görəndə,
Həsrətli göz görəndə,
Sən də düşürsən yadıma.
***
Haxdan əlim üzüləndə,
Yar gözləri süzüləndə,
Yar bağından nar üzəndə,
Sən də düşürsən yadıma.
***
Əşir canın qurban yara,
Gələ könlün yar ala.
Yananda eşqin oduna,
Sən də düşürsən yadıma.

## GÖZƏL, NAZ ETMƏ MƏNƏ

Sevgilimdən çay istədim,
Yanağından pay istədim.
O, çayları düzüb getdi,
Gözlərini süzüb getdi.
***
Qaş-göz edib, naz da satdı,
Müjdən oxun mənə atdı.
Dedim yarın alsın qadan,
Dedi: oğlan olsun həyan.
***
Dedim: qol salım boynuna,
Dedi: al məni qoynuna.

Dedim: qoru bunu xudam,
Dedi: alım sənin qadan.
***
Gəl Əşiri üzmə gözəl,
Qaş-gözünü süzmə gözəl.
Canım qurban olsun sənə,
Gözəl gəl naz etmə mənə.

## YUXUM ÇIN OLA

*zarafat*

Gecə yuxuda gördüm cavanlaşmışam,
Iyirmi bir yaşıma yeni girmişəm.
Evlənməliyəm həddi buluq olmuşam.
Pərvərdigarə kaş yuxum çin ola.
***
Süleyman mülkləri evimə daşınır,
Var-mülküm, cəh-cəlalım başımdan aşır.
Qul-qarabaşım əl-ayağa dolaşır,
Pərvərdigarə kaş yuxum çin ola.
***
Gözəllər də qarşımda səf-səf düzülüb.
Mən hey baxıram gözəllərin səfinə,
Gözəllər tərif deyir mənim şənimə,
Pərvərdigarə kaş yuxum çin ola.
***
Ev eşiyim tutulub ala qumaşa,
Baxanların az qalır gözü qamaşa.
Ləl-gövhər deyilir mənim hər sözümə,
Pərvərdigarə kaş yuxum çin ola.
***
Azar, qəm-qüssə kədər uzağa qaçır,
Həmişə evimdə ay, günəş nur saçır.
Mənə hörmət edir, şair, alim, tacir.
Pərvərdigarə kaş yuxum çin ola.
***
Əşirəm dediklərim həqiqət ola,
Dərd qəm yerinə ürəyə sevinc dola,
Vətən azad ola taleyimiz gülə.
Pərvərdigarə kaş yuxum çin ola.

## MƏNIM OLACAQSAN AXIR ƏZƏL

Bulud altdan çıxan gün kimi,
Məni yandırıb yaxırsan gözəl.
Mən adına yazıram şer, qəzəl
Sənsə mənə heç vermirsən məhəl.
***
Sən də sevirsən mən sevən kimi,
Eşqdə xamsan bilmirsən him-cimi.
Vermə mənə Leyli-Məcnun zülmü.
Səni kim sevər mənim tək gözəl?
Mənim olacaqsan axır əzəl.
***
Sevgilim sən mənə naz satırsan.
Zülfün hörübən dala atırsan.
Sinən üstə bənövşə əkirsən,
Mənə belə zülm etmə gözəl.
Mənim olacaqsan axır əzəl.
***
Əşir səni sevir lap əzəldən,
Gəl sən də onu salma nəzərdən.
Keçə bilmirəm sən tək gözəldən,
Mənə şer, qoşmasan, həm də qəzəl,
Mənim olacaqsan axır əzəl.

## BU SEVGIDI, NƏDI

Göz-gözə gələndə itirirəm özümü,
Sən də mənə baxıb süzdürürsən gözünü,
Dinib danışmırsan od salırsan canıma,
Məni öldürürsən heç yanmırsan halıma,
Başa düşə bilmirəm bu sevgidi, nədi.
***
Səni görcək ağlım gedir oluram zayıl.
Al yanağından pay versən olaram qayıl.
Görürəm ki, səndə itirirsən özünü,
Hey danışırsan, amma bilmirsən sözünü.
Başa düşə bilmirəm bu sevgidi, nədi.
***
Yarım atəşilə məni yandırıb yaxır,
Müjdə oxun ürəyimə çaxır, hey çaxır.
Görüşə gəlmir məni eşq oduna yaxır,
Yar baxıb gülür sanki məndən acıq çıxır.
Başa düşə bilmirəm bu sevgidi, nədi.

***
Əşirəm yarımı hər gün görmək istərəm.
Qucağında mürgüləyib ölmək istərəm.
Atəşində yanıb külə dönmək istərəm,
Sevən insanlar heç zaman bilməzlər həddi,
Başa düşə bilmirəm bu sevgidi, nədi

## HANI MƏNIM ƏZƏL DÜNYAM

Əzəl dünyamı görmək istərəm,
Necə oldu mənim əzəl dünyam?
Gedib o yerdə ölmək istərəm,
Harda qaldı mənim əzəl dünyam?
Həm qoşma, şer, həm də də qəzəl dünyam.
***
Yarım vəfalıdır özüm kimi,
Mənə şirin idi sözün kimi.
Onu sevirdim mən gözüm kimi,
Harda qaldı mənim əzəl dünyam?
Həm qoşma, şer, həm də qəzəl dünyam.
***
Aslanlar tülküyə tay olublar,
Ağanı nökərə dəyişiblər.
Güllər tikan tək baş qaldırıblar
Harda qaldı mənim əzəl dünyam?
Həm qoşma, şer, həm də qəzəl dünyam.
***
Sözə kişi tək əməl edərdik,
Dost yolunda ölümə gedərdik.
Öləndə kişi kimi ölərdik.
Harda qaldı mənim əzəl dünyam?
Həm qoşma, şer, həm də qəzəl dünyam.
***
Əşirəm, hazaram bu dünyadan,
Hər şeydən bezaram bu dünyadan.
Dərdimi yazaram bu dünyadan,
Harda qaldı mənim əzəl dünyam?
Həm qoşma, şer, həmdə qəzəl dünyam.

## YAR GÖRÜŞƏ QAÇIB GƏLDI

Mən yarıma nə etmişəm?
Yarım məndən uzaq gəzir.
Ayaq yalın başı açıq,
Üz gözünü sazaq kəsir.

***

Dodaqları beçə balı,
Mən onlardan pay istədim.
Yar qıyğacı baxıb getdi
Canım oda yaxıb getdi.

***

Yar görüşə qaçıb gəldi,
Könül qapım açıb gəldi.
Ürəyimi alıb getdi,
Boynuma qol salıb getdi.

***

Əşir sənə yarım deyir,
Günəşim, həm ayım deyir.
Dodağına balım deyir,
Sənə qurban canım deyir.

## ƏZƏL MƏHƏBBƏTIM HEY DÜŞÜR YADA

Məhəbbət olmasa həyat dayanar,
Yer orbitdən çıxar dünya dağılar.
Havada çatmaz, canlılar boğular
Ürəksiz-gərəksiz insan doğular
Əzəl məhəbbətim hey düşür yada.

***

Mən onu sevmişdim ilk bahar çağı
Görüşümüz oldu düz gecə yarı.
And içdik pozmayaq əhdi-ilqarı,
Bir müddət çox gözəl sürdük dövranı.
Əzəl məhəbbətim hey düşür yada.

***

Sonralar sevgilim uydu şöhrətə,
Pozdu ilk andını kasıbam deyə.
Qoşulub yadelli varlı tacirə,
Onunla birlikdə getdi xaricə.
Əzəl məhəbbətim hey düşür yada.

***

Vəfasız yarım məni pula satdı.
Tacir isə onu iylədi atdı.
Etibarsız yarım səhvin anladı,

Peşman olub özün yaman danladı.
Əzəl məhəbbətim hey düşür yada.
***
Qürbət eldə qaldı yalqız, kimsəsiz,
Yandı külə döndü odsuz və gözsüz.
Dönük yarım dünyadan əlin üzdü,
Həyatda sərkəndər, kor-peşman gəzdi.
Əzəl məhəbbətim hey düşür yada.
***
Əşir vəfalıdır ilk məhəbbətə
Inanmıram onu unuda, ata.
Lap yaşı doxsana, yüzə də çata
Çətin ki, ilk eşqin yadlara sata
Əzəl məhəbbətim hey düşür yada

## ATDI MƏNI

Bir gözələ könül verdim,
Tez iyləyib atdı məni.
Gördü yoxdur varım mülküm
Bir əğyara satdı məni.
***
Dedim vəfan yoxmuş gözəl,
Dedi oxuma mənə qəzəl.
Mən səni sevirdim əzəl,
Sonra pula saldım nəzər.
***
Sevgini pula satanlar,
Arı yeyib, namusu atanlar,
Həyatı kefdə görənlər,
Yox ola gedə dünyadan.
***
Sən vəfasız olma gözəl,
Həcər adına sal nəzər
Yarı üçün özün üzər,
Dağı, daşı, aşıb gəzər.
***
Vəfalı yar neynər varı?
O, istəyər ancaq yarı.
Yara qurban edər canı.
Heç istəməz dünya malı.
***
Əşir sev vəfalı yarı,
Ona qurban elə canı.

Mənim yarıma tay hanı?
Ona qurban yarın canı.

## DÜNYA XANIM

*«Itgin gəlin» romanındakı Nəcməddin*
*və Dünya xanıma həsr edirəm.*

Mən pərvanə sənsə ağ şam,
Etibarına inanıb,
Yanıram şamda hər axşam.
Yoxmuş vəfan Dünya xanım.
***
Səni çirkabdan çıxarıb,
Mən elədim ev xanımı.
Sən asan aldın canımı,
Yoxmuş vəfan Dünya xanım.
***
Iblismişsən mələk donlu,
Nəcmi çox sevərdi səni.
Sən niyə alçaltdın onu?
Yoxmuş vəfan Dünya xanım.
***
Nəcmi dünyasın görəydi,
Onunla birgə öləydi.
Gözəldə vəfa olaydı?
Yoxmuş vəfan Dünya xanım.
***
Yarım padşah Nəcməddini,
Niyə nökərə dəyişdin?
Bilmədim sənin həcmini,
Yoxmuş vəfan Dünya xanım.

## VƏFALI YARIM

Aradan aylar illər də keçsə,
Unutmaq olmur ilk məhəbbəti.
Həmişə eşq oduna yanıram,
Onu daim yanımda sanıram,
Unudulmur hey onu anıram.
***
Yarımı oda-kozə atdılar,
Daş-qaşa, mala-pula satdılar.
Yarım ağladı, onlar güldülər,

Sevmədiyinə zorla verdilər.
Ilk sevgimizi daşa vurdular.
***
Bu gün təsadüfən onu gördüm,
Görüşdük özümü xoşbəxt sandım.
Ağladı dedi: günüm qaradır,
Sənsiz mənim ürəyim yaradır.
Bizim sevgimiz uçmaz qaladır.
***
Əşir sən çox gedirsən dərinə,
Sevgilin nifrət edir ərinə.
Yaş keçib çox çəkməyin zilinə,
Hər kəs getsin öz dərdi sərinə,
Ilk məhəbbəti atın dərinə.

## SELLƏR OYNADI

Bu gecə yuxumda yar səni gördüm,
Danışdı dodaqlar, dillər oynadı.
Yenə təzələndi o, köhnə dərdim,
Bağrımın başında millər oynadı.
***
Dümağ geyinmişdin başdan ayağa,
Məni görcək sərsəm durdun ayağa.
Oyandım yuxudan yoxsan yanımda,
Daşdandı gözümdən sellər oynadı.
***
Mənə baxıb məlul məşğul durmuşdun,
Ac maral kimi boynun burmuşdun.
Mən baxdım sənə ürəyim göynədi,
Sanki gözlərimdə şimşək oynadı.
***
Əşir qocalmısan keçibdir yaşın,
Tökülüb dişlərin, ağarıb başın.
Gəl sən at ilk məhəbbətin daşın,
Öz dərdi-sərinə qarışsın başın.

## YARIM KÜSÜB MƏNDƏN

Ahu baxışlı yarım küsüb məndən,
Heç mənə yaxın gəlmir, gəzir gendən.
Mən heç vaxt əl çəkmərəm səndən,
Səni sevən yarı salma nəzərdən.
***

Mərdimazar bizim aranı qatdı,
Məzlum yarım inanıb məni atdı.
Onu sevən yarı əğ yara satdı,
Məndə tufan, boran, vulkan oyatdı.
***
Yarım sevə bilmədi o əğyarı,
Eşq odunda alışıb yandı bağrı.
Yazıq yarım gecə-gündüz ağladı,
Könlün qəmə, ahu-zara bağladı.
***
Əşir yarın peşmandır atma, onu,
Daim qan-yaş tökür az danla, onu.
Al yarın könlün çatıb ömrün sonu,
Qol sal boynuna, qoy açılsın könlü.

## ILK MƏHƏBBƏT ÖLMÜR

Məhəbbət ölmür həmişə yaşardı,
Sevinci az, dərdi başdan aşardı.
Sevgilim görüşə lal-dinməz gələr,
Gözləri yaş tökər, ürəyi gülər,
Məhəbbətsiz dünya uçar tökülər.
***
Yarım vermə mənə əzab təzədən,
Əl çək belə işvə-nazdan, məzədən.
Baş ağarıb ora salma təzə dən,
Sənsiz qəlbim vivan olar sökülər,
Məhəbbətsiz dünya uçar tökülər.
***
Öz dərdim bəsdir mənə dərd yükləmə,
Görüşəndə əsmə, coşma, kükrəmə.
Sənin dərdin də yüklənib sinəmə,
Ömür xəzan olar, solar, sökülər,
Məhəbbətsiz dünya uçar tökülər.
***
Əşir sənin dərdin hamıdan çoxdur,
Ilk məhəbbətin sinəndə bir oxdur.
Sevgilinin ürəyi qan-yaş tökür,
Ömür bağı viran olur sökülür,
Məhəbbətsiz dünya uçar tökülür.

## QAÇQIN GÖZƏLLƏR

Deyib gülmür qaçqın gözəllər,
Onlar şən idilər əzəllər.
Qürbət eldə onlar üzülür,
Hey gözlərindən yaş süzülür.
***
Məhəbbəti atıblar çaya,
Sevənləri salmırlar saya.
Yas tuturlar yara, ataya,
Qurbanam belə etibara.
***
Vəfalı qız sevər bir dəfə,
Sadiqdirlər ilk məhəbbətə.
Ilk oxun dəymirsə hədəfə,
Bu bəsdir qanan sərrafa.
***
Əşir qurban el gözəlinə,
Əsl Nigarına, Həcərinə.
Düşmən edilir əsir-yesir,
Ana Tomris kimi baş kəsir.

## ÇATAQ ARZU KAMA

Çoxlu ağladıq daha bəsdi,
Qəm, qüssə ömrümüzü kəsdi.
Dostlar indi də deyək, gülək,
Ürəkdən qəm, qüssəni silək.
***
Biz məclis qurub kef də edək,
Vəfalı yara tərif deyək.
Baxaq gözəllərin səfinə,
Biz də çataq arzu kamına.
***
Toya, büsata, bara gedək,
Qurban vəfalı yara deyək.
Qəmdən, qüssədən söz açmayaq,
Kefdən damaqdan göz açmayaq.
***
Əşir, sözün cəfəngiyatdı,
Kədərdən ömrün sona çatdı.
At kef, damağı yapış dərddən,
Sən ağu de, özünə pəsdən.

## YARIN OLSUN SƏNƏ SƏDAĞA

Laləyə bənzər yanaqların,
Beçə balıdır dodaqların,
Görənlər olur sənə heyran,
Yarın olsun boyuna  qurban,
Mənə çox qoyursan qadağa,
Yarın olsun sənə sədağa.
***
Sinən meydan buxağın qardı,
Məni  öldürən qoşa nardı.
Sən düyməlә, yaxanı yarım,
Əğyar görərsə, ölə rcanım,
Mənə çox qoyursan qadağa,
Yarın olsun sənə sədağa.
***
Əşir səni sevir əzəldən,
Heç keçərmi sən tək gözəldən.
Gəl sən yarına baxma yandın,
Keçərəm mən yolunda candan,
Mənə çox qoyursan qadağa,
Yarın olsun sənə sədağa.

## ŞAM YANMIRSA YAŞAMIR DEMƏK

Yarım günəş, mən onun peyki yerəm,
Gecə-gündüz başına fırlanıram.
Fırlandıqca yarımdan nur alıram,
Pərvanə tək eşq oduna yanıram.
***
Eşq atəşin məni yandırıb yaxır,
Mən yandıqca aləm nura boyanır.
Günəş yerin eşqindən alışıb yanır,
O yandıqca  yerdə həyat yaranır.
***
Dolansam da yarımın başına,
Əlim yetmir, yanıram atəşinə.
Hər ikimiz  eşq odunda yanırıq,
Biz də belə arzu kama çatırıq.
***
Əşir yara yaxınlaşma  yanarsan,
Eşq odunda yanıb külə dönərsən.
Sənin yaşamağın yanmağındadır.
Əgər  şam yanmırsa, yaşamır demək.

# MÜXTƏLIF MƏZMUNLU ŞERLƏR

## VƏTƏN GEDIB, BƏS NƏ QALIBDIR

Ilahi xoşbəxt idim bir vaxtlar məndə,
Yaşayırdım səfalı vətəndə, eldə.
Qəm-qüssə, kədər, məndən gəzərdi gendə.
Çox xoşbəbxt idim daim gedərdim öndə.

***

Küsəndə Lalə, Nərgiz könlüm alardı,
Həkərim, Bərgüşadım layla çalardı.
Həmişə nəğmə, şənlik, büsat olardı,
Mənim qəlbim fərəh, sevinclə dolardı.

***

Indi dərd  kədər məndə yuva salıbdır,
Səbri-qərarımı əlimdən albdır.
El, oba, vətən gedib bəs nə qalıbdır?
Yazıq canım yaşamaqdan usanıbdır.

***

Vətən, oğul dərdlərin çəkə bilmirəm,
Allah mən niyə yaşayıram ölmürəm,
Hələ ki, bu kədərin sonun görmürəm.
Gecə-gündüz ağlayıram heç ölmürəm.

***

Əşir dərd əlindən çox uzaq gedirsən,
Həmişə zarıyırsan, ah vay edirsən,
Ürəyə dərd yığıb sevinci atırsan,
Harda dərdli görsən tez onu tapırsan

## QOCALIQ

Dağ başını duman, çən alan kimi,
Üstümü qocalıq alıbdır mənim,
Gəncliyin sevdası ötdü quş kimi
Başımın üstünü kəsib qocalıq.

***

Öpmürəm mən üzdən, gözdən, dodaqdan,
Pay ummuram daha üzdən, buxaqdan,
Gözəllərə baxıram künc, bucaqdan
Küsmüşəm istəmirəm pay yanaqdan.

***

Işvə nazlı gözəlləri görəndə,
Cavanlar qarşımda özün öyəndə,
Yaman pərişan olur halım mənim,
Yoxdur göz yaşımı silənim mənim.

***

Əşir qocalıq qoymadı səndə hal,
Gözəldən pay umma öz qeydinə qal,
Hərdən cavanlığı da yadına sal
Sən ancaq xatirələrdən ləzzət al.

## GƏZƏK QUBADLIDA

Tanrımız möcüzə göstərə,
Biz gedib gəzək Qubadlıda,
Düşək elimizin izinə,
Gedib çıxaq yazı düzünə.

***

Gəzək dağları, oylaqları,
Süzək çayları, bulaqları,
Buz bulaqların suyundan içək,
Qoşa çayların üzüb keçək.

***

Çay zəmidə biz məclis quraq,
Kəndlərimizdə qonaq qalaq.
Çıxaq Qubadlının qaşına,
Baxaq torpağına, daşına.

***

Əşir arzuların çin ola,
Düşmən basıla, üzün gülə.
Gedək qəhrəmanlar yurduna,
Yetək ocağna oduna.

## PIS IŞLƏRDƏ SINAMASIN BIZLƏRI

Dünya fani, insan onda qonaqdı,
Dünya yaranandan ölüm də haqdı,
Cavan ikən aparanda nahaqdı,
Pis işlərdə sınamasın bizləri.
***
Yaxşı işlər tutmaq gərək dünyada,
Yaxşı iş görənlər yanmazlar oda.
Naqis işlər hörmət gətirməz ada,
Pis işlərdə sınamasın bizləri.
***
Vaxtsız ölüm heç qapını döyməsin,
Xudam görüm quluna da qıymasın,
Yaxşı işlə insanları sınasın,
Pis işlərdə sınamasın bizləri.
***
Dost olmağa yaxşı kişi gərəkdir,
Mənim dostum Bəhram kişi nəhəngdir.
Sınaqdan keçibdi, dostluqda təkdir,
Pis işlərdə sınamasın bizləri.
***
Mən Əşirəm yaxşı işlər görmüşəm,
Tikanlı sözlərdən uzaq gəzmişəm,
Yaxşılıq etmişəm, hörmət görmüşəm,
Pis işlərdə sınamasın bizləri.

## NƏ DEYƏSƏN BELƏ DÜNYAYA?

Oğru, quldur çəkilir başa,
Mərd insanlar tutulur daşa,
Başıboşlar olublar ağa,
Nə deyəsən belə dünyaya?
***
Pul görsə qanun qaçır dala,
Yaltaq-satqın öyrənib yala,
Aqil, alim möhtacdır şora,
Nə deyəsən belə dünyaya?
***
Yalan, kələk baş alıb gedir,
Yaltaq yeyib-içib fors edir.
Baş bilən çəkilmir araya,
Nə deyəsən belə dünyaya?
***

Gözəllər təhqir olur alçalır,
Ehtiyacdan pula satılır.
Yox olur namus, qeyrət, həya,
Nə deyəsən belə dünyaya?
***
Rüşvət qabaq sırada gedir,
Azğın məmur bildiyin edir.
Heç kimi də salmırlar saya,
Nə deyəsən belə dünyaya?
***
Torpaq unudulub, alanı yoxdur,
Tox az, ac-yalavacsa çoxdur.
Düşmən köçür bizim dağlara
Nə deyəsən belə dünyaya?
***
Inanmıram dünya düzələ,
Qurban olum qaçqın gözələ.
Göz yaşım dönüb selə, suya,
Nə deyəsən belə dünyaya?
***
Əşir toxta üzmə özünü,
Ağlama kor etmə gözünü.
Şair, alim salınmır saya,
Nə deyəsən belə dünyaya?

## ÜRƏKLƏ SÖHBƏT

Ürəklə mən yol gedirdim,
Dedi: ki, mən dayanıram.
Çəkə bilmirəm bu yükü,
Bəsdir dedi: dayanıram.
***
Dedim: qoşa dolanmışıq,
Bir alışıb, bir yanmışıq.
Yuxudan bir oyanmışıq,
Bəsdir dedi: dayanıram.
***
Dedim: niyə incimisən?
Dedi: məni yükləyibsən.
Dedim: gəl ol mənə həmdəm,
Bəsdir dedi: dayanıram.
***
Dedi:  hər an ağlayıbsan,
Hey məni sən dağlayıbsan,

Dedim: bəlkə yaşayasan,
Bəsdir dedi: dayanıram.
***
Dedim: bəlkə ac qalırsan,
Dedi: yaman az qanırsan,
Dedim: qulluq edim candan,
Bəsdir dedi: dayanıram.
***
Əşir səndən aman istər,
Dedi: gəl yalvarma yetər,
Ürək inciyəndə bezər,
Bəsdir dedi: dayanıram.

## DƏRDIMI SUYA SÖYLƏDIM

Bəzən dərd qəmdən bezir insan,
Ağlayıb özün üzür insan.
Halbuki sevinib gülməyi,
Əzablardan öyrənir insan.
***
Əgər özün yıxılsan, dursan,
Sən həyatı gözəl duyarsan.
Əgər ağlamağı bacarsan,
Sevinib gülə də bilərsən.
***
Özgə əzabı çatmaz sənə,
O əzabı özün yaşa sən.
Birini sən yıxılan görsən,
Həyat acısını duyarsan.
***
Əşirəm çox yıxılıb durdum.
Ağlamaqdan gülmək öyrəndim.
Ürəyi göynədən dərdimi,
Çayda axar suya söylədim.

## UZAQ OLDU

Bu dünyanın dərd-qəmini,
Ürəyinə yük eləmə,
Nə qismətdir o olacaq,
Əlavə bir şey diləmə
***

Kişilikdən dəm vuranlar,
Kişi kimi yaşamadı.
Insanlıqla bir araya,
Sığmadı namərdin adı.
***
Halal çörək baş ucaldır,
Çalış buna  əməl elə.
Haramlıqla dolananın,
Gəzər adı dildən-dilə.
***
Məsləhəti aqildən al,
El-obanın qeydinə qall.
Pis adamdan uzaq dolan,
Qıl körpünü yadına sal.
***
Əşir yoxsul da dolandı,
Heç kimə də əl açmadı,
Yaxşı işlə məşğul oldu
Pis əməldən uzaq oldu.

## EV  OĞRUSU

Adamlara hiylə qurur,
Asanlıqla zərbə vurur,
Lazım gəlsə üzə durur,
Dəhşətlidir ev oğrusu.
***
Tülkü kimi hiyləgərdir,
Iblis kimi cadugərdir.
Yalan  ona düz qədərdir,
Dəhşətlidir ev oğrusu.
***
Düz işlərdən o, dəm vurar,
Fırıldağı başdan qurar.
Ondan–bundan xəbər tutar,
Dəhşətlidir ev oğrusu.
***
Sözü şirin, özü acı,
Adama baxar qıyqacı.
Sonra gülər acı-acı,
Dəhşətlidir ev oğrusu.
***
Başın hər an  uca tutar,
Asanlıqla pul qoparar.

Imkan olsa ev də yarar,
Dəhşətlidir ev oğrusu.
***
Aralığa nifaq salar,
Asanlıqla iş sahmanlar,
Öz  işindən razı qalar,
Dəhşətlidir ev oğrusu.
***
Gec tanıdıq «heyif» onu,
Hərdən geyər mələk donu,
Çatar bir gün işin sonu,
Dəhşətlidir ev oğrusu.
***
Gecə-gündüz çöldə yatar,
Mayasına haram qatar,
Üç qəpiyə adam satar,
Dəhşətlidir ev oğrusu.
***
Ona-buna qurar hiylə,
Dara düşsə çəkər zilə.
And da tutmur görən niyə?
Dəhşətlidir ev oğrusu.
***
Bir andaca iş yaradır,
Ona-buna nömrə atır.
Görəndə ki, tamah batır,
Dəhşətlidir ev oğrusu.
***
Qardaşı bacıdan edir,
Fırıldağı qırx gün gedir.
Iş tutmasa haray edir,
Dəhşətlidir ev oğrusu.
***
Küpəgirən qarı belə,
Mat qalıbdır əməlinə.
Salmaz özün dilə-dişə,
Dəhşətlidir ev oğrusu.
***
Bilmirsən iblis, şeytandı,
Nifaq salmaqda bir candı.
Topladığı irin-qandı,
Dəhşətlidir ev oğrusu.
***
Heç kəs ondan şübhələnmir,
Nə etdiyin özü bilmir.

Etdiyin hesabdan silir,
Dəhşətlidir ev oğrusu.
***
Axır  bir gün tora düşər,
Əməlləri sona yetər.
Allah bizə kömək edər,
Dəhşətlidir ev oğrusu.
***
Çox evləri dağıdıbdır,
Çoxun çöllərə salıbdır,
Birindən də beh alıbdır,
Dəhşətlidir ev oğrusu.
***
Qəzəbə də düçar olsa,
Inanırlar o, nə desə.
Fərq qoymaz yaxşıya-pisə,
Dəhşətlidir ev oğrusu.
***
Oğurluqda itə bənzər,
Can yeməkdə bitə bənzər.
Insanlar nə qədər dözər?
Dəhşətlidir ev oğrusu.
***
Sirri özünə pünhandır,
Başqasına çox əyandır,
Adı isə Dilarədir,
Dəhşətlidir ev oğrusu.
***
Fırıldağı saya gəlmir,
Nə düşünür heç kəs bilmir.
Hamı bir ağızdan deyir,
Dəhşətlidir ev oğrusu.
***
Çoxu inanırlar sənə,
Pərəstiş edir kölgənə,
Sənsə sürünə-sürünə,
Dəhşətlidir ev oğrusu.
***
Uçruma gedir ailən,
Sənsə bunla fəxr edirsən,
Əlli-ayaqlı gedərsən,
Dəhşətlisən ev oğrusu.
***
Fikrin düşüncən yalandı,
Səndən çoxları talandı,

Bil ki, yaxşılıq qalandı,
Dəhşətlidir ev oğrusu.
***
Etibara təpik atma,
Çörəyinə haram qatma.
Beş qəpiyə adam satma,
Dəhşətlisən ev oğrusu.
***
Cinayətin yoxdur sonu,
Gəl aldatma onu-bunu,
Geyinmə sən iblis donu,
Dəhşətlisən ev oğrusu.
***
Zərbə vurma kürəklərə,
Nifaq salma ürəklərə.
Haram qatma diləklərə,
Dəhşətlisən ev oğrusu.
***
Dilarədir onun adı,
Tanımır qohumu-yadı.
Bilinməz adı, soyadı,
Dəhşətlidir ev oğrusu.
***
Sən özünə quyu qazdın,
Billə-bilə yolun azdın,
Əməlinə hökүm yazdın,
Dəhşətlisən ev oğrusu.
***
Əməlinlə evin yıxdın,
Axırına özün çıxdın.
Uçdu sənin tacın-taxdın,
Dəhşətlisən ev oğrusu.
***
Saxta sənəd əlindədir,
Bol yalanlar dilindədir.
Əyri bitən belindədir,
Dəhşətlisən ev oğrusu.
***
Yalanları qatar-qarar,
Tora düşən edər hazar,
Lazım gəlsə adam satar,
Dəhşətlidir ev oğrusu.
***
Şirin dildə bir dənəsən,
Inanırlar yalan desən.

Mələk donuna girmisən,
Dəhşətlisən ev oğrusu.
***
Kimi desən aldadırsan,
Sinəsinə od vurursan.
Evsiz-eşiksiz qoyursan,
Dəhşətlisən ev oğrusu.
***
Dillənəndə can demişik,
Tonlarla çörək yemişik.
Biz əhdə peyman demişik,
Dəhşətlisən ev oğrusu.
***
Əməlinə dözmür ürək,
Bütün işin-gücün kələk.
Görüm tutsun səni çörək,
Dəhşətlisən ev oğrusu.
***
«Dost» Əşiri də aldatdın,
Ona da bir qədər atdın.
Yamanca günaha batdın,
Dəhşətlisən ev oğrusu.

## NANKOR QAYNATA

Ismətli gəlinin ağzına söymə,
Allaha xoş getməz, xeyir tapmazsan.
Gəlində bir qızın, sən onu döymə,
Allaha xoş getməz, çörək tapmazsan.
***
Gəlini qız gözündə görsən əgər,
Ata tək sevməyə sənə meyl edər.
Gecə-gündüz bil ki, sənə can deyər,
Allaha xoş gedər, çörək taparsan.
***
Xəbis rəftar zəhər qatar aşına,
Pis əməllər gələr sənin başına.
Xəlvət düşsə bir daş salar başına,
Allahdan qorx, çəkil otur yerində.
***
Gəlinin ağzına söyən qaynata,
Nə arzuya çata, nə kama yetə.
Yaxşı rəftar göstər desinlər ata,
Yaxşı rəftar sənə hörmət gətirər.

***
Pis qaynata yaşamasın dünyada,
Salmasın özünü heç zaman oda.
Övlada olmasa  o, yaxşı ata,
Allaha xoş getməz o,  çörək tapmaz.
***
Əşirəm gəlinə mən qız demişəm,
Həmişə sözümün yerin bilmişəm.
Gəlinə  can deyib,  can eşitmişəm,
Sən də bu yolla get, nankor qaynata.

## BILMƏYƏNLƏR   BILMƏSINLƏR

Dosta  sədaqəti
Övlada hörmət, izzəti,
Lakin qədri-qiyməti,
Bilinməyən bir kəs varsa,
O, mənəm.
***
Insanlara hörməti,
Məhəbbəti,
Bilinməyən bir kəs varsa,
O, mənəm.
***
Çörəyinin duzuna,
Ocağının közünə,
Qiymət qoulmayan,
Bir kəs varsa,
O, mənəm.
***
Yıxılanı qaldıran,
Çox ocaqlar yandıran,
Lakin qədri blinməyən,
Bir kəs varsa,
O, mənəm.
***
Qoy mən edim bilinməsin,
Qoy hamı mənə  pis desin,
Əşir, sən et izin qalsın,
Bilinməyir, bilinməsin.

## DIĞALARIN BURNUN OVAQ

*Şair Elbrus Qayalıya*

Çox dərdli yazırsan,
Elbrus Qayalı
Aləmə salmısan
Səsi harayı,
Yerin qəlbidir,
Çağır gəlsin,
Qubadlı yazarları.
Dığaların burnun ovaq,
Yurdumuzdan qovaq.
***
Qubadlı yazarları,
Səf-səf düzülsün.
Baba Süleyman,
Komandan olsun.
Dığaların burnun ovaq,
Yurdumuzdan qovaq.
***
Hanı Eldar Baxış?
Şerimizə vura naxış.
Geridə qalan,
Hampadan, keşişdən
Güc alan,
Dığaların burnun ovaq,
Yurdumuzdan qovaq.
***
Əliağa Aslan,
Çox sızlayıb ağlama.
Ağladıqca ürəyimi,
Çalın-çarpaz dağlama
Hanı yurdumun pəhləvanları
Bahadırı, Əlyarı, Həzisi?
Dığaların burnun ovaq
Yurdumuzdan qovaq.
***
Əzizim Taryel Cahangir,
Qələminlə cəngi çal.
Topla qəhrəmanları.
Dığaların burnun ovaq
Yurdumuzdan qovaq.
***
Süleyman yadigarı
Şamo Arif,

Oyat xalqı
Qılınc çalaq,
Dığaların burnun ovaq,
Yurdumuzdan qovaq,
***
Kamran müəllim,
Ağsaqqalmız, əzizimiz,
Iki gözümüz,
Qanun yazsın.
Haqqı tələb etsin
Qoşun yığaq,
Hücum edək.
Dığaların burnun ovaq,
Yurdumuzdan qovaq.
***
Harda qaldı
Nəbi, Həcər?
Yəqin Irana keçər.
Yığsınlar türk ordusun
Şir biləkli,
Qurd ordusun.
Nəbi, Həcər
Versin əmr.
Dığaları qovaq yurddan.
Təmizləyək yurdumuzu,
Alovdan oddan.
***
Famil Süleymanov
Hacı Mirhəsən Hadi,
Yaşar Fətiyev,
Nəsib Nikbin,
Elbrus Şahmarın,
Həkərisi, Bərgüşadı,
Aşıb, daşır,
Aləmi dolaşır.
Aləmə səs salın,
Vətən oğulları
Ayağa qalxsın.
Dığaların burnun ovaq,
Yurdumuzdan qovaq.
***
Almaz Əhmədova,
Əziz bacım,
Vətəndə qərib bacım.
Hanı sənin Xallavan?

Ziyəddin Sultanov,
Mirzə Mehdi,
Bəşir oğlu Əşir,
Salın aləmə,
Haray həşir,
Yığın igidləri.
Vuruşaq, döyüşək,
Dığaların burnun ovaq,
Yurdumuzdan qovaq.

***

Vaxtı ilə iki dövləti
Iranı, çarı
Lərzəyə salan
Nəbi, Həcər, nəvələri,
Ayağa qalxın,
Yığın türk ordusun,
Şir biləkli qurd ordusun.
Hücüm edək yurdu alaq.
Dığaların burnun ovaq,
Yurdumuzdan qovaq.
Qələbə çalaq, yurda dönək,
Vətənə qovuşaq,
Arzuya çataq

## QƏLƏBƏ ÇALAQ

Vaxtı ilə
Keçəl Həmzə
Aldatdı Qoç Koroğlunu,
Atını apardı,
Atsız qoydu,
Qolsuz, qanadsız qoydu,
Elin zor oğlunu.
Qoç Koroğlu,
Atını aldı.
Işlərini
Sahmana saldı.
Ancaq səhv etdi
Qoç Koroğlu,
Elin zor oğlu.
Öldürmədi Keçəl Həmzəni
Mənliyinə sığışdırmadı
Onu öldürməyi,
Keçəl Həmzəni səviyyəsiz,

Lazımsız, gərəksiz,
Qiymətsiz saydı,
Qoç Koroğlu,
Elin zor oğlu.
Keçəl Həmzələr
Geydi iblis donu.
Qatdı, qarışdırdı,
Milləti bir-biri ilə
Dalaşdırdı, vuruşdurdu.
Aranı çox qatdı.
Axırda vətəni satdı.
Səhv etdi
Qoç Koroğlu,
Elin zor oğlu,
Gərək öldürəydi
Keçəl Həmzəni.
Qoymayaydı arta,
Törəyə,
Aləmi bürüyə.
Səhvini düzəltsin
Koroğlu nəvələri,
Babək nəvələri,
Qırsın həmzələri,
Sumbatları.
Kökünü kəssin
Namussuzların,
Dinsizlərin
Biqeyrətlərin.
Izləri də qalmasın
Qazsın atsın.
Xalqı oyatsın.
Ayağa qaldırsın
Türk ordusun
Qələbə çalaq
Vətəni alaq
Apzuya çataq.

## GETDI ANA YURDUMUZ

Arxadan vuruldu,
Sərkərdəmiz,
Pəhləvan Əlyarımız.
Vəzifədən götürüldü,
Vətəni sevən,
Təcrübəli, qeyrətli,
Vətən oğlu
Briqada komandiri,
Nüsrət Namazovumuz,
Onu tutdular,
Həbs etdilər,
Erməni ilə
Bir kameraya saldılar.
Təhqir etdilər,
Incitdilər, alçaltdılar
Igid oğlumuzu,
Böyük sərkərdəmizi.
Yurddan uzaqlaşdırıldı,
Yurdu sevən,
Yurda bələd olan,
Qubadlı igidləri.
Yerinə gətirildi
Yurda bələd olmayan,
Təxribatçı ordular.
Xalq dözə bilmədi,
Ayağa qalxdı,
Qəhrəmanlar diyarı
Nəbi, Həcər elləri.
Xalqın tələbi ilə
Ikinci dəfə
Vəzifəyə gətirildi
Briqada komandiri
Elin igid oğlu
Təcrübəli sərkərdə,
Nüsrət Namazov.
Lakin ona,
Silah, sursat,
Kömək verilmədi.
Şahinlər,
Əlikrəmlər,
Rəhimlər,
Və sairələr və sairələr
Kömək vermədilər.

Güldülər ona,
Elin qeyrətli oğluna.
Qubadlıda olan
Azacıq təxribatçı
Ordularda,
Bölmədən çıxarıldı.
Köməksiz
Silahsız
Sursatsız
Qaldı Qubadlı.
Axıra qədər
Vuruşdu
Qubadlı igidləri
Tomris ürəkli
Nigar, Həcər
Qeyrətli
Ana bacılarda
Ayağa qalxdı.
Son anadək.
Döyüşdü, vuruşdu
Qubadlılar.
Igidlər qırıldı,
Əlacsız qalan
Qubadlılar,
Vuruşa-vuruşa
Geri çəkildi.
Göz yaşları ilə
Vətəni tərk etdi.
Bax belə,
Təxribatın
Qurbanı oldu
Qubadlı.
Igidlər məkanı
Qəhrəmanlar diyarı
Qubadlı igidləri
Düşmənə
Təslim olmadı.
Qəhrəmanlar
Ər oğlu ərlər
Məğlub kimi
Geri döndü.
Bax belə getdi
Qubadlımız,
Doğma diyarımız
Ana yurdumuz

Qalib ikən
Məğlub olduq.
Didərgin
Qaçqın, gəlmə
Gündə yüz kəlmə
Eşidir qulağımız.
Vətən yoxsa,
Yaşamağın nə mənası.

**ANALAR OĞUL DOĞUN**

*Oğul nəvələrimə*

Vətənə
oğul gərəkdir.
Koroğlu nərəli,
Babək qeyrətli,
Nəbi hünərli,
Ər oğul.
Düşmən
Hiyləgərdi,
Məkirlidi,
Xəbər verin
Analara,
Oğul doğsun,
Şir biləkli
Qurd ürəkli
Nər oğul
Düşmənə kinli,
Dosta həlim,
Beş oğul nəvəm
Böyüyür mənim,
Rəşad, Bəşir,
Orxan, Emin
Bir də Samir.
Vətən eşqi,
Yurd həsrəti,
Gözlərimdə,
Hazırdılar,
Vətən yoluunda
Fəda verməyə
Özlərində.
Qalxın ayağa,
Vətən oğulları
Koroğlular,

Nəbilər, Babəklər.
Qoymayın içimizə
Həmzələri, sumbatları
Satqınları
Yaltaqları
Düşmən hiyləgərdi,
Satqındı, yaltaqdı,
Ancaq arxalıdır.
Atalar deymişkən
Arxalı köpək
Qurd basar.
Qırın
Babəki satan,
Torpağımıza
Göz dikən dığaları.
Alçaqları, xainləri.
Rəşad Orxan,
Hanı Bəşir?
Salsın aləmə
Haray, həşir.
Yığılsın
Azəri igidləri.
Qırın
Alçaqları,
Xainləri,
Satqınları.
Yol verməyin
Düşmən qaça.
Hardasan?
Anamız Tomris?
Yığ başına
Həcərləri, Nigarları.
Arxadan qoru
Igidləri.
Dığalar qorxaqdı.
Ancaq gəzir
Xəlbəti guşə,
Arxadan
Vurur həmişə.
Sən kəsən
Başa
Sorğu-sual
Yoxdur
Anamız Tomris.
Qır qurtar

Qoyma biri də qaça.
Kəs başların
Axıt, qanların.
Daşlı Araratda
Doğulub onlar.
Verdik Göyçə mahalını
Köyçə gölünü
Adını dəyişib
Yerevan, Sevan dedilər.
Biz Samvelə,
Sayat Novaya
Ad-san verib
Dastan qoşduq.
Onlar isə
Torpağın tapdayıb
Ruhun əzdilər
Aşıq Ələsgərin.
Vardenis elədin
Basarkeçəri.
Naxçıvana
Mənim deyirsən
Naxçıvan dünyanın
Gözü olanda
Sənin izin tozunda
Yox idi,
A yazıq
Sənin baban
Qan içən
Andranik,
Tay qulaq öldü.
Əvvəl axır
Rəşadətli
Türk ordusu
Torpaqlarımızı alacaq
Sənin artıq qanın
Qulağından çıxacaq.

## HAQDAN GƏLIR

Alın yazısıdır: sevinc, qəm, kədər.
O, qismətdir, taledən bəxtdən gəlir,
Kiminə mənalı, kiminə hədər.
Şükür elə döz, çünki haqdan gəlir.
***

Dərd həmişə onu sevəni tapar,
Qəm-qüssə mənim ürəyimdə yatar.
Dərd mənim balamdı heç məni atar?
Şükür elə döz, çünki haqdan gəlir.
***
Bəzi ömrü yaşamağa dəyər.
Mənasız ömrü at, qoy keçsin hədər.
Mənim qismətimə düşüb dərd-kədər,
Şükür elə döz, çünki haqdan gəlir.
***
Mənim dərdim  çoxdur, çünki qoşadır.
Vətən, oğul iki dərd baş-başadır.
Sevincim yoxdur kədərim qoşadır.
Şükür elə döz, çünki haqdan gəlir.
***
Indi mən ölümümlə öyünürəm.
Ölüm yada düşəndə sevinirəm.
Mən ki, yaşamıram sürünürəm.
Şükür elə döz, çünki haqdan gəlir.
***
Əşir o, dünyada rahat yatarsan,
Orada  arzularına çatarsan.
Fani dünyanın dərd-qəmini atarsan.
Şükür elə döz, çünki haqdan gəlir.

## TAPDALANIR ANA TORPAQ

Allah sənə nə etmişdik
Bizə yazdın belə qismət.
Tapdalanır ana torpaq.
Əldən gedir abır, ismət.
***
Canımdadır ağrım acım,
Ağu deyir anam, bacım.
Hanı Qarabağım, tacım?
Viran oldu Şuşa, Laçın.
***
Qubadlımıız qan ağlayır,
Cəbrayılım yas saxlayır,
Füzuli mürgü bağlayır,
Ağdam da baxıb ağlayır.
***
Zəngilanım yaşıl allı,
Kəlbəcərin başı qarlı,

Xocalımız sinə dağlı,
Düşmənə qalıb ağlayır.
***
Qarabağım qızıl tacım,
Səninlədir ağrım acım.
Ağlar qalıb annam, bacım,
Dərd əlindən hara qaçım?
***
Əşir sənin dərdin qoşa,
Oğul, vətən bir tamaşa,
Dərd səndən alır ilhamı,
Ürəyindir onun məlhəmi.

## SƏNƏ NƏ DEYIM, ISGƏNDƏR

Sənə nə deyim Isgəndər?
Ürəyim soyusun mənim.
Şərqdə sən etmədin nələr?
Qırğınlar və dağıntılar.
***
Şəhərləri talan etdin,
Düşünən başları kəsdin.
Ölkələri viran etdin,
Qılıncdan keçirdin şərqi.
***
Buna dözərdik bir təhər,
Zülüm etdin bundan betər,
Sən yandırdın «Avesta»nı
Öyrənmədi onu bəşər.
***
Hələ mində biri deyil,
Bu sənin etdiklərinin,
Daim şərq öyrədib qərbə,
Elmi və mədəniyyəti.
***
Bilir Hindistanda, Çində,
Hər işdə üstün olub şərq.
Indi yuxarıdan baxır,
Qərblilər bizim şərqə.
***
Əşir sən gəzmə sərgəndə,
Namərdlər daş atır mərdə.
Şərqlilər gərək birləşə,
Və meydan oxuya qərbə.

## BIZI TUTDULAR DAŞA

Hörmət edib çıxartdıq başa,
Qonaq oldular plova, aşa,
Cumdular kababa, lavaşa,
Sonra bizi tutdular daşa.
***
Pis qonşu bizi ələ aldı,
Bizə qız verdi, kirvə oldu.
Guya dost-doğma qohum oldu.
Sonra bizhi tutudlar daşa.
***
Samveli xalq şairi etdik,
Sayat Novaya dastan qoşduq.
Onlar ruhumuzu incidib,
Sonra bizi tutdular daşa.
***
Biz paytaxt verib dövlət etdik.
Vəzifə verib çəkdik başa.
Onlarsa başladı savaşa,
Sonra bizi tutdular daşa.
***
Ermənilər yolların azdı,
Ələsgərin ruhunu əzdi,
Üz verdik çıxdılar lap başa,
Sonra bizi tutdular daşa.
***
Xalqımız torpağın alacaq
Pislik özlərinə qalacaq.
Artıq qan qulaqdan çıxacaq,
Nankor qonşular çıxdı başa
Sonra bizi tutdular daşa.
***
Əşir yaran olub dözülməz,
Qorxma hax nazilər, üzülməz.
O, tayqulaqda çıxdı başa,
Ölümü oldu bir tamaşa.
Sonra bizi tutdular daşa.

## BIR DOSTUN SANCDI MƏNI

Ağır günündə dayağı olduğum,
Yıxılanda ayağa qaldırdığım,
Bir dost məni ilan kimi sancdı,
Ayağımın altından yer qaçdı.

***

Dedi: Səndən artıqdı çox şeyim.
Villam, bağım, otağım, maşınım,
Pulum, varım, qızılım, daş-qaşım,
Yandım hirsimdən ağrıdı başım

***

Dedi: bəs sən niyə yaşayırsan?
Yoxdu villan, maşının, daş-qaşın,
Sənin buğlanır bozabaşın, aşın,
Ağzında yoxdu bir qızıl dişin.

***

Əşir artmasın dərd, kədər, qəmin
Olmasa da sənin pulun, varın,
Heç olmasa var namusum, arın
Birdə təmiz ad-sanın, vicdanın.

## MƏN VƏ VICDANIM

Əgər mən bir haxsız iş görsəm,
Vicdanım əzab verir mənə,
Aramızda dava başlayır,
Düşmən əl çalıb alqışlayır,
Hər kəs də özün haxlı sayır.

***

Vuruşuruq biz hər ikimiz,
Təhqir oluruq hər birimiz.
Birin o deyir, birini mən,
Axırda mən oluram haxsız,
Xəcalətdən ölürəm vaxtsız.

***

Görürəm haxlıdır vicdanım
Səhvlərimi sayır üzümə,
Barmağında soxur gözümə.
Təslim oluram barışırıq,
Əl verib biz qucaqlaşırıq.

***

Əşir heç vaxt atma vicdanı,
Dostunla düşmənini tanı.
Yaxşıya qiymət verən hanı?
Bilinmir satqınların sayı,
Sən zəif tərəfdə ol barı

## YAŞA ÜRƏK

Ürəklə qoşa gedirdim,
O dedi: mən dayanıram.
Sənin dərdin yaman çoxdur,
Alışıram mən yanıram.
***
Dedim: vəfan olsun ürək,
Bir müddətdə gözlə, görək
Çoxdan biz yoldaş olmuşuq,
Dost-doğma qardaş olmuşuq.
***
Dedi çox həmdəm olmuşam,
Sən qüssədə görməmişəm.
Gecə-gündüz yükə saldın,
Zəiflədib canım aldın.
***
Dedim: incimisən, neçin?
Dedi: ağla için-için.
Heç şadlanıb gülməmisən,
Dərddən həmşə inləmisən.
***
Dedim: bəlkə ac qalırsan?
Dedi: yaman az qanırsan.
Insan daim deyib, gülər,
Heyvansa çox yeyib, ölər.
***
Dedim: Sən təhqirə keçdin,
Dedi onu özün etdin.
Məni illərlə inlədib,
Axırdada atıb getdin.
***
Dedim: zalımdı ayrılıq,
Dedi: çox çəkmisən korluq
Uşaqlığın yetim olub,
Ahıllığın həsrət sənin.
***
Əşir yaman alovlanır,
Qəm qüssədən lap odlanır.
Balaların görmək istər,
Vidalaşıb ölmək istər.

## HƏSRƏT GÖZÜM

Dedim: ürək möhlət ver
Qoy bir az da yaşayım.
Balalarım qəribdir,
Onları qarşılayım.

***

Dedi yaşadığın bəsdi,
Sənin həyatın nəsdi
Fikir ömrünü kəsdi,
Öl, yaşamaq əbəsdi.

***

Dedim: ömür pis gəlib,
Həyatdan həz almıram.
Pis gözlər baxır mənə,
Xəncəl batır sinəmə.

***

Dedim qəm təsir edir,
Ona görə dözməyirəm.
Fikrim uzağa gedir,
Həsrətdən üzülürəm.

***

Dedim: talesiz çoxdur,
Dostlara inam yoxdur.
Ha sürün, nə mənası,
Onsuz da sonu heçdir.

***

De: gəldin mən deyənə?
Süleyman peyğəmbərdə,
Nakam getdi dünyadan,
Sənə nə qalar ondan?

***

Dedim başa düş məni,
Qovla dumanı çəni.
Balalarımı görüm,
Çox yaxındadır ölum.

***

Dedi: ölsən yetməzlər,
Istəsə də çatmazlar.
Az əzab ver özünə,
Həyat gülmür üzünə.

***

Dedim: bəlkə haqlısan,
Çağır gəlsin əzrayılı.
Öldürə bilməz məni,

Həsrət göz baxsa ona.
***
Teymurlar, Süleymanlar,
Koroğlular, Nəbilər,
Və sair qəhrəmanlar,
Ad san qoyub getdilər.
***
Əşir yox adın, sanın,
Nə şövkətin, nə şanın
Nişanən balaların,
Və qərib ev eşiyin.

## ARZUMDUR VƏTƏNDƏ ÖLMƏK

Ölürəm dağlar qan ağlasın,
Ana-bacım qara bağlasın.
Madar qızım yasım saxlasın,
Arzumdur vətəndə ölmək.
***
Balalarım uzaqlardadır,
Uşaqları qucaqlardadır.
Istərəm ki, onları görmək,
Arzumdur vətəndə ölmək.
***
Allahdan bizə gəldi qəzəb,
Millətimiz çox çəkdi əzab.
Qaçqın, didərgin nədir səbəb?
Arzumdur vətəndə ölmək.
***
Allah nə yaman zaman gəldi?
Aylar, illər yaman gəldi.
Düşmən bizə sevinib, güldü,
Arzumdur vətəndə ölmək.
***
Yalan ayaq açar, yeriməz,
Haq nazilər, amma üzülməz.
Yaralarım olub dözülməz,
Arzumdur vətəndə ölmək.
***
Şad günümüzə az qalıbdır,
Qış çıxıb, bahar yaz gəlibdir.
Düşmənlər çoxdan uduzubdur,
Arzumdur vətəndə ölmək.
***

Əşir ellərin görmək istər,
Doğma vətəndə ölmək istər.
Allah, o günləri görərdim,
Vətənimə çatıb ölərdim.

## MILLƏTIMƏ YAZIĞIM GƏLIR

Kömək durursan çıxır taxta,
Sonra hamısı olur saxta,
Adamı salırlar heyrətə,
Siz baxın onlardakı qeyrətə
Millətimə yazığım gəlir.
***
Belə hara gedirik, hara,
Az qalır adam dəli ola.
Niyə getmirlər xalqla yola,
Ancaq zora əl atırlar, zora,
Millətimə yazığım gəlir.
***
Yazıq xalq dost-düşməni tanı,
Səni sevib, oxşayan hanı?
Lağa qoyurlar ziyalını,
Sevirlər lovğanı, dəlini
Millətimə yazığım gəlir.
***
Iş bilməyən başa çəkilir,
Iş bilən zindana atılır.
Yaltaq, satqın meydan oxuyur,
Alim, şair təhqir olunur.
Millətimə yazığım gəlir.
***
Qəhrəmanlar, ər oğlu ərlər,
Məğlub kimi geri dönürlər,
Erməni qızından olanlar,
Baxırlar onlara gülürlər.
Millətimə yazığım gəlir.
***
Əşirəm dərdim başdan aşır,
Fikirdən bəzən ağlım çaşır.
Xalq çörək üçün dağlar aşır,
Axşamacan bazar dolaşır.
Millətimə yazığım gəlir.

## YAXŞI KI, ƏZRAYIL RÜŞVƏT ALMIR

Əgər əzrayıl rüşvət alsa,
Insan ölümüdə pulla olsa,
Bu müftəxor, harın məmurlar,
Rüşvət verərioridə ölməz,
Yaxşı ki, əzrayıl pul almır.
***
Nankor, insan qanı soranlar,
Var yığmaqda həddin aşanlar,
Dünya durduqca yaşayarlar,
Gündə beş qız alıb boşayarlar,
Yaxşı ki, əzrayıl pul almır.
***
Işləri yox torpaqla, yurdla,
Qiyamətə qalarlar, qurdla.
Torpaq getsə, millət ölsə də,
Üz çevirib baxmazlar yurda.
Yaxşı ki, əzrayıl pul almır
***
Allah yaratma sən qansızı,
Satqın, yaltaq, nankor, arsızı,
Onlar ələ salır pulsuzu,
Qəlblərinə bir az ar sıza.
Yaxşı ki, əzrayıl pul almır.
***
Insan nə qədər qansız olar?
Alçaq, həyasız, arsız olar.
Onlar bir kəsədə əl tutmaz,
Tək çinar kimi barsız olar.
Yaxşı ki, əzrayıl pul almır.
***
Əşir çox uzağa gedirsən,
Gecə-gündüz fikir edirsən.
Onlardan danışmağa dəyməz,
Fani dünya heç kimə qalmaz.
Yaxşı ki, əzrayıl pul almır.

## YURD HƏSRƏTI

Əziz vətənim doğma Qubadlı,
Söylə bülbül oxurmu bağında?
Gül-çiçəklər açırmı dağında?
Dağlar yerə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?
***
Yəqin günəş doğmur, ay da çıxmır,
Bulaqlar quruyub, daha axmır.
Çoxdan küsüb onlar bizə baxmır,
Dağlar yenə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?
***
Çölündən quşlar uçub uzağa,
Cüyür-ceyranın düşüb sazağa.
Malların daha gəlmir düzağa,
Dağlar yenə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?
***
Hardadır sənin Nəbin, Həcərin?
Tezləşdirə düşmənin əcəlin?
Özünə qazdıra öz məzarın.
Dağlar yenə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?
***
Əşir yaşın ötüb qocalmısan,
Sən o torpaqdan güc almısan.
Kaş orda dünyaya göz yumasan.
Dağlar yenə vüqarla baxırmı?
Həkərim, Bərgüşadım axırmı?

## VƏTƏNIMDƏ ÖLƏYDIM

Baxıram dağlara dağlar ağlayır,
Analar, bacılar qara bağlayır.
Ürək niskillidir, el yas saxlayır,
Allah, kaş vətənimdə öləydim mən.
***
Əzizlərim qalıb çox-çox uzaqda,
Nisgil çəkən körpələri qucaqda,
Xəstə canım dözmür yataqda,
Allah, kaş vətənimdə öləydim mən.

***

Millətimə çox ağır zərbə dəydi,
Bu faciə mənim qəddimi əydi.
Elə öz içimizdən zalım oldu,
Allah kaş vətənimdə öləydim mən.

***

Aman Allah, nə yaman zaman gəldi,
Illər bir-birindən çox yaman gəldi.
Ah naləmiz lap göylərə yüksəldi,
Allah, kaş vətənimdə öləydim mən.

***

Nisgil ürəyimi didib dağıdır,
Qarımış bu düşmən bizə yağıdır.
Indi vətənimdə bahar çağıdır,
Allah, kaş vətənimdə öləydim mən.

***

Vətən çox şirindir düşməyir dildən,
Bülbül həsrət çəkir bağçada güldən.
Mən vaxtsız ayrıldım obadan eldən,
Allah, kaş vətənimdə öləydim mən.

***

Əşir, çox darıxma bir zaman gələr,
Bulanmış o sular yenə durular.
Yenə əllərin vətəni qucaqlar,
Allah, kaş vətənimdə öləydim mən.

## QAYNATA

Atamın yanına el adətiylə,
Elçiliyə gəldiz bizə qayınata.
Qohum xahişiylə, dost minnətiylə,
Mən gəlin köçmüşəm sizə qaynata.

***

Arvad olub, mən sevmişəm oğlunu,
Gözləmişəm qaynanamın yolunu.
Qayın, baldız, nəslinizin dölünü,
Ucaltmışam, birdə yüzə qaynata.

***

Ağır otur, ağsaqqal ol elinə,
Xeyir danış, sər gətirmə dilinə,
Qəbahətdir, söymə qıza, gəlinə,
Adam güdmə, düşmə izə qaynata.

***

Hələ açıqdısa kamal dəftərin,
Gəlin də, qızındı düşünsən dərin.
Itirərsən kişilyin dəyərin,
Qoşulandan qiybət sözə qaynata.
***
Ciyəri bəladan qoruyar ödü,
Kölgə üçün haq yaradıb söyüdü.
Əşir verən nəsihəti, öyüdü,
Döndərərsən heçə, toza qaynata.

## ARZUYA ÇATAQ

Dostlar ataq dərdi qəmi,
Gözümüzdən silək nəmi.
Badələri süzün içək,
Dərddən, qəmdən uzaq qaçaq.
***
Nisgili salmayaq saya,
Qəm, kədəri ataq çaya.
Çox içək allanaq gedək,
Şənlənək, sallanaq gedək.
***
Sanki dərd qəm heç yox imiş,
Sevinc bizdə çox bal imiş.
Arsız ol, allanıb gedək,
Oyna-gül, sallanıb gedək.
***
Əşir vətən çıxmaz yaddan,
Gəl danışma, kefdən, toydan.
Birləşib vətəni alaq,
Toy edib, arzuya çataq.

## TÜLKÜ BƏYLIK EDIR

Nər bağlanıb eşşək quyruğuna,
Göndərilir tülkü buyruğuna.
Qəfəsdədir şir, pələng və ayı,
Ac qalırlar qışı, yazı, yayı.
Bu dünya yaman zalım dünyadır.
***
«Tülkü bəy» yeyib, içib şellənir,
Nər oğlu nər alnından nallanır.
Şir qəfəsdədir, bar-bar bağırır,

Insanları köməyə çağırır.
Bu dünya yaman zalım dünyadır.

***

Şahin-şonqarı tora salıblar,
Yazıq qartalı nişan alıblar.
Şir qəfəsdə hirsindən atlayır,
Könlünü dərdə, qəmə bağlayır.
Bu dünya yaman zalım dünyadır.

***

Çaqqal meydan oxuyur bəbirə,
Gündə yüz igid girir qəbirə.
Bizimki qalıbdır ancaq səbirə.
Bəbir xəstələnib, pis gündədir,
Bu dünya yaman zalım dünyadır.

***

Millətimin çoxusu dilənir.
Məmurlar yeyib-içib, enlənir,
Tülkü-çaqqal hallanıb, kefdədir.
Allah millətim yaman gündədir
Bu dünya yaman zalım dünyadır.

***

Tülkü çox şəndir öyrənib yala.
Qurda meydan oxuyur çaqqal, tula.
Xalqım möhtacdır ayrana, şora.
Baş bilənlərim salınıb tora,
Bu dünya yaman zalım dünyadır.

***

«Tülkü bəy» məcbur edir bəbiri,
Özü qazsın özünə qəbiri.
Arxasız qalıbdır bizim bəbir,
Pələng, ayı qəfəsdə dardadır,
Bu dünya yaman zalım dünyadır.

***

Əşir vətənsiz canın xəstədir,
Torpaq gedibdir ömür nəsdədir.
Şir bağlıdır salınıb qəfəsə,
«Tülkü bəy» qorxmur gəlib həvəsə.
Bu dünya yaman zalım dünyadır.

## SON SÖZ

Bu, kitab «Xatirəyə dönən günlər» kitabımdan sonra mənim oxucularla ikinci görüşümdür.

Burada mən yurdumuzun hansı yollarla işğal olunduğunu, tarixin bütün dövrlərində bədnam qonşumuz olan ermənilərin başımıza açdığı oyunları qələmə almışam.

Ən çox unudulmuşlarımızı yada salmaq istəmişəm. Şıx Hacı Qasım Çələbi, Şıx Mir Sədi Ağa kimi peyğəmbər övladlarından, xalqa düz yol göstərən, xalqın inac yeri olan insanlardan söz açmışam.

Ömrü boyu bir əlində «Quran», bir əlində qılınc tutmuş, azadlıq carcısı olan Bəhlul Bəhcətin həyat yolunu işıqlandırmaq istəmişəm.

Dar gündə xalqa arxa, kömək olan Cəbrayıl uzbaşı kimi ağsaqqalarımızı yada salmışam. Eyni zamanda vətəndaşlarımızda, xüsusilə gənclərdə ermənilərə nifrət, vətənə məhəbbət hisləri aşılamaq arzusunda olmuşam.

Bütün bunlara nə dərəcədə nail olmuşamsa, onu oxucular deyəcək, son söz onlarındır. Onu da qeyd edim ki, mən nə şair, nə də yazıçı deyiləm. Məni kitab yazmağa vadar edən vətən niskili, el dərdidir.

Ona görə də oxucularımdan nöqsanlarımı bağışlamalarını xahiş edirəm.

**Əşir Bəşir oğlu**

# IŞIQLI ŞƏXSIYYƏTLƏR UNUDULMUR

***(sənədlər və xatirələr)***

***BAKI – 2006, səh.300***

***Texniki redaktor:*** ***YAŞAR TAĞIYEV***
***Kompüter yığımı:*** ***ELNUR YUSİFOV***

*Kağız formatı 60x84 $^1/_{16}$.*
*Ofset çap üsulu.*
*Sifariş №. 05 Tiraj 500.*

***"Memar Nəşriyyat – Poliqrafiya"***
***MMC***
*K.Balakişiyev küç. 46[a], Tel.: (50) 352-33-58*